Nizami Məmmədzadə
Mahmud Kamaloğlu

# GÜRCÜSTANIN AZƏRBAYCANLI JURNALİSTLƏRİ



Nizami Məmmədzadə
Mahmud Kamaloğlu

# GÜRCÜSTANIN AZƏRBAYCANLI JURNALİSTLƏRİ

Tiflis 2015

Nizami Məmmədzadə, Mahmud Kamaloğlu

# GÜRCÜSTANIN AZƏRBAYCANLI JURNALİSTLƏRİ

ნიზამი მამედზადე, მაჰმუდ ქამალოღლუ

# საქართველოს აზერბაიჯანელი ჟურნალისტები

Kitabın redaktoru: **BİNNƏT ƏLİOĞLU**
Korrektoru: **AYSEL MƏMMƏDOVA**
Dizayn müəllifi: **OTAR KİKİLAŞVİLİ**

*"Gürcüstanın azərbaycanlı jurnalistləri" adlı kitab ilk dəfədir ki, Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı jurnalistlərin tərcümeyi-halından bəhs edən bir kitab kimi nəşr olunur. Kitabda Azərbaycandilli jurnalistikamızın Gürcüstan qolunun inkişafında böyük əməyi olan və dünyalarını dəyişmiş jurnalistlərimizin, həmçinin gənc qələm sahiblərinin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilib. Nəşrdə əsasən Gürcüstanda anadan olub və vaxtilə bu ölkədə nəşr olunan mətbuatda çalışan jurnalistlər haqqında məlumat verilib.*

*Kitaba həmçinin müəlliflərin elmi ədəbiyyatlardan istifadə edərək qələmə aldıqları "Gürcüstanda Azərbaycandilli mətbuatın tarixindən" adlı məqalə də daxil edilib.*

**Kitab "Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyi"nin təşəbbüsü və ARDNŞ-in Gürcüstan nümayəndəliyinin maliyyə dəstəyi ilə nəşr olunub.**

**KITAB AZƏRBAYCAN MILLI MƏTBUATININ 140 ILLIYINƏ HƏSR OLUNUB.**

წიგნი ეძღვნება აზერბაიჯანის ეროვნული ბეჭდვის 140 წლისთავს.

© Nizami Məmmədzadə, 2015

ISBN 978-9941-0-7875-0

## GÜRCÜSTANDA AZƏRBAYCANDİLLİ MƏTBUATIN TARİXİNDƏN

Gürcüstanda Azərbaycandilli mətbuatın tarixi demək olar ki, 1830-cu ildən başlayıb. Bu ilə qədər, yəni dəqiq qeyd etsək, 1828-ci ildə Tiflisdə "Tiflisskiye vedomosti" rus, gürcü 1829-cu ildə fars və 1932-ci ildə Azərbaycan dilində nəşr olunmağa başlayıb. Bir ildən sonra nəşri dayandırılan həmin qəzet Azərbaycan dilində "Tiflis əxbarı" adı ilə çıxıb və onun oxucuları həm Güney Qafqazda, həm də İran və Türkiyədə bu qəzeti alıb oxuyublar. Məlumata görə, qəzetin redaktoru P.S. Pankovski olub və o, öləndən sonra Azərbaycan dillində nəşr olunan bu qəzet qapanıb. Bundan sonra Tiflisdə 1838-ci ildə "Zakavkazskiy vestnik" adlı rusca qəzet nəşr olunmağa başlayıb və sonra bu qəzet gürcü və Azərbaycan dillərində də çıxıb. Azərbaycan dilində nəşr olunan qəzet "Qafqazın bu tərəfinin xəbəri" adlanıb və onun səhifələrində dövlət məlumatları, fərmanlar, qərar və qanunnamələr dərc olunub və əhali içində yayımlanıb. Həmin qəzetin nəşri 1846-cı ildə dayandırılıb.

Gürcüstanda Azərbaycan ziyalılarının əməkdaşlıq etdiyi daha bir qəzetin müsbət fəaliyyətini qeyd etmək yerinə düşər. Bu, 1846-cı ildən rus dilində nəşrə başlayan "Kavkaz" qəzetidir. Qəzet Azərbaycan yazıçı və şairlərin, dövlət idarələrində çalışan qələm sahiblərinin əsərlərini, məqalələrini və Aərbaycan ədəbiyyatı tarixində görkəmli yer tutan yazıçıların əsərlərindən nümunələri tərcümə edərək, bu ədəbiyyat məhsullarına öz səhifələrində geniş yer ayırıb. Azərbaycan ədəbiyyatı nümunələrinin bu qəzetin səhifələrində dərc olunmasında İsmayıl bəy Qutqaşınlı, M. F. Axundov, M. Səfiyev, M. Şahtaxtinski, S. Vəlibəyov, F. B. Köçərli, E. Sultanov, M. Ş. Mirzəyev, H. N. Vəzirov, C. Məmmədquluzadə və bir sıra görkəmli Azərbaycan yazıçı və jurnalistlərin böyük əməyi olub. Onlar öz qələmlərini "Kavkaz"ın səhifələrində cəsarətlə sınayıblar. Bu müəlliflərin təqdirəlayiq əməyi sayəsində Xəqani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, M. P. Vaqif, M. V. Vidadi, M. Ş. Vazeh, A. Bakıxanov, M. F. Axundov, Q. B. Zakir, Aşıq Pəri və başqa görkəmli Azərbaycan ədiblərinin əsərlərindən nümunələr "Kafkaz" qəzetinin səhifələrində dərc olunub.

Sadaladığımız bu qəzetlər Azərbaycandilli mətbuatın tarixi demək deyil. Bu, sadəcə olaraq Azərbaycan dilində yazmaq istəyən və millətin dərd-sərini, yüksəlişini, təhsili barədə fikirləri, çatışmazlıqları əhaliyə çatdırmaq istəyən yazıçı və jurnalistlərimizin Azərbaycan dilində yazıb-yaratmaq cəhdi idi. Bu addımlar o dövr üçün ən müsbət addımlar idi. Yazıçı və jurnalistlərimizin müxtəlif qəzetlərdə çıxışları və Azərbaycandilli mətbuat yaratmaq üçün atdıqları müsbət addımlar onu göstərirdi ki, nəhayət, xalq öz dilində yazılan müstəqil qəzeti görəcək. Və doğrudan da belə bir qəzet yarandı. Biz Milli mətbuatımızın yarandığı günü 1875-ci ildən qeyd edirik. Bu dövr görkəmli maarifpərvər, jurnalist, publisist Həsən bəy Zərdabinin adı ilə bağlıdır. H. B. Zərdabi 1875-ci ildə Azərbaycan dilində qəzet nəşr etdirmək üçün icazə aldı. O, bu icazə üçün düz yeddi il mübarizə apardı və nəhayət, istəyinə nail ola bildi. Həsən bəyin bu istəyini millət alqışlarla, böyük arzularla qarşıladı, ziyalılar onun bu istəyinə dəstək oldular, güc, qüvvə və biliklərini səfərbər edərək Həsən bəyə dəstək oldular. Qəzetdə bütün problemlərdən cəsarətlə söhbət açıldı. Lakin təəssüf edirik ki, Həsən bəyin bu arzuları iki ildən sonra puç oldu və qəzetin cəmi 56 nömrəsi işıq üzü gördü. Çar hökuməti bu vətənpərvər insanın milli mətbuatımızın inkişafı yolunda açdığı ilk qapını bağladı.

Həsən bəy Zərdabi haqqında oxuculara məlumat vermək istəyirik. Həsən bəy Zərdabi (Həsən bəy Məlikov) (28 iyun 1837, Zərdab, Göyçay qəzası - 28 noyabr 1907, Bakı) — Azərbaycanın görkəmli ziyalısı, Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman məzun, Azərbaycanın ilk universitet təhsilli alim və müəllimi, İslam dünyasının ilk təbiətşünas alimi, Bakı Gimnaziyasının ilk müsəlman müəllimi (1869), təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində islam xeyriyyəçilik hərəkatının banisi ("Cəmiyyəti-Xeyriyyə",1872), 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimi, ilk turkdilli qəzetin – "Əkinçi"nin naşiri, Azərbaycan mətbuatının banisi (1875-ci il iyul ayının 22-si), Azərbaycanda ilk qızlar gimnaziyasının açılmasının təşəbbüskarı, təşkilatçısı, Azərbaycan müəllimlərinin I qurultayının təşkilatçısı və qurultayın sədri (1906) olub. Qeyd edək ki, Həsən bəy Zərdabi ilk təhsilini mollaxanada alıb, sonra Şamaxı şəhər məktəbində oxuyub, orta təhsilini isə Tiflisdə tamamlayıb.

1861-ci ildə Moskva Universitetinə imtahansız daxil olub, dörd il sonra həmin universitetin təbiyyət-riyaziyyat fakültəsini bitirib.

Ali təhsil ocağında oxuduğu müddətdə tələbələr arasında xüsusi olaraq seçildiyinə görə fakültəni əla qiymətlərlə başa vurduqdan sonra elmi iş üçün universitetdə saxlanılıb, lakin vətəninə olan sonsuz məhəbbəti, xalqına, millətinə xidmət etmək arzusu onu Azərbaycana çəkib gətirib. Bir müddət Tiflisdə qulluq edəndən sonra Quba məhkəməsində işləyib, daha sonra 1869-cu ildə Bakıya gələrək burada rusca orta məktəbdə təbiətdən dərs deməyə başlayıb. O, mütərəqqi fikirlərinə görə dəfələrlə təqib edildiyindən müəllimlikdən əl çəkib, xalqı üçün geniş məzmunlu mədəni tədbirlər həyata keçirmək uğrunda fəaliyyətə başlayıb. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət edib. Bununla əlaqədar o İstanbuldan hürufat gətirib və nəhayət, xeyli zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində “Əkinçi” qəzetinin nəşrinə müvəffəq olub. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulub.

1877-ci ilin sentyabrın 29-a qədər “Əkinçi” ayda iki dəfə 300-400 tirajla nəşr olunub. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. Bütün təzyiqlərə baxmayaraq, o dövrdə Cənubi Qafqazda ziyalılarımız oyanmışdı. Onlar yeni mətbuat, söz demək üçün Tiflisdə fəaliyyət göstərməyə başladılar. Tiflis o dövr üçün ən sərfəli və coğrafi nöqteyi-nəzərdən bizim yazarları təmin edən bir şəhər idi. Tiflis elə bir coğrafi məkanda yerləşirdi ki, bu şəhərdə o dövrdə mədəniyyət, incəsənət və ədəbiyyat və milli mətbuat üçün imkan və istənilən şərait vardı. Tiflis Qafqazın beşiyi sayılırdı. Bu şəhərdə müxtəlif dillərdə məktəblər açılır, teatr və mətbəələr yaradılır, milli mətbuat nümunələri olan qəzetlər və kitablar nəşr olunurdu. Bu dövrdə, yəni 1879-cu ildə Hacı Səid Ünsizadənin rəhbərliyi ilə yeni bir qəzet-“ZİYA” qəzeti nəşr olundu. Bu müsbət hadisə iki ildən sonra baş verdi. “ZİYA” (1879-1880) qəzetinin də ömrü çox az olub. Qəzet sonra “Ziyayi-Qafqaziyyə” (1880-1884) adı ilə nəşr olundu və bu illərdə “ZİYA” qəzetinin 76, “Ziyayi-Qafqaziyyə”nin isə 107 nömrəsi çıxıb. Tiflisdə daha sonra 1883-1891-ci illərdə Cəlal Ünsizadə tərəfindən siyasətdən bəhs edən “Kəşkül” adlı jurnal da nəşr olunub. Jurnalın cəmi

11 nömrəsi çıxıb. Cəlal Ünsizadə Səid Ünsizadənin qardaşı idi və sözsüz ki, onu bu jurnalı nəşr etməyə qardaşı sövq edib və ona hər cür kömək göstərib. Cəlal Ünsizadə o dövrün ziyalılarını, maarifsevər insanlarını sonralar qəzet kimi çıxan "Kəşkül"ün ətrafına toplaya bilib. Qəzetdə istər rus, istərsə də, gürcü və azərbaycanlı elm xadimləri, yazıçılar və jurnalistlər çıxış etməyə başladılar və dövrün qabaqcıl ideyalarını yaymaq üçün bu qəzetin səhifələrində müxtəlif mövzularda tez-tez çıxış etməyə başladılar. "Kəşkül" H. B. Zərdabi, S. Ə. Şirvani, F.B. Köçərli, S. M. Qənizadə, R. Axundov, S. Vəlibəyov, G. Kəngərli və digər azərbaycanlı ziyalıların yaradıcılığından nümunələri, onların qələmə aldığı müxtəlif mövzularda məqalələri dərc edib, siyasi həyatı xarakterizə edib, məşhur insanları təbliğ edib, onların mütərəqqi ideyalarını cəsarətlə yayıb.

"Kəşkül"dən sonra Tiflisdə 1903-cü ildə Məmmədağa Şahtaxtlının təşəbbüsü və maliyyə dəstəyi ilə "Şərqi-rus" qəzeti çıxmağa başlayıb və qəzetin yaradıcı heyətinin işgüzarlığı sayəsində bir ildən sonra həmin qəzet gündəlik nəşr edilib. "Əkinçi" qəzeti kimi "Şərqi-rus" qəzeti də Azərbaycan mətbuatında cəmiyyətin alqışlarla qarşıladığı və o dövrdə ictimai fikrin inkişafında əsas yerlərdən birini tutub. "Şərqi-rus" qəzeti ilk türk qəzeti kimi istedadlı qələm sahiblərini ətrafına toplamağı bacarır. M. Şahtaxtlı istedadlı jurnalist olmaqla bərabər, mahir redaktor idi, sözün qədrini bilən yazar idi. Məhz bu istedadına görə də o, qəzetin mənalı və mükəmməl çıxmağı üçün dövrün qabaqcıl ziyalılarını və qələm sahiblərini öz ətarfına yığa bilib. Həmin dövrdə çətinliklə və mübarizələrlə nəşr olunan qəzeti cəmiyyət sevib. O dövrdə çar üsul-idarəsi milli mətbuatın cəmiyyət içində qazandığı nüfuzdan çox qorxurdu. Məhz buna görə də çar hökuməti Tiflis kimi getdikcə inkişaf edən, müxtəlif mədəniyyətlərin mərkəzinə çevrilən bir şəhərdə milli mətbuatın inkişaf etməsinə hər vəchlə əngəllər törədib. Bu səbəbdən "Şərqi-rus" 1905-ci ildə bağlanıb. "Şərqi-rus" bağlandıqdan sonra onun mətbəəsini Cəlil Məmmədquluzadə satın alıb. Bu işdə ona maddi köməkliyi Tiflisdə yaşayan vətənpərvər bir insan olan Məşədi Ələsgər Bağırov edib və C. Məmmədquluzadəyə bir çox ziyalılar, o cümlədən Ömər Faiq Nemanzadə də dəstək olub. Cəlil Məmmədquluzadə mətbəəyə "Qeyrət" adı verib. Nəhayət, 1906-cı ildə Tiflisdə Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə "Molla Nəsrəddin" jur-

nalı nəşr olunub. Onun əsas yaradıcılarından biri də Ömər Faiq Nemanzadə olub. Jurnalın ilk nömrəsi aprelin 7-də nəşr edilib. Tez bir zamanda jurnal Qafqazda və digər ölkələrdə özünə yüzlərlə oxucu qazanıb. Tiflisdə cəmi 370 nömrəsi çıxan jurnalın nəşri 1918-ci ildə dayandırılıb və sonrakı illərdə jurnal digər ölkələrdə nəşr olunub. "Molla Nəsrəddin" 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Redaktoru və müəllifi Cəlil Məmmədquluzadə olub. 25 il ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxıb.

Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra 1921-ci ilin martından Tiflisdə Azərbaycan dilində "Kommunist" qəzeti nəşr olunmağa başlayıb. Qəzetin cəmi 19 nömrəsi çıxıb. "Kommunist"in redaktoru Məmmədəli Nasir olub. Qəzet Respubluka Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı olub. Qəzet 1922-ci ilin yanvarından Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı kimi "Yeni fikir" adı ilə nəşr olunub. "Kommunist" qəzetinin 16-cı nömrəsində xəbər verilib ki, "Yeni fikir" qəzetinin birinci nömrəsi çapdan çıxıb. Qəzeti həmin dövrlərdə Orta Asiyada,Türkiyədə və İranda oxuyurdular. "Yeni fikir"in səhifələrində görkəmli Azərbaycan yazıçıları və şairləri, publisistləri və alimləri – M. S. Ordubadi, Ə. Nəzmi, M. Müşfiq, S. Vurğun, S. Rüstəm, R. Rza, R. Şahvələd, Ə. Qarabağlı, Ə. Şərif və başqaları tez-tez çıxış edirdilər. Qəzetin ilk redaktoru H. Səbri olub. Qəzet Zaqafqaziya Ölkə Komitəsinin orqanı olduqdan sonra onun redaktorları B. Talıblı, D. Rəsulzadə, M. D. Hüseynov, Rzaqulu Həsənov (O, həm də "Molla Nəsrəddin" jurnalının redaktorlarından biri olub.) kimi alovlu inqilabçılar olublar. 1927-ci ildən qəzet "Yeni kənd"lə (1927-1938) əvəz olunub. Sonra Gürcüstan paytaxtında "İşıqlı yol" (1924) qəzeti, "Dan ulduzu" (1926-1931), "Şərq kolxozçusu" (1931), "Qızıl şəfəq" (1926-1930), "Yeni qüvvət" (1930-1939), "Gənc nəsil" (1939-1941) jurnalları da işıq üzü görüb.1939-cu ildən etibarən "Yeni kənd" qəzeti "Sovet Gürcüstanı" adı altında çıxıb. Qəzetə bu adı Gürcüstan Mərkəzi İcraiyyə Komitəsinin sədri Filip Maxaradze verib.

İndi Tiflisdə nəşr olunan "Gürcüstan" qəzetinin tarixi məhz bu dövrdən başlayıb. 1927-ci ildən qəzet "Yeni kənd", 1938-ci ildən "Sovet Gürcüstanı" adı ilə çıxmağa başlayıb. Qəzet bu dövrdə Gürcüstanda

azərbaycanlılar yaşayan bölgələrdə olan problemləri cəsarətlə qaldırıb. Qəzetin səhifələrində dərc olunan ailə, məktəb və ictimaiyyət mövzusunda olan yazılar müzakirəyə çevrilib və nəinki Gürcüstanda, eləcə də müttəfiq respublikalarda da maraqla qarşılanıb. Qəzetdə verilən "Onlar Gürcüstandandırlar" rubrikası altında verilən yazılar Gürcüstanda boya-başa çatan, ilk təhsil alan adamlar haqqında və ölkənin hüdudlarından kənarda yaşayan və böyük nüfuza malik elm adamları, mədəniyyət xadimləri, istehsalat qabaqcılları haqqında söhbət açıb. Gürcüstanda, eləcə də xaricdə yaşayan soydaşlarımız bu qəzeti sevə-sevə oxuyublar. Vaxtilə qəzetin 50 minə yaxın abunəçisi olub. Qəzet Sovet hakimiyyəti illərində "Şərəf nişanı" ordeni ilə təltif edilib. Hazırda "Sovet Gürcüstanı" qəzeti "Gürcüstan" adı ilə nəşr olunur.

XX əsrin 20-ci illərində Tiflisdə Azərbaycan ədəbi mühiti xüsusilə inkişaf edərək, siyasi, ictimai və ədəbi mühitə yeni yazarlar və dahi şəxsiyyətlər bəxş edib. Bu dövrdə Gürcüstanın Batumi şəhərində "İştirak" (1921), "Yeni həyat" (1922-1924), Sarvanda (Marneuli) "Pambıqçı" (1930, sonralar adı dəyişərək "Stalin yolu" və "Kommunizm uğrunda" olmuşdur), 1965-ci ildən isə "Yeni Marneuli" (sonralar Azərbaycan və gürcü dillərində "Kvemo Kartli" adı ilə çıxıb), 1933-cü ildə Başkeçiddə (Dmanisi) "Sosializm maldarlığı" (sonralar "Trialeti" adı ilə Azərbaycan və gürcü dillərində çıxırıb və 1991-ci ildə qəzetin Azərbaycan şöbəsi bağlanıb), 1935-ci ildə Lüksemburqda (Bolnisi) "Al bayraq" (son vaxtlar "Qələbə bayrağı" adı ilə çıxıb; 1990-cı ildə qəzet "Bolnisi" adlandırılıb və bir neçə ay sonra Azərbaycan şöbəsi bağlanıb), Qarayazıda (Qardabani) 1931-ci ildə "Stalinçi" ( sonralar "Samqori" adı ilə Azərbaycan və gürcü dillərində çıxıb), Adıgündə "Qızıl rəncbər" (1933), sonra "Adıgün kolxozçusu" (1936), Axalsıxda "Kommunist" (1930), sonra "Qızıl bayraq" (1938), Aspindzada "Bağban" (1933), sonra "Sosializm kəndi" (1940) adı altında çıxıb. Qeyd etdiyimiz qəzetlər öz səhifələrində Azərbaycan ədəbiyyatına, azərbaycanlıların sosial-həyat tərzinə xüsusi yer verib, ədəbi-mədəni mühitdən yazıb, ümumilikdə götürsək, Borçalı ədəbi qolunun inkişafına böyük töhfələr verib.

2000-ci illərdən başlayaraq, Gürcüstanda Azərbaycandilli mətbuatımız inkişaf edib. Hazırda Gürcüstanda "Gürcüstan", "Regionpress", "ZİYA",

“Varlıq”, “Qeyrət”, “Günəş”, “Sözün işığı”, “Təhsil”, “Yeniləşmiş məktəb”, “Maarif”, “Müvəkkil”, “Qarayazı” və digər Azərbaycandilli qəzetlər, eyni zamanda “Qarapapaqlar”, “Meydan”, “Əhli-Beyt”, “Müctəba” və bir çox dini jurnallar nəşr olunur.

***P.S. İlk dəfə nəşr olunan “Gürcüstanın azərbaycanlı jurnalistləri” adlı kitaba yalnız bu ölkədə anadan olan və kütləvi informasiya sahələrində çalışmış jurnalistlərimizi daxil etdik. Biz Gürcüstanda anadan olub, Azərbaycan və digər ölkələrdə yaşayan və mətbuat sahəsində çalışan jurnalistlərimizin həyat və fəaliyyəti haqqında da geniş məlumatlardan ibarət ikinci kitabı da nəşr etməyi planlaşdırmışıq.***

**NİZAMİ MƏMMƏDZADƏ,**
**Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri**

**MAHMUD HACIXƏLİLOV,**
**filologiya üzrə fəlsəfə doktoru, professor**



# ÖMƏR FAIQ NEMANZADƏ

Ömər Faiq 1872-ci ildə Tiflis quberniyasının Ahıska (Axalsıx) qəzasının Azqur kəndində anadan olub.

O, ilk təhsilini kənd camesində alıb və anasının təkidi ilə 1882-ci ildə İstanbula gedib, «Fateh» məktəbində təhsilini davam etdirib.

Təbiət elmlərinə həvəsi olduğuna görə sonradan «Darüş Şəfəq» məktəbinə daxil olub. Həmin məktəbi bitirdikdən sonra (1891) Qalata poçt və teleqraf idarəsində əmək fəaliyyətinə başlayıb. O, burada qəzet və jurnallar vasitəsilə Avropadakı demokratik ruhlu türk mühacirlərinin əhval-ruhiyyəsi və türk inqilabçı şairlərin bədii yaradıcılığı ilə yaxından tanış olub. Bir müddətdən sonra Sultan istibdadına qarşı gizli çalışan cahillərə (cavanlara) qoşulub.

Ahıskada milli münasibətlərin kəskinləşməsi dövründə (1894) vətənə qayıdıb. İnqilabi dünyagörüşlü ziyalı kimi yetişən Ömər Faiq maarif və mədəniyyət sahəsində Azərbaycanın demokratik ruhlu vətənpərvər oğullarına qarışıb ömrünün axırına kimi biliyini və bacarığını xalqın azadlığı uğrunda mübarizəyə yönəldib.

Ömər Faiq 1894-cü ildə Şəkidə ilk üsuli-cədid məktəbində dünyəvi elmlərdən dərs deyib və İstanbuldan gətirdiyi açıq fikirli əsərləri xalqa paylayıb oxutdurub. O, burada M.F. Axundovun «Müsyö Jordan və dərviş Məstəli şah» pyesini səhnə üçün hazırlayıb, Müsyö Jordan rolunda özü çıxış edib.

1896-cı ilin yazında xəstəliyi ilə əlaqədar Ömər Gəncəyə, oradan da Hacıkəndə gedib, orada İstanbuldan gələn Məhəmməd Əfəndi ilə yaxından tanış olub. Ömər Faiq 1896-1998-ci illərdə xəstəliyinə görə Abastumanda və Azğurda yaşayıb.

Ahıskada milli məktəb açmaq fikrinə düşən Ömər Tiflis maarif müdirinə ərizə yazıb – ondan: «Lazımsa, şkolada (məktəbdə) oxudun, ayrıca türk məktəbi olmaz» cavabını alıb.

Tiflisdən Müfti və Şeyxülislama şikayətlənib «Rusiyadakı türklərlə Türkiyədəki rum və ermənilər arasında hüquqca böyük bir fərq olduğunu»

söyləyib.

Ömər Faiq milli hüquqları müdafiə məqsədilə «hər millətin mədəniyyətə və maariflənməsinə haqqı vardır və bu haqqı hər yerdə, hər zaman saxlamalıdır» deyib.

O, xəstəlikdən sağalıb 1898-ci ildən 1900-cü ilə kimi Şəkidə came məktəbində müəllim işləyib. Orada dini dərslərin tədrisini azaltmaqla hesab, coğrafiya, tarix və dil fənlərini tədris edib. 1900-cu ildə Ömər Faiq ictimai həyatda fəal məşğul olmaq üçün Bakıya gəlib.

Bakı şəhərində milli məktəblərin yox dərəcəsində olduğunu, müsəlman xalqının acınacaqlı bir şəkildə yaşamasını görən Ömər Faiq «Əgər Tağıyevin açdığı qız məktəbini görməsəydim Bakının türk maarifi üzərinə qara bir cizgi çəkəcəkdim» deyib.

Ömər Faiq 1900-cu ildə Şamaxıya gəlib. O, burada milli məktəbin təşkil edilməsinə yaxından yardım edib və tarix, coğrafiya, hesab və türk dilindən dərs deyib.

1902-ci il yanvar ayının 31-də Şamaxıdakı güclü zəlzələdən sonra Ömər Faiq Tiflisə gəlib.

Ömər Faiq 1903-cü ilin mart ayının 30-da nəşrə başlayan «Şərqi-Rus» qəzetində Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Səməd ağa Qayıbov, Üzeyir Hacıbəyov, Rəşid İsmayılov, Əsəd Babayev, Yusif Əfəndizadə ilə bir yerdə işləməyə başlayıb. Bu qəzet Qafqazda ilk dəfə olaraq nəşr olunan siyasi və ictimai gündəlik türk qəzeti olub. Böyük jurnalistlər olan Faiq və Mirzə Cəlil məhz Tiflisdə nəşrə başlayan "Şərq-Rus" qəzeti vasitəsilə görüşüb dost və həmfikir olublar və həmin bağlılıq sonradan bu iki qiymətli şəxsi "Molla Nəsrəddin"ə gətirib çıxarıb. Bir sıra maddi çətinliklərdən sonra 1906-cı ildə ilk dəfə «Molla Nəsrəddin» jurnalı nəşr edilib. Jurnalın təsis edilməsində və onun nəşrində Cəlil Məmmədquluzadə və Ömər Faiqin müstəsna rolu olub.

«Molla Nəsrəddin» jurnalında yalançı hürriyyətpərəstlərə qarşı yazdığı məqaləsində Ömər Faiq deyirdi: «Əgər hürr yaşamaq istəyiriksə, dəliqanlı cavanlarımızı qurban verməliyik. Qurban verdikdən sonra isə onları ağlamaqla, uzun yas saxlamaqla özümüzü taqətdən salmamalıyıq. Dübarə qurban verməməliyik, təki, hürriyyət xalqın qanı ilə qazandığı halal malı olsun. Əgər oturub gözləsək və başımızı boş danışıqlarla qarışdırsaq,

dilimizdə hürriyyət sözü bitsə də, onun bəhrəsi olmayacaqdır».

O, başqa bir məqaləsində isə belə yazırdı: «»Sən ey Türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə Türksən! Sən gərək biləsən ki, dünyada hələ şiə, sünnü, babı, şeyxi adları yox ikən sən var idin... Ey özündən xəbərsiz Türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu «yasaq» qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən sənin yurdunda var idi. Sənin öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi. Bəsdir, bəsdir, ey türk! Bir az ayıl... Əl-ayağını bir az tərpət! Vücudunu, varlıq ağacını soran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yarpaqlarını, budaqlarını qır at, qurtul. Vücuduna günəş, hava dəysin! Başını bir az yuxarı qaldır, öz varlığının, öz vücudunun qiymətini bil! İndiyə qədər yadlar üçün, özgə varlıqlar, özgə vücudlar üçün özünü həlak etmisən. Barı bundan sonra da olsa, ayıl özünə gəl, öz gününə çalış!»

1911-ci ildə C. Məmmədquluzadə Tiflisə, jurnalın müvvəqəti redaktoru Məmmədəli Sidqiyə göndərdiyi məktubda yazmışdır: «Əzizim Məmmədəli!... Bunu sənə əvvəllər də istəyirdim yazım ki, Faiq Əfəndi bundan sonra oranın sahibi-ixtiyarıdır, hərtərəfli.»

Ömər Faiq təkcə «Molla Nəsrəddin» jurnalında deyil, eyni zamanda, o dövrdə çap edilən bir sıra qəzet və jurnallarda («Açıq söz», «Tərəqqi», «İrşad», «Həyat», «Rəncbər», «Adıgün kolxozçusu», «Kommunist», «Qızıl bayraq», «Bağban» və s.) çıxış etmişdir. Yazıları Ömər Faiq Nemanzadə, Ümidvar, Ümid, Faiq Nemanzadə, Lağlağı, Mozalan və s. ad və təxəllüslərlə çıxmışdır. Ömər Faiqin dövrün bir sıra mühüm ictimai-siyasi məsələləri haqqında müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu müasirlərinə yetkin qələm sahibi kimi tanıtmış və sevdirmişdir.

Ömər Faiq Ahıskada erməni və gürcü dəstələrinin terror fəaliyyətini öz gözləri ilə görmüşdür. Onun bir sıra məqalələrindən aydın olur ki, Gürcüstanda səs salmış «Gürcü işi» adlı əməliyyatın başlanması ilə əlaqədar o, dərhal öz ictimai-siyasi fəaliyyətini dayandırmış, həmin vaxtdan Gəncəyə köçüb fəaliyyətə başlamış, qəzet və jurnallarda tez-tez məqalələrlə çıxış etmişdir. Ömər Faiqin ən fəal işlərindən biri 1917-1920-ci illərdə Ahıska (Axalsix) bölgəsindəki fəaliyyəti olmuşdur. O, Cənub-Qərbi Qafqazda ilk müstəqil türk respublikası «Ahıska hökuməti-

müvəqqətəsi»nə hökumət rəisi seçilmişdir. Altı aydan sonra menşeviklər Gürcüstanı ələ keçirmiş və bu respublika ləğv olunmuşdur. «Cənubi-qərbi Qafqaz hökuməti» yıxıldıqdan sonra o, Gürcüstan menşevik hökumətindən Ahıska və Ahılkələk əyalətlərinə muxtariyyət tələb etməyə başladı. Lakin bu arzusu həyata keçmədi. Əvəzində menşeviklər tərəfindən üç dəfə həbs olunub, Metex qalasına salınıb, lakin xalqın tələbi ilə yenidən azadlığa buraxılıb.

Ömər Faiq 1920-ci ildə Gəncə Ziraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləyib. O, 1920-1921-ci illərdə «Zəhmətkeşlərin gözü» jurnalının redaktoru, bir az sonra «Yeni fikir» redaksiya heyətinin üzvü seçilib. Sonra Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilib.

İnqilab illərində Ömər Faiq dəfələrlə həbs edilmişdir. O. 1923-cü ildə Azərbaycana gəlmiş və 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlmişdir. O dövrdə dərsliklərin hazırlanmasına və onların çap edilməsinə yardım edib.

Ömər Faiq Nemanzadə 1937-ci ildə Bakıda Stalin repressiyasının qurbanı olub.



# MƏHƏMMƏD AĞA ŞAHTAXTLI
# (1846-1931)

Görkəmli maarifçi, publisist, alim, milli ziyalı Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu 1846-cı ildə Şahtaxtıda anadan olub. 1860-cı ildə Naxçıvan şəhər qəza ibtidai məktəbini bitirərək 14 yaşında ikən Tiflis klassik gimnaziyasında təhsilini davam etdirib. O, 1871-ci ildə Almaniyanın Leypsiq universitetinin Tarix, Fəlsəfə və Hüquq fakültəsində ali təhsil alıb. 1873-1875-ci illərdə Parisdə yaşadıqdan sonra Tiflisə qayıdıb. 1879-cu ildə "Təkmilləşdirilmiş müsəlman əlifbası" layihəsini hazırlayıb nəşr etdirib. M.Şahtaxtlı 1894-cü ildə Azərbaycan dilində nəşr etmək istədiyi qəzet və yaratmaq istədiyi mətbəənin avadanlıqlarını almaq üçün Naxçıvana gəlir və ata mülkünün bir hissəsini 18 min manata satır. 1899-1902-ci illlərdə Fransanın Sorbon Universitetində Ali Təcrübi Təhsil məktəbində təhsil alır. Bu dövrdə Tiflisə qayıdan görkəmli ictimai-siyasi xadim, publisist şəxsi mətbəəsini qurur, "Şərqi-rus" qəzetini nəşr etdirir. 1906-cı ildə isə həmin mətbəəni Cəlil Məmmədquluzadəyə bağışlayır. 1907-ci ildə İrəvan quberniyasından Dövlət Dumasına millət vəkili seçilir. 1909-1912-ci illərdə Rusiya İmperiyasının Türkiyədəki səfirliyində tərcüməçi-jurnalist olan M.Şahtaxtlı sonrakı dövrdə Bakı Dövlət Universitetində şərqşünas kimi çalışır. Bu sahədəki fəaliyyətinə görə universitetin Elmi Şurası tərəfindən ona Professor elmi adı verilir. O, BDU-nun ilk azərbaycanlı professoru idi.

M.Şahtaxtlı 12 dekabr 1931-ci ildə Bakı şəhərində vəfat edib.



## HÜSEYN MINASAZOV
## (1881-1932)

Hüseyn Baxşəli oğlu Minasazov 1881-ci ildə Borçalının Sarvan kəndində dünyaya gəlib. İbtidai məktəbi doğma kəndi Sarvanda bitirdikdən sonra təhsilini 1889-cu ildə həmin dönəmlərdə Cənubi Qafqazda çox məşhur olan bir elm ocağında – Qori Müəllimlər Seminariyasında davam edib. 1894-cü ildə həmin elm ocağında tam kursu bitirib. Elə həmin ildə o, Azərbaycana köçüb, əvvəlcə Cavad qəzasının (indiki Salyan rayonu) Xıllı kəndində, sonra isə Bakıya gələrək ikisinifli Sabunçu məktəbində rus dili müəllimi işləyib.

Hüseyn Minasazov müəllim işləyə-işləyə mətbuat səhifələrində ictimai quruluşa, milli hiss və münasibətlərə, qadın azadlğına və s. problemlərə həsr olunan elmi, elmi-publisist məqalələr dərc etdirib. Hətta bu cür məqalələrə görə, onun başqaları ilə münaqişələri də olurdu.

Jurnalistikaya olan böyük marağı nəhayət, onu mətbuatda işləməyə gətirir. 1902-ci ildə Hüseyn Minasazov redaksiyalardan birinə korrektor vəzifəsinə düzəlir. Çox keçmir ki, gənc Hüseyn o vaxtlar çox nüfuzlu qəzetlərdən hesab olunan “Kaspi” qəzetinə korrektor təyin olunur. Elə həmin illərdə böyük publisist, məşhur qəzet işçisi “Əkinçi” qəzetinin təsisçisi Həsən Bəy Zərdabi ilə tanış olur.

1906-cı ildə Hüseyn Minasazov yaxın ziyalı dostları ilə birlikdə döğma vətəni Gürcüstana gəlir və Tiflisdə çıxan “Zaqafqaziye” qəzetində əməkdaşlıq edir. O, burada Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Qr. Diasamidze, i. Nakaşidze, P. Qotua kimi tanınmış elm, incəsənət xadimləri ilə dostlaşır.

Hüseyn Minasazov böyük ədib İlya Çavçavadzenin ölümü ilə əlaqədar 1907-ci ildə “İsari” qəzetində yaxın qələm dostu sonra iş yoldaşı olan E. Bondarenkonun xəstəliyi ilə bağlı “Jurnalistin payı” adlı məqaləsi o vaxtkı ictimai aləmdə böyük sensasiya yaradır.

Görkəmli jurnalist o dövr üçün lazımi və gərəkli olan qəzet, mətbuat məsələlərinə çox ciddi yanaşıb və B. Yeqorov, B. Ostrovski və başqa

ədiblərin yaxından iştirakı ilə ilk dəfə olaraq rus dilində “Ejenedelnoye obozreniye” qəzetini buraxır.

Bakı və Tiflis şəhərlərində çıxan bütün rusdilli mətbuatda H.Minasazov dövrün tələbləri, cəmiyyətin düzgün idarə olunması, milli münasibət, xalqlar arasında dostluq, qardaşlıq həmrəyliyi və s. kimi aktual problemlər qaldıraraq samballı məqalələrlə çıxış edirdi.

H. Minasazov 1924-cü ilə qədər ara-sıra doğma kəndi Sarvanda yaşamış, yerli məktəbdə müəllimlik etmişdir. Sonrakı illərdə Bakı və Naxçıvan şəhərlərində arxiv idarələrində çalışmışdır.

1929-cu ildən ömrünün sonunadək H. Minasazov ölkədə nəşriyyat sahəsində, sonra isə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunda tarix-etnoqrafiya şöbəsində elmi əməkdaş işləyib. Bu illərdə publisist “Bir inqilabın yüz ili” adlı kəndli hərəkatına həsr etdiyi elmi işi və “SSRİ Elmlər Akademiyasının dərsi” adlı monoqrafiyalarını yazıb tamamlayıb. Qeyd edək ki, hər iki elmi işin əlyazması dövlət arxivində saxlanır.

Hüseyn Minasazovun rəhbərliyi ilə vaxtilə pedaqoji uşaq jurnalları olan “Dabistan” (Məktəb), “Raxbar”, “Məktəb” (“Şkola”) də nəşr olunub.

Onun qadın məsələsi ilə bağlı publisist yazıları tez-tez “Molla Nəsrəddin” jurnalının səhifələrində, Rusiyanın bir sıra qəzetlərində o cümlədən Tiflisdə çıxan “Zaqafqazye” qəzetində və s. tez-tez dərc olunurdu.



## İSMAYİL HƏQQİ

Gürcüstanlı mollanəsrəddinçilərdən olan İsmayıl Səməd oğlu Həsənzadə Həqqi (1882–1938) Tiflisdə doğulmuş, Tiflis Azərbaycan Dram teatrımızın səhnəsində rollar aparmış, Tiflisdə “Şərqi-Rus”, Bakıda “Kaspi”, sonra Tiflisdə “Qeyrət” mətbəələrində mürəttiblik etmiş, bədii tərcüməçiliklə, publisistik, şeir oluşduruculuğuyla məşğul olmuş, 1937 repressiyasının qurbanı olmuşdu. O, Mirzə Cəlilin, Ömər Faiqin, Əziz Şərifin, Məmməd Səid Ordubadinin anıtlarında dövrün bacarıqlı naşiri, jurnalisti, “səmimi və etibarlı dost” kimi anılır. Xatirələrdən aydınlaşır ki, Mirzə Cəlil istirahətə gedəndə “Molla Nəsrəddin”i Qızdırmalıya (Əliqulu Qəmküsara), Məmmədəli Sidqiyə və İsmayıl Həqqiyə tapşırarmış. Həqqi anıtlarında göstərir ki, Sabir Tiflis’də xəstəxanada yatarkən onunla yaxın ünsiyyət yaratmışdı. Çağdaşlarının xatırladıqlarına görə, “Tiflis azərbaycanlılarının mədəni mərkəzi Həqqinin kontoru idi.”

Əziz Şərif onu “Molla Nəsrəddin’in mürəttibi və əməkdaşı” deyə xatırlamışdı. Hörmətli alimimiz Əziz Mirəhmədov onu “Molla Nəsrəddin’in əməkdaşı” kimi təqdimləyərək, elmi ictimaiyyətimizə onun haqqında önəmli bilgilər çatdırmışdır.

İsmayıl Həqqiyi mötəbər şəxsiyyətlər M. C. Məmmədquluzadə, Ö. F. Nemanzadə, M. Ə. Sabir, H. Cavid, H. Ərəblinski, Ə. Şərif, S. Şuşinski, M. Ə. Abbasov və başqalarıyla səmimi dostluq telləri bağlamışdı.

İsmayıl Həqqi Tiflisdə Şeytan-bazar məhəlləsində müsəlman qiraətxanasının və teatr binasının yanında “Şərq” adlı mətbəə yaratmış və burada dəyərli kitablar (o cümlədən Cəlil Məmmədquluzadənin “Poçt Qutusu”, Hüseyn Cavidin “Ana”, “Keçmiş Günlər”, Əziz Şərifin “Rəhm Çeşməsi”, Salman Mümtazın “Seyid Əhməd Hatif”, Borçalı şairi Mühəqqərin “El Şeirləri” kitablarını) yayınlamışdı.

İsmayıl Həqqi “Molla Nəsrəddin”in çapına xüsusi zəhmət sərf etmiş, özü də ara-sıra dərginin səhifələrində satirik şeirlər, mənzum felyetonlar çap etdirmişdi.



## MİRZƏ HƏSƏN MƏCRUH

"Məcruh" təxəllüslü Mirzə Həsən Məmmədov 1894-cü ildə Borçalının Sınıq Körpüyə yaxın Kirəc Muğanlı kəndində doğulub, ilk təhsilini atası Molla Əyyubdan alıb, sonra Qazağın Şıxlı kəndində, Borçalının Qızılhacılı kəndində, Tiflis şəhərində ibtidai məktəblərdə oxuyaraq kənd müəllimi hüququ qazanıb və Nazarlı-Kosalı, Dəmirçihasanlı, Qaçağan nahiyə məclislərində katib, Borçalı qəza komissarı Əbdürrəhim bəy Haqverdiyevin yanında kargüzar vəzifələrində çalışıb.

Məcruhun bədii irsində lirik, satirik şeir axarları üzvi bağlamdadır. Onun poema, qəzəl, müxəmməs, mürəbbe, bayatı, gəraylı, qoşma, təcnis ürünlərindəki lirik şeirləriylə yanaşı, felyeton, satira, təmsil, həcv, bəzəmə, hərbə-zorba çeşidlərindəki satirik şeirləri də var. Onun erkən yaradıcılığındakı təbiətin, el gözəllərinin tərənnümünə həsr olunmuş lirik şeirlərində də satirik-yumorlu boyalar gözə çarpır:

**Ey Şikəstə, qara günlər əlindən**
**Başım dəstəgahi-misgərə dönmüş;**
**Könlümün kitabı olub pərvərəq,**
**Bir köhnə tullanmış dəftərə dönmüş.**

Əlyar Qarabağlının qeyd etdiyi kimi, Məcruhun "əliəyrilər, köhnəpərəstlər, elm və mədəniyyət düşmənləri, bəzi üzdəniraq müəllimlər haqqında yazdığı duzlu, məzəli şeirləri, felyetonları Gürcüstan mətbuatında çox nəşr olunmuşdu" [13, s. 4]. "Molla Nəsrəddin"də də Mirzə Həsən Məcruhun felyeton, məqalə və xəbərləri dərc edilmişdi. Tədqiqatçılar Süleyman Süleymanov və Məhyəddin Sultanov bu xüsusda yazmışlar: "Bu satirik parçaların hamısında Borçalı nahiyəsinin kəndlərindəki bəzi hadisələr qələmə alınmışdır. Müəllif Şüləver, Təkəli, Qızılhacılı kəndlərində baş vermiş hadisələri yerli-yataqlı təsvir etməklə, satirik şeirlərdə tənqid hədəfinə çevrilmiş mənfi obrazların canlı portretini yaratmışdır." Şairin anıtlarından aydınlaşır ki, onu Mirzə Cəlillə məşhur ədib Əbdürrəhimbəy Haqverdiyev tanış etmiş və onun satirik şeirlərinin

altında Məcruh (Yaralı) təxəllüsünü Mirzə Cəlil əlavə edib.

Xatirələrdə qismən oxuyuruq: “1917-ci ilin yanvarında Mirzə Cəlillə söhbətimiz çox qısa oldu, o mənə diqqətlə nəzər saldıqdan sonra belə dedi: “Jurnalımızın əməkdaşlarından Salman Mümtaz, Əbdürrəhim bəy Haqverdiyev və Qurbanəli Şərifzadə məşhur İbrahim bəy’in “Səyahətnamə”sinə nəzirə olaraq, “Mozalan bəyin səyahətnaməsi” adlı felyetonlar yazıb nəşr etdirmişlər. Mozalan bəyi Borçalı qəzasının qəsəbə və kəndlərində gəzdirməyi və onun müşahidələrini müntəzəm olaraq yazıb göndərməyi sizə həvalə edirəm.”

Mirzə Həsənin “Molla Nəsrəddin”lə ilişgisinə aid bir fakt da diqqəti çəkir. Dərgidə bir ərəb şairinin şeirinin tərcüməsi üzrə müsabiqədə birinci yeri Üzeyir bəy Hacıbəyov, ikinci yeri Mirzə Həsən tutub.

Məcruhu “Əbdürrəhim bəyin, Mirzə Cəlilin yadigarı” xatırlayırlar.

“Molla Nəsrəddin”də Borçalı kəndlərindən xəbərlərin çoxunu M. H. Məcruh yazıb. O, satiralarında Borçalının o dönəm olaylarını tənqid atəşinə tutub. “Zəbani Molla Həsən əhli-Şüləver” satirasında Şüləverli Molla Həsən, “Xanın qamçısı” satirasında Təkəli kəndinin ağası Həsən bəy, “Ramazanlıq” satirasında Qızılhacılı Molla Həsən ifşa olunub.

Şair «Payız Yağışına» adlı satirasında yazır:

Uçurtmasın balasını, kamə yetməsin kapitan,
Alıb evi əlimizdən, edibdir eli sərgərdan,
Nə tövləni bizə verir, edək malımızı bir yan,
Açıqda qalmış xəlayiq olub biabiru-bədnam.

Məcruhun satira və həcvlərində Sabir üslubundan ilham aldığı duyulur:

Günüz axşama kimi işlə, başı daşlı kasıb!
İftara arpa çörək dişlə, başı daşlı kasıb!
Gün qaraldan başıyın işlədikcə sil tərini,
İçmə yansan da suyu, gözlə behişt kövsərini.

Bu misralar “Ramazan” satirasındandır və şeirdə varlıların riyakarlığı pislənib:

Görsə naməhrəmi mömin orucu batil olur,
Alacaq yüz mələk ol gün ki, gora daxil olur,
Həq sözünü söyləyənə babi deyən dövlətli,
Tutmayır kəndi orucu bəs niyə bu lənətli.

Bilim adamları Abbas Kirəcli, Əliyar Qarabağlı Borçalıda şöhrət tapmış şairlərin siyahısında Məcruhun adını birincilər sırasında çəkiblər.

Mirzə Həsən Məcruh daha çox həcv ustası kimi məşhur olub.

2014-cü ildə Kirəc Muğanlı kəndində Həsən Məcruhun 120 illik yubileyi keçiriib.



# MÜHƏQQƏR
**(1890-1942)**

Məhəmməd Rza oğlu Rzazadə1890-cı ildə Borçalı mahalının Kolayır kəndində dünyaya gəlib. Yeddi yaşında köhnə üsulla işləyən məktəbə gedib. İki il burada oxuyandan sonra atası vəfat etdiyindən məktəbi yarımçıq qoymaq məcburiyyətində qalıb. 1902-ci ildə qonşu Arıxlı kəndindəki rus-tatar məktəbində müəllim işləyən Hüseyn Əfəndinin yanında dərs alıb, sonralar özü evdə bir neçə şagirdə dərs verib.

Çox erkən yaşlarında şeir yazmaqla bədii yaradıcılığına başlayan Məhəmməd Rzazadə özünə Mühəqqər təxəllüsünü götürüb və el-oba içində bu adla tanınıb. (Mühəqqər sözü – həqir, aciz, anlamlı deməkdir.) 1920-ci ildə Mühəqqəri Tiflisdə ərəb hürufatı ilə nəşr olunan "El şeirləri" kitabı ədibin yaradıcılığının çox dəyərli bir hissəsidir.

1920-1921-ci illərin ərəb hürufatıyla nəşr olunan "Vətən" dərgisində 20-ci illərdə Tiflisdə işıq üzü görüb, "Əşar məcmuəsi" kitabında, ərəb hürufatıyla "Yeni fikir", latın qrafikasıyla "İşıq yolu" qəzetlərində Mühəqqərin xeyli əsərləri işıq üzü görüb.

Tədqiqatçıların yazdıqlarına görə, Mühəqqərin "Molla Nəsrəddin" dərgisində az sayda yazısı dərc olunub. Şairin yazıları əsasən "Yeni fikir", "Vətən", "Gənc nəsl", "İşıq yolu", "Dan Ulduzu", "Qızıl Şəfəq", kimi o dövrün mətbuat orqanlarında geniş yer alıb.

Məhəmməd Rzazadə Mühəqqər 1942-ci ildə dünyasını dəyişib.

## RZA ŞAHVƏLƏD
## (1909-1984)



Rza Nəbi oğlu Şahvələd 1909-cu ildə Tiflisdə anadan olub. Bakıda iki illik seminariyanı bitirdikdən sonra 1929-1935-ci ilədək məktəb müdiri, 1935-1937-ci ilədək Qarayazı və Adıgün rayonlarında maarif şöbə müdiri vəzifəsində çalışıb, sonra "Sovet Gürcüstanı" qəzetində şöbə müdiri, 1941-1944-cü ilə qədər Gürcüstan Yazıçılar İttifaqı Azərbaycan bölməsinin sədri vəzifəsində işləyib.

Rza Şahvələd müxtəlif vəzifələrdə çalışmaqla bərabər, ali təhsil almağı da unutmayıb. 1944-cü ildən Bakəya köçən R. Şahvələd əvvəlcə "Kommunist" qəzetində şöbə müdiri, sonra "Elm və Həyat" jurnalının baş redaktoru (1959-1965) işləyib.

Görkəmli jurnalist və ədib Rza Şahvələd hekayələri və pyesləri ilə oxuculara yaxşı tanışdır. Onun "Başmaq" (1939), "Hekayələr" (1950), "Könüldə bahar" (1962), "Qonşu qardaşlar" (1984) nəsr topluları, o vaxtlar Tiflis Azərbaycan Dövlət Dram Teatrının səhnəsində oynanılan tamaşaları maraqla qarşılanıb.

Rza Şahvələd tərcümə sahəsi ilə də ciddi məşğul olub. Onun ən çox tərcümə etdiyi Akaki Seretelinin əsərlərindən nümunələr olub.

Rza Şahvələd 1984-cü ildə Bakıda vəfat edib.

**HİDAYƏT BAYRAMLI**
**(1915-1992)**



Hidayət Səmədağa oğlu Bayramlı 1915-ci ildə Borçalı mahalının Sarvan kəndində dünyaya göz açıb. İlk təhsilini Sarvan 8 illik məktəbində alandan sonra, Borçalı Türk Pedaqoji Texnikumunda təhsilini davam etdirib.

Hidayət Səməd öğlu 1933-cü ildən 1939-cu ilədək Daştəpə kəndində müəllimlik edib. O, 1939-cu ildə təhsilini davam etdirmək məqsədi ilə Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olub. 1941-ci ildə III kurs tələbəsi olarkən Hidayət Bayramlı Böyük Vətən Müharibəsinə yollanır. O, Sovet Ordusu sıralarından 1946-cı ildə tərxis olunub.

Hidayət Bayramlı 1950-ci ildən Marneuli Rayon Mədəniyyət Evinə rəhbərlik edib. O, bədii yaradıcılığına hələ texnikum tələbəsi olarkən başlayıb və ilk qələm təcrübələrini dövrü mətbuatda çap etdirib. Qələmi püxtələşdikcə Hidayət Səmədağa oğlu publisistik məqalələr yazıb və yazılarını "Pambıqçı", "Stalin yolu", "Şərqin Şəfəqi", "Yeni Marneuli" qəzetlərində müntəzəm çap etdirib. Sonra o, "Sovet Gürcüstanı" qəzetində müxbir işləyib.

Hidayət Bayramlının qələmə aldığı oçerk, felyeton və hekayələri geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanıb və sevilib. Onun əsərlərinin dili şirin, yaratdığı bədii obrazlar yaddaqalan olub. İstedadlı yazıçı Hidayət Bayramlının "Vətəndaş rəis", "Məhəbbət", "Od içində" adlı kitabları Azərbaycan nəşriyyatlarında çap olunub.

Hidayət Səmədağa oğlu Bayramlı 1992-ci ildə Marneuli şəhərində vəfat edib.

## HƏSƏN SƏBRİ



Həsən Səbri (Həsən Əmənulla oğlu Əbdülzadə) Borçalı qəzasının Aşağı Qoşakilsə əndində anadan olub. Atası Əmənulla işi ailəsini dolandırmaq üçün Cənubi Azərbaycandan Rusiyaya pənah gətirənlərdəndir. Gənc Həsən özünə məslək dostları axtararaq Borçalıda Sovet hakimiyyəti uğrunda mübarizə aparan Əşrəf Yüzbaşovla, Məmməd Cəfərli ilə, Həsən Qapalovla dostlaşıb. 1919-cu ildə onu bolşeviklər partiyasının sıralarına qəbul ediblər. O, 1921-ci ilin iyununda Qafqaz Ordusu Kəşfiyyat Şöbəsinin ştatında işə qəbul edilib. Bir müddət çalışdıqdan sonra o, Azərbaycan Xarici İşlər Nazirliyindən məktub alır və Bakıya gedir. Həsən Səbri Bakıdan RSFSR-in İrandakı baş səfirliyinin sərəncamına göndərilib. İki aydan sonra Gürcüstan K(b)P MK-ya çağırılıb. Ona Mk-nın orqanı olan “Yeni fikir” qəzetinin redaktoru təyin olunduğu xəbərini verirlər. Qəzet 1923-cü il yanvarın 15-dən “Yeni fikir” Zaqafqaziya Ölkə Komitəsinin (ZÖK) orqanına çevrilir. Həsən Səbri Tiflisdə fəaliyyəti zamanı gürcü, Azərbaycan və erməni xalqının ictimai-iqtisadi, elmi-mədəni həyatı ilə yaxından tanış olub və jurnalistlik fəaliyyətini getdikcə genişləndirib. O, 1923-cü ilin iyunundan 1924-cü ilin yanvarınadək Zaqafqaziya Ölkə Komitəsinin göndərişi ilə Moskva Jurnalistika İnstitutunun dinləyicisi olub. Sonralar Həsən Səbri “Yeni fikir” qəzetində redaksiya heyətinin təlimatçısı vəzifəsində işləyib. ZÖK-nin tapşırığı ilə yerli mətbuatı yoxlamaq üçün Naxçıvana göndərilir və Zaqafqaziyada nəşr olunan bütün mətbuat orqanlarına rəhbərlik edib. Sonra Bakıya ezam olunub, Azərbaycan Dövlət Nəşriyyatının vəziyyətini yoxlayıb.

Həsən Səbri 1925-ci ilin iyulunda Baş Mətbuat İdarəsinin ədəbiyyat şöbəsində baş redaktor vəzifəsində işləməyə göndərilir. O, 1926-cı ilin sentyabr ayından 1927-ci ilin sonunadək Moskva Kommunist Akademiyasının nəzdindəki Marksizm-Leninizm kurslarının dinləyicisi olur.

O, Gürcüstan K(b) P MK-nın 1928-ci il 28 iyul tarixli qərarı ilə M-nın nəzdində azlıqda qalan Millətlər Sovetinin sədr müavini, həmin il sentyabr ayının 13-də isə 26-lar adına Zaqafqaziya Kommunist Universitetinin ÜİK (b) P tarixi üzrə mühazirəçi təyin edilib. ÜİK (b) P ZÖK-nin ona təqdim etdiyi sənədlə (bilet № 2) Həsən Səbri bütün Ümumittifaq partiya konfranslarının, Zaqafqaziya partiya təşkilatlarının VI qurultayının (22 nömrəli mandat), Tiflis partiya təşkilatının IX konfransının (68 nömrəli mandat) təşkilatçılarından biri olub.

## RÜSTƏM HƏSƏNOV
## (1912-1996)



Rüstəm Hacımurad oğlu Həsənov 1912-ci ilin iyunun 7-də Borçalının Sarvan kəndində anadan olub. Böyük Vətən Müharibəsi başlamamışdan əvvəl onun ailəsini Qazaxıstana sürgün ediblər. Repressiya dövrünün çətinliklərinə baxmayaraq Rüstəm Həsənov pedaqoji fəaliyyətini davam etdirib, Adıgün Pedaqoji Texnikumunun direktoru vəzifəsində çalışıb. 1931-1935-ci ilədək Marneuli rayonunun Daştəpə kəndindəki ibtidai məktəbin müdiri olub. 1935-ci ildən sonra Araplı ibtidai məktəbin müdiri, sonra Yuxarı Saral və rayonun müxtəlif kənd məktəblərində 1950-ci illərə qədər direktor vəzifələrində işləyib. Maarif sahəsində çalışdığı illərdə o, dəfələrlə dövlət tərəfindən tərifnamələr və müxtəlif təltiflərlə mükafatlandırılıb.

R. Həsənov 1950-1962-ci ilədək "Kommunizm uğrunda" rayon qəzetinin məsul katibi, 1962-1965-ci ilədək yerli radio verilişləri redaksiyasının təşkilatçısı və müxbiri kimi səmərəli fəaliyyət göstərib.

Rüstəm Həsənov 1972-ci ildən 1973-cü ilədək "Axali Marneuli" rayon qəzetinin məktublar şöbəsinin müdiri vəzifəsində çalışıb.

Rüstəm Həsənov harada işləməsindən asılı olmayaraq həqiqətsevər bir müəllim, jurnalist kimi dövrün, zamanın səsinə səs verib, qələmi ilə həmişə haqsızlığa qarşı mübarizə aparıb, neçə-neçə oçerklərin, felyetonların, zarisovkaların, məqalələrin müəllifi kimi oxucuların rəğbətini qazanıb.

Rüstəm Həsənov 1996-cı ilin fevral ayında Marneulidə dünyasını dəyişib.



## KƏRİM KƏRİMOV

Kərim Qurban oğlu Kərimov 1915-ci il mayın 18-də Borçalının Gorarxı elindəki Təzəkənddə anadan olub. İlk təhsilini Gorarxıda alıb, sonra Sarvan 7 illik məktəbində oxuyub.

1932-1935-ci illərdə Borçalı Pedaqoji Türk Texnikumunda təhsil alıb. Texnikumu bitirdikdən sonra bir müddət Aşağı Saral, sonra Gorarxıda tarix-coğrafiya müəllimi işləyib. Daha sonra doğma kəndindəki məktəbdə müdir olub.

Kərim Kərimov 1938-ci ildə Tiflis Pedaqoji İnstitutunun tarix fakültəsini qiyabi olaraq bitirib. O,1940-cı ildə Borçalı Rayon Maarif Şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

Böyük Vətən Müharibəsi başlayana qədər daha bir neçə məsul vəzifədə işləyən K. Kərimov cəbhəyə gedib, ağır və uzun bir döyüş yolu keçib.

1947-1950-ci illərdə Gürcüstan SSR DTK-də operativ əməliyyat müvəkkili olub, 1950-1953-cü illərdə xüsusi xidmət qrupunun rəhbəri işləyib. 1953-1956-cı illərdə K. Kərimov Gürcüstan DTK-nın böyük zabiti olub.

K. Kərimov yaşadığı sonrakı illəri tamamilə jurnalistikaya həsr edib. O, 1956-cı ildə Gürcüstan SSR Dövlət Televiziya və Radiosunda Azərbaycan dilində verilişlər redaksiyasında əvvəlcə redaktor, sonra böyük redaktor, daha sonra baş redaktor vəzifələrində işləyib. O, teleradio komitəsi xəttində işləməklə bərabər, həm də DTK-da 1973-cü ilə kimi müşavir kimi çalışıb.

K. Kərimov 1979-cu ildən SSRİ Jurnalistlər İttifaqının üzvü olub. Jurnalistika sahəsində ləyaqətli xidmətlərinə görə "Gürcüstan SSR Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülüb.

K. Kərimov SSRİ Teleradio Komitəsinin, Gürcüstan SSR və Azərbaycan SSR Teleradio Komitələrinin fəxri fərmanları ilə təltif olunub. Ömrünün sonunadək jurnalist kimi çalışıb. O, 1992-ci ildə təqaüdə çıxıb, sonra dünyasını dəyişib.

## MƏHYƏDDİN SULTANOV
## (1917-1996)



Məhyəddin Nəsrulla oğlu Sultanov 1917-ci ildə Tiflis şəhərində dünyaya göz açıb.

O, 1937-ci ildə Tiflis Pedaqoji Texnikumunu bitirdikdən sonra 1943-cüilədək Ahıska, Adıgün və Başkeçid bölgələrinin kənd məktəblərində dərs deyib.

M. Sultanov 1945-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini müvəffəqiyyətlə bitirərək, sevimli müəllim peşəsini davam etdirib.

Məhyəddin Sultanov 1949-1952-ci illərdə Başkeçid rayon qəzetində əvvəlcə məsul katib, sonra redaktor müavini, daha sonra redaktor vəzifəsində çalışıb.

1952-ci ildə M. Sultanov Dmanisi Rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilib. O, iki ilə yaxın bu vəzifədə işlədikdən sonra yenidən pedaqoji sahədə öz müəllimlik peşəsini davam etdirərək, Bolnisi rayonunun kənd məktəblərində dərs deyib. O, pedaqoji sahədə çalışmaqla bərabər, həm də rayon maarif şöbəsində metodika kabinetinin müdiri olub.

M. Sultanov harada işləməsindən asılı olmayaraq, paralel olaraq jurnalistika sahəsində qələmini məharətlə sınayıb, “Şərqin şəfəqi”, “Sovet Gürcüstanı” qəzetlərinin, Gürcüstan radiosunun Azərbaycan dilində verilişlər radiosunun müxbiri olub. Məhyəddin Sultanov eyni zamanda elmi araşdırmalar aparıb, bir sıra elmi, elmi-publisistik məqalələr çap etdirib.

O, ömrünün son illərini Bakıda yaşayıb. 1996-cı ildə bu şəhərdə vəfat edib.

## MURTUZ MURADOV



Murtuz Məşəditağı oğlu Muradov 1909-cu ildə Ermənistanda anadan olub. 9-cu sinifi bitirdikdən sonra Moskvada jurnalistika kursunda təhsil alıb və sonra Tiflsə gəlib. İlk əmək fəaliyyətinə "Sovet Gürcüstanı" qəzetində mətbəə işçisi kimi başlayıb. Sonralar qəzetin məsul katibi işləyərkən qısa hekayələr, felyetonlar, oçerklər yazıb və rus ədəbiyyatından tərcümələr edib. O, qəzet bağlanana qədər bu vəzifədə əsl jurnalist kimi özünü göstərə bilib. Sonra o, "Zarya Vostoka" qəzetinin tərcüməsi olan "Şərqin Şəfəqi" qəzetində çalışıb.

1960-cı il avqust ayından yenidən nəşrə başlayan "Sovet Gürcüstanı" qəzetinin redaktoru vəzifəsinə təyin olunub. M. Muradov yorulmaq bilmədən məqalələri dönə-dönə oxuyur, bəzi məsələlərdə qəzet əməkdaşları və digər yoldaşlarla məsləhətləşərdi. O, bilmədiyini soruşan və qayğıkeş insan olub. Onun xasiyyətində yumorla danışmaq da vardı. Hərdənbir baməzəlik edib redaksiya işçilərini güldürmək kimi xasiyyəti də olub. O, çoxlu qaravəlli və lətifələr danışmağı bacarırdı. Kin saxlamaq onun xasiyyətinə yad olan xüsusiyyət idi. Redaksiya işçilərini danlayandan sonra gülməli bir lətifə danışıb hamının könlünü alardı, heç kim ondan narazı qalmazdı. Sadə, mehriban və gülərüz bir insan idi.

Murtuz Muradov anadan elə əsl redaktor kimi doğulmuşdu.



## DÜNYAMALI KƏRƏM

Dünyamalı Kərəm oğlu Əliyev 1920-ci il aprelin 28-də Borçalının Qoçulu kəndində anadan olub. O, ilk təhsilini doğma kəndində, orta təhsilini isə qonşu kənd orta məktəbində alıb.

1937-1940-cı illərdə Tiflisdəki Pedaqoji Məktəbdə təhsil alıb və bu maarif ocağını bitirdikdən sonra təyinatla İmirhəsən və Qoçulu kənd məktəblərində direktor vəzifəsində çalışıb.

D. Kərəm 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub və 1954-cü ildə universiteti bitirdikdən sonra bir müddət "Kommunist" qəzetində müxtəlif vəzifələrdə çalışıb, sonra isə doğma vətəni Borçalıya qayıdıb. Gürcüstana qayıtdıqdan sonra Dünyamalı Kərəm 1961-ci ildən yenidən fəaliyyətə başlayan və müxtəlif fasilələrlə nəşr edilən "Sovet Gürcüstanı" qəzetində jurnalistlik fəaliyyətini davam etdirib. Dünyamalı Kərəm bu qəzetdə ən çox və eyni vəzifədə (məsul katib) çalışan bir jurnalist olub.

Gürcüstanda Azərbaycan dilində nəşr olunan mətbuat orqanlarının inkişafında və gənc jurnalistlərin yetişməsində Dünyamalı Kərəmin böyük rolu olub.

Dünyamalı Kərəm tanınmılş bir publisist kimi Borçalıda həyatın bütün sahələrini işıqlandıran məqalələr qələmə alıb və eyni zamanda tərcüməçiliklə də məşğul olub. O, qəzetdə müntəzəm olaraq şeirlərini çap etdirib, şair kimi oxucuların sevimlisinə çevrilib. 1994-cü ildə onun "Borçalım mənim" adlı şeirlər kitabı nəşr olunub, sonralar " Mən atamın oğluyam" və s. kitabları Tiflis və Bakı şəhərlərində çap olunub.

Dünyamalı Kərəm 1994-cü ildən Gürcüstanın Əməkdar Jurnalisti fəxri adına layiq görülüb. 2003-cü ildə Gürcüstan dövlət prezidentinin sərəncamı ilə qocaman jurnalist "Şərəf" ordeni ilə təltif olunub.

Hal-hazırda 95 yaşı tamam olan qocaman jurnalist yenə qələmini əlindən qoymur, istər Gürcüstanda nəşr olunan Azərbaycandilli mətbuat səhifələrində, istərsə də Azərbaycanda çıxan qəzetlərdə, internet saytlarda maraqlı və tarixi özündə əks etdirən məqalələr çap etdirir, imzası görünür imazalar içində. Bu il qocaman jurnalistin 95 illik yubileyi onun anadan olduğu Qoçulu kəndində təntənəli şəkildə qeyd olunub, yubilyara müxtəlif fəxri fərmanar verilib.

## RİZVAN ƏLİYEV



Rizvan Musa oğlu Əliyev 1922-ci il fevralın 1-də Tiflis şəhərində ruhani ailəsində anadan olub. Tiflisdəki Azərbaycan orta məktəbini əla qiymətlərlə başa vurduqdan sonra, çox gənc yaşlarında onu Bolnisinin kəndlərindən birinə ibtidai sinif müəllimi göndərirlər.

R. Əliyev 1940-cı ildə Tiflis Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olub. Böyük Vətən Müharibəsi başlayanda isə ordu sıralarına çağırılıb. Onu Azərbaycan, gürcü və rus dillərini yaxşı bildiyi üçün hərbi komissarlıqdan birbaşa təlimatçılar hazırlayan kursa göndəriblər.

R. Əliyev ordudan qayıtdıqdan sonra yarımçıq qalan təhsilini davam etdirib. O, 1948-ci ildə Marneuli Pedaqoji Texnikumda dərs hissə müdiri işləyib, eyni zamanda parallel olaraq daha bir humanitar ali məktəbi də bitirib.

R. Əliyev 1955-ci ildən Gürcüstan Radiosunun Azərbaycan dilində verilişlər redaksiyasında, sonra "Şərqin şəfəqi" ("Zarya Vostoka"), daha sonra "Sovet Gürcüstanı" qəzetində ədəbi işçi və ən yüksək vəzifələrdə çalışıb.

O, 1963-1964-cü illərdə Sov. İKP. MK-nın Zaqafqaziya bürosunda işləyib və yenidən mətbuat sıralarına qayıdıb.

Həmin illər Rizvan Əliyev eyni zamanda tərcüməçi kimi də fəaliyyət göstərib və Gürcüstan tarixi və coğrafiyasına dair Azərbaycan dilində olan orta məktəb dərsliklərinin hazırlanmasında yaxından iştirak edib.

R. Əliyev 1967-ci ildə  Bakı şəhərinə köçüb və müxtəlif məsul vəzfələrdə şalışıb. O, təqaüdə çıxdıqdan sonra Azərbaycan radiosunun gürcü dilində verilişlər redaksiyasında redaktor vəzifəsində çalışıb.

Rizvan Musa oğlu Əliyev 2001-ci il sentyabrın 1-də Bakı şəhərində vəfat edib və bu şəhərdə də dəfn olunub.



## TEYMURAZ CƏFƏRLİ

Teymuraz Məmməd oğlu Cəfərli 1922-ci ildə Tiflis şəhərində ziyalı ailəsində anadan olub. Atası Məmməd kişi əslən Borçalının Sarvan kəndindən idi. Məmməd Cəfərli ünlü Borçalı ziyalılarından olub və bir çox rəhbər vəzifələrdə-əvvəlcə qəza, sonra rayon partiya komitəsinin birinci katibi vəzifəsində işləyib. Teymurazın valideynləri 1937-ci ildə repressiya qurbanı olub. O, Tiflisdəki qohumlarının himayəsi altında böyüyüb və orta məktəbi Tiflisdə bitirib. T. Cəfərli Tiflis Dövlət Universitetinin filologiya fakültəsinə daxil olaraq, 1945-ci ildə bu ali məktəbi başa vurduqdan sonra müxtəlif mətbuat orqanlarında çalışıb.

1952-ci ildə Tiflis Şəhər Sovetinə təlimatçı vəzifəsinə qəbul olunub. Həmin vaxtdan etibarən paralel olaraq pedaqoji sahədə də çalışmağa başlayıb. A.S. Puşkin adına TDPU-də (indiki İlya Universiteti) estetika və etika kafedrasının müdiri seçilib.

1972-ci ildə “Etik kateqoriyaları, tarixi və ümumi məsələləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsini alıb.

T, Cəfərli 1974-1981-ci illərdə Gürcüstan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdir müavini vəzifəsində işləyib. Professor T. Cəfərli sonrakı həyatını yenidən mətbuata bağlayıb və o, 1984-cü ildən başlayaraq ömrünün sonuna kimi “Sovet Gürcüstanı” (“Gürcüstan”) qəzetinin redaktoru olub.

Professor T. Cəfərliinin nüfuzlu mətbuat orqanlarında yüzlərlə elmi, elmi-kütləvi məqalələri və 25-ə qədər sanballı və məzmunlu kitabları çap olunub. İstedadlı alim 60-dan artıq beynəlxalq konfransda dəyərli elmi çıxış edib.

Teymuraz Məmməd oğlu Cəfərli 1988-ci ildə “Sovet Gürcüstanı” qəzetində çalışarkən vəfat edib və Tiflisdəki tanınmış şəxsiyyətlərin qəbiristanlığında dəfn edilib.



## ZİYA BORÇALI
## (1902–1965)

Ziya Borçalı kimi tanınmış Ziyəddin Əfəndiyev Borçalının Arıxlı kəndində ziyalı ailəsində anadan olub. Ziya ilk təhsilini Arıxlıdakı Hüseyn Əfəndiyevin ikillik rus-tatar məktəbində alıb, eyni zamanda atasının xüsusi dərsləri onun formalaşmasında başlıca rol oynayıb. 1921-ci ildə Ziya döğma kəndindəki Vahid Əmək Məktəbinə müəllim təyin edilir. O zamanlar Borçalıda yenicə müəllim kadrları hazırlayan kurslar açılırdı. O, 1923-cü ilin yayında Qocorda, 1925-ci ilin yayında isə Başkeçiddə kurslarda oxuyub.

Ziyəddin Əfəndiyev 1925-1929-cu illərdə Tiflis Türk Pedaqoji Texnikumunun ilk tələbələrindən biri olub. Bu təhsil ocağını bitirdikdən sonra Ziya Sarvan yeddillik məktəbinə müəllim düzəlir. Bir il sonra Bakıya gedib. Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirdikdən sonra Tiflis Türk Pedaqoji Texnikumuna müəllim təyin olunur. 1933-1936-cı illərdə Zaqafqaziya Kənd Təsərrüfatı Texnikumunda, 1934-1938-ci illərdə Zaqafqaziya Dəmiryol İnstitutunda, 1935-44-cü illərdə Tiflis Dövlət Universitetinin qiyabi pedaqoji şöbəsində dərs deyir. Daha sonra Ziya Əfəndiyev ömrünün sonunadək A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunda işləyib.

Ziya Borçalının Vətən məhəbbəti ilə aşılanan şeirləri "Yeni fkir," "Yeni kənd" qəzetlərinin, "Qızıl Şəfəq," "Dan Ulduzu," "Yeni qüvvə," "Gənc nəsl" dərgilərində dərc olunub.

1926-1930-cu illərdə "Qızıl şəfəq" dərgisində, "Qızlar şərqisi" (1927,№ 7-8), "Bahar" (1928, № 3), "Zəkəriyyə" (1928, 8-9), "İki yetim" (1928, 10), "Gözəl məktəb" (1928, 11), "Qış" (1928 12) və s. bir çox şeirləri və müxtəlif publisistik yazıları "Ziya Əfəndiyev," "Ziya," "Ziya Borçalı" və s. imzalarla dərc olunub.

Ziya Borçalının Tiflisdə Azərbaycan-Türk mətbuatı tarixinə, Cəlil Məmmədquluzadənin yaradıcılığına aid çox sayda məqalələri çap

olunub. Onun “Sovet Gürcüstanı” və başqa qəzetlərdə ədəbiyyatımızın, maarifimizin mühüm məsələlərinə dair çox sayda yazıları da vardır.

Ziya Borçalı 1965-ci ildə vəfat edib və doğma kəndi Arıxlıda dəfn olunub.



# VƏLİ ƏLİYEV
## (1927-1984)

Vəli İsa oğlu Əliyev 1927-ci ildə Borçalının Qaçağan kəndində ziyalı ailəsində anadan olub. Onun atası İsa Borçalının bir sıra kəndlərindəki məktəblərdə müəllim, direktor müavini, direktor işləyib.

Vəli İsa öğlu orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirmək üçün Bakıya gedir, ADU-nun tələbəsi olur. Universiteti bitirdikdən sonra fasilələrlə bir sıra yerlərdə çalışan Vəli Əliyev 1960-cı ildə "Sovet Gürcüstanı" qəzeti nəşrə başlayanda redaksiyaya dəvət olunur və ilk vaxtlardan başlayaraq, şöbə müdiri vəzifəsində çalışır. V. Əliyevin qələmə aldığı oçerklər, publisist yazılar, eləcə də onun hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanıb, maraqla oxunub.

Vəli İsa oğlu hələ universitet tələbəsi olarkən ədəbi yaradıcılıqla məşğul olub. Onun hekayələri tələbəlik illərində mətbuatda işıq üzü görüb. Ədibin "Dostlar" adlı ilk hekayələr kitabı 1968-ci ildə Bakıda nəşr olunub.

V. Əliyev 1963-cü ildən SSRİ Yazıçılar İttifaqının üzvü olub. Onun ədəbi-bədii yaradıcılığında ədəbiyyat və mədəniyyət məsələləri əsas yer tutduğuna, səmərəli, faydalı və dəyərli jurnalist fəaliyyəti Gürcüstan hökuməti tərəfindən yüksək qiymətləndirilib. O, Gürcüstan SSR Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülüb.

Vəli İsa öğlu ömrünün sonuna kimi "Sovet Gürcüstanı" qəzetində ədəbiyyat və incəsənət şöbəsinə rəhbərlik edib. 1986-cı ildə ədibin "İkinci görüş" kitabı işıq üzü görüb.

Vəli Əliyev 1984-cü ildə vəfat edib.

# SÜLEYMAN SÜLEYMANOV
# (1935-2014)



Süleyman Məhəmməd oğlu Süleymanov 1935-ci il mayın 5-də Gürcüstanın Marneuli rayonunun Kürdlər kəndində anadan olub. O, Marneuli Pedaqoji Texnikumunu və 1960-cı ildə Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dil-ədəbiyyat və tarix fakültəsini bitirib . S.Süleymanov 1962-ci ildə Marneuli Rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsinə seçilib. 1964-cü ildən həmin rayonun partiya komitəsində təlimatçı, təbliğat və təşviqat şöbə müdiri, təşkilat şöbə müdiri, rayon partiya komitəsinin katibi vəzifələrində çalışıb, büro üzvü və dəfələrlə rayon sovetinin deputatı seçilib.

O, 1972-ci ildən ömrünün sonunadək "Sovet Gürcüstanı" və onun davamı kimi 1990-cı ildən "Gürcüstan" qəzetinin baş redaktoru vəzifəsində çalışıb. 94 illik şərəfli tarixə malik olan "Gürcüstan" qəzeti sovetlər dönəmində də, ondan sonra da Gürcüstanda anadilli mətbuat işçilərinin yaradıcılıq mərkəzinə çevrilib, redaksiya isə bir sıra təşəbbüs və başlanğıclarla fərqlənib, müəlliflik mükafatlarına layiq görülüb. Onlardan biri- 1979-cu ildə qəzetin Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı kimi dörd nəfər yaradıcı əməkdaşı sərginin bürünc və gümüş medalları ilə təltif olunub.

S.Süleymanov Gürcüstan KP MK- nın 23, 24, 25- ci qurultaylarında Təftiş Komissiyasının üzvü, 1980-ci ildə Gürcüstan Ali Sovetinin deputatı seçilib. 1981-ci ildə "Şərəf nişanı" ordeni, 1997-ci ildə Gürcüstanın "Şərəf" ordeni ilə təltif olunub. S.Süleymanov Gürcüstan Ali Sovetinin Fəxri fərmanı və Gürcüstan Əməkdar Mədəniyyət işçisi fəxri adlarina layiq görülüb.

Qırx iki illik qəzet redaktoru vəzifəsini yerinə yetirmək dövründə "Gürcüstan" qəzeti redaksiyası Gürcüstanda azərbaycanlıların ölkənin fəal vətəndaşları olmaları, öz hüquq və vəzifələrini yerinə yetirmələri sahəsində əsl məlumatlandırma mərkəzinə çevrilərək öz ətrafında

yaradıcı qüvvələri toplayıb, milli varlığın, ana dilinin, mədəniyyətin, vicdan azadlığının müdafiəsi səhəsində fəaliyyətini dayandırmayıb. Qəzet redaksiyasının təşkilatçılığı ilə və S.Süleymanovun da həmmüəllifi olduğu ”Gürcücə- Azərbaycanca lüğət işıq üzü görüb, Gürcüstan tarixi, Gürcüstan coğrafiyası azərbaycancaya tərcümə olunub, müxtəlif sözlüklər, danışıq lüğətləri, bukletlər, məktəblilər üçün vəsaitlər nəşr olunub.

Onun rəhbərlik etdiyi “Gürcüstan” qəzetinin 50 illik, 60 illik, 75 illik, 90 illik yubiley tədbirləri Azərbaycandilli mətbuat bayramı səviyyəsində qeyd olunub.

S.Süleymanov redaktor vəzifəsi ilə yanaşı 1992-ci ildə təsis edilən “Gürcüstan Azərbaycanlıları İttifaqı”nın sədridir. Dörd övlad atası, səkkiz nəvə babasıdır.

2014-cü il uynun 26-da Tiflisdə vəfat edib, anadan olduğu Kürdlər kəndində torpağa tapşırılıb.

**ƏLİ ABBAS**



Abbasov Əli Qulu oğlu (Əli Abbas) 1939-cu ildə, may ayının 3-də Marneuli rayonunun Yuxarı Saral kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində, orta təhsilini Sadaxlı kəndində alıb.

1958-ci ildə A. S. Puşkin adına Tiflis Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə qəbul olub, 1962-ci ildə həmin ali məktəbi bitirib. İlk əmək fəaliyyətinə Yuxarı Saral kənd orta məktəbində müəllim kimi başlayıb və 1994-cü ilə qədər tədris işləri üzrə direktor vəzifəsində çalışıb. 1965-ci ildə V. İ. Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olunub və 1972-ci ildə bu ali məktəbi bitirib.

Əli Abbas tələbəlik illərindən başlayaraq ədəbi-bədii yaradıcılıqla müntəzəm məşğul olub. Onun "Qonşular" adlanan ilk hekayəsi 1962-ci ildə "Sovet Gürcüstanı" qəzetində dərc olunub. 1984-cü ildə "Babakər əfsanəsi" adlanan ilk kitabı Bakıda, "Gənclik" nəşriyyatınada nəşr edilib. İlk hekayələr kitabı olan bu kitab nəşr olunduqdan sonra ədəbi ictimaiyyəti özünə cəlb edib və Əli Abbas bundan sonra müxtəlif kitablar nəşr etdirib.

1986-cı ildə onun ikinci kitabı "Ünvansız məhəbbət" adı ilə çap olunub. Bu günə qədər yazıçının 16-dan çox kitabı işıq üzü görüb. Bu kitablardan "Sınıq körpüdən başlanan tarix", Əbədiyyət müdriklərə məxsusdur ", "Mənim Borçalım", "Çopur Əli", "Yovşan ətri" və digər kitabları oxucuların rəğbətini qazanıb. Onun "Borçalı antologiyası" adı ilə toplayıb tərtib etdiyi 4 cildlik kitabdan ikisi işıq üzü görüb. Folklora aid kitablardan Şair Ağacanın və Aşıq İsgəndər Ağbabalının yaradıcılığından bəhs edən folklor nümunələri artıq çapdan çıxıb. Əli Abbas Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Tədris Universitetinin elmi şurasının qərarı ilə "XIX əsr Azərbaycan-gürcü ədəbiyyatı tarixindən nümunələr" kitabını nəşr etdirib.

Ə. Abbas məhsuldar yazıçı kimi vaxtilə "Sovet Gürcüstanı" qəzetində 50-dən çox hekayə dərc etdirib. O, 1984-1988-ci illərdə "Azərbaycan

qadını" jurnalının Gürcüstanda müxbiri işləyib. "Onun görkəmli elm xadimləri" silsiləsindən professor Mədəd Çobanlının həyat və yaradıcılığını, elmi fəaliyyətini özündə əks etdirən "Elm fəadisi" kitabı nəşr edilib.

Əli Abbas 2006-cı ildən Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Tədris Universitetində Azərbaycan ədəbiyyatından dərs deyib, eyni zamanda Gürcüstan Azərbaycanlıları Ziyalılarının qəzeti olan "ZİYA" qəzetinin redaktor müavini, həmçinin "Universitet" qəzetinin redaktoru olub.

O, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.



**ZİYADXAN MƏMMƏDOV**
**(1936-2014)**

Ziyadxan Museyib oğlu Məmmədov 1936-cı ilin mart ayının 10-da Qardabani şəhərində anadan olub. 1954-cü ildə Qardabani Azərbaycan orta məktəbini bitirib. 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub, 1960-cı ildə bu ali məktəbi bitirib. Həmin ilin sentyabr ayından "Sovet Gürcüstanı" qəzetində kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə təyin olunub. 1973-1975-ci illərdə Sov. İKP MK-nın Ali Partiya Məktəbinin dinləyicisi olub. Sonra bir il A. S. Puşkin adına Tiflis Pedaqoji İnstitunda "Sov. İKP kursu" üzrə mühazirə oxuyub. 1976-1991-ci illər Qardabani Rayon Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsində işləyib. 1995-ci ilin avqustun 21-dən Qardabani raoyon bələdiyyəsində təşkilat şöbəsinin müdir müavini, 2009-cu ildən 2012-ci ilin may ayına qədər Qardabanidə fəaliyyət göstərən "Azərbaycan-Gürcüstan Dostluq Evi"ndə müdir müavini vəzifələrində işləyib.

Z. Məmmədov el ağsaqqalı, qabaqcıl kənd təsərrüfatı işçisi kimi tanınan Məhərrəm Həsənovun həyat və əmək fəaliyyətindən bəhs edən "Xatirəsi yaddaşlardan silinməz" adlı kitabın müəllifidir. Onun jurnalist fəaliyyəti dövründə müxtəlif mətbuat orqanlarında bir sıra hekayələri, bədii tərcümələri, esseləri dərc olunub. Z. Məmmədovun Qarayazının el ağsaqqalı, görkəmli filosof alim Camal Mustafayev haqqında "Mənəviyyat haqqında düşüncələr," Borçalı el ağsaqqalı, ictimai və dövlət xadimi Eyvaz Həsənov haqqında "Şəxsiyyət haqqında düşüncələr" və "Ginnes kitabına düşəcəyikmi?", "Vətən", "Torpağın günahı", "Baş daşının şikayəti", "Vurğuna qovuşdi Cəlal" və digər publisistik yazıların müəllifidir. Hazırda onun qələmə aldığı "Ömür illərlə ölçülmür" toplusu nəşrə hazırdır. Qocaman jurnalist eyni zamanda "Aliqarxın etirafı" esse əsəri üzərində işləyib.

Üç övladı, beş nəvəsi var.

2014-ci ilin dekabr ayının 22-də vəfat edib.



## MƏMMƏDHÜSEYN BƏXTİYARLI
## (1913-1998)

Məmmədhüseyn Nəcəf oğlu Bəxtiyarlı 1913-cü ildə Tiflis şəhərində anadan olub. İstedadlı bir jurnalist kimi gənc yaşlarından mətbuatda qələmi ilə görünən Məmmədhüseyn Bəxtiyarlı tez bir zamanda oxucuların rəğbətini qazanıb.

Məmmədhüseyn Bəxtiyarlı Böyük Vətən Müharibəsi illərində "Vətən eşqi" adlı cəbhə qəzeti ilə əməkdaşlıq edib, qəzetin səhifələrində vətənpərvərlik ruhda məqalələr və şeirlər dərc etdirib.

Onun ömrünün çox hissəsi "Sovet Gürcüstanı" qəzeti ilə bağlı olub. M. Bəxtiyarlı qəzetdə müxtəlif vəzifələrdə çalışıb və buradan da təqaüdə çıxıb. M. Bəxtiyarlı təqaüdə çıxsa da heç vaxt qəzetin kollektivi ilə əlaqəni kəsməyib, mətbuatda yenə məqalələri ilə çıxış edib.

M. Bəxtiyarlının yaradıcılığı geniş və çoxşahəli olub. Onun çeşidli şeir və poemaları "Şərqin şəfəqi", "Sovet Gürcüstanı", "Ədəbiyyat", "Lenin Bayrağı" qəzetlərində, "Yeni qüvvə", "İnqilab və Mədəniyyət" jurnallarında, "Çeşmə", "Dan Ulduzu" ədəbi almanaxlarında dərc olunub.

M. Bəxtiyarlı SSRİ Yazıçılar İttifaqının üzvü olub. Ədib həm də gürcü poeziyasından nümunələri dilimizə tərcümə edib. Onun ilk kitabı ömrünün sonuna yaxın "Merani" nəşriyyatında nəşr olunub.

M. Bəxtiyarlı 85 yaşında ikən 1998-ci ildə doğulduğu Tiflis şəhərində vəfat edib.

# NƏSİB YUSİFOĞLU



Nəsib Yusif oğlu Nəsibov 1938-ci il martın 18-də Borçalının Qaş-Muğanlı (Böyük Muğanlı) kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıya gedərək Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olub, 1961-ci ildə ali məktəbi bitirib və Böyük Muğanlı Mədəniyyət Evinin direktoru vəzifəsində əmək fəaliyyətinə başlayıb. Gürcü, rus, türk, fars dillərini bilir. 1963-cü ildən həyatını "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzeti ilə bağlayıb. N. Nəsibov bu qəzetdə ən kiçik vəzifələrdən tutmuş şöbə müdiri vəzifəsinə qədər yüksəlib. Bununla yanaşı, 1993-cü ildən 2000-ci ilədək Gürcüstan Dövlət Təhlükəsizliyi Nazirliyi Akademiyasının xarici dillər kafedrasında müəllim, sonra isə baş müəllim işləyib.

Nəsib müəllim erkən yaşlarından bədii yaradıcılıq ilə məşğul olub və "Nəsib Yusifoğlu" imzası ilə hekayələr, publisistik yazıları ilə "Ədəbiyyat və İncəsənət", "Svobodnaya Qruziya", "Veçerniy Tbilisi" qəzetlərində, "Azərbaycan" jurnalının səhifələrində müntəzəm olaraq şeir və hekayələr, publisistik məqalələri dərc olunub. Onun tərcümə etdiyi gürcü şair və yazıçıların əsərləri "Azərbaycan" (1984-cü il), "Göy qurşağı" (1985-ci il), Dan Ulduzu" (1987-1989-cu illər), "Çeşmə" (1980-ci il) toplularında çap olunub. N. Nəsibov  indi də dövrü mətbuatda müntəzəm olaraq dərc olunur. Onun bir neçə əsəri gürcü dilinə də tərcümə olunaraq çap olunub.

N. Yusifoğlu ötən əsrin 70-ci illərindən bu günədək gürcü şair və yazıçıların əsərlərini, həmçinin "Gürcüstan tarixi", "Vətənimizin salnaməsi", "Qədim dünya tarixi", "Orta əsrlər tarixi", "Gürcüstanın fiziki coğrafiyası", "Gürcüstanın iqtisadi coğrafiyası", "Təbiət", "Dünyanın sosial-iqtisadi və siyasi coğrafiyası",  "Gürcüstan Konsepsiyası" (cəmi 80-dən artıq) dərslikləri  gürcücədən dilimizə tərcümə edib. 1995-ci ildə "İntelekti" nəşriyyatı əsasən onun tərcümə və tərtib etdiyi 40-a yaxın gürcü şair və nasirlərin əsərlərindən ibarət "Ərmağan" adlı gürcü ədəbiyyatı müntəxabatını çap edib. 1997-ci ildə N. Nəsibovun tərcüməsində Ş.

Rustavelinin L. Asatiani və N. Aqiaşvili tərəfindən nəsrə çevrilən "Pələng dərisi geymiş pəhləvan" əsərini Azərbaycan dilinə tərcümə edib.

N. Nəsibov leksikologiya sahəsində də müsbət işlər görüb. 1987-ci ildə 21 min söz və ifadədən ibarət "Gürcücə-azərbaycanca lüğət" kitabı (müəlliflər: Nəsib Nəsibov, Venera Cankidze, Süleyman Süleymanov) "Qanatleba" nəşriyyatı tərəfindən çapdan çıxıb. 1997-ci ildə professor Valeh Hacıyev ilə birlikdə "Azərbaycanca-gürcücə və gürcücə-azərbaycanca lüğət" kitabı "İntellekti" nəşriyyatında nəşr olunub. 2000-ci ildə N.Nəsibovun "Yurd həsrəti" adlı şeir və hekayələr kitabı çıxıb. 2003-cü ildə akademik Zaza Aleksidzenin "Qafqaz albanları dilləndilər" və Avtandil Sakadzenin şeir və hekayələrindən ibarət "Mənim adətim" kitabları, həmçinin "Gürcücə-azərbaycanca lüğət"in ikinci, 2011-ci ildə isə həmin lüğətin düzəlişlər və əlavələr edilmiş üçüncü çapı oxuculara təqdim edilib.

Nəsib Nəsibov Gürcüstan Jurnalistlər İttifaqının üzvü, sabiq SSRİ Jurnalistlər İttifaqının üzvü, Gürcüstanın Əməkdar Mədəniyyət işçisi, SSRİ Jurnalistlər İttifaqının mükafatı laureatı, "Şərəf" ordenli kavaleridir. SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc medalına və pul mükafatına layiq görülüb. O, 2006-cı ildə Gürcüstanda azərbaycanca çıxan "Corcian tayms" qəzetinin redaktoru vəzifəsində işləyib.

Nəsib Yusifoğlu hazırda Gürcüstan paytaxtı Tiflis şəhərində yaşayıb-yaradır, 77 yaşı tamam olmasına baxmayaraq, bu təvazökar insan, yorulmaz və məhsuldar şair, publisist, istedadlı jurnalist sevimli mətbuat orqanı olan "Gürcüstan" qəzetində şöbə müdiri vəzifəsində çalışır.



## ARİF MUSTAFAZADƏ
## (1939-1996)

Arif Abdulla oğlu Mustafazadə 1939-cu ildə Qarayazıda (Qardabani) ziyalı ailəsində anadan olub. 1963-cü ildə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Həmin vaxtdan Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində redaktor işləyib. Bir müddət sonra doğma Gürcüstana qayıdaraq, Qardabani rayon maarif şöbəsində inspektor kimi fəaliyyətini davam etdirib. 1984-cü ildə "Sovet Gürcüstanı" (sonralar "Gürcüstan") qəzetinin formatı böyüdülən vaxtdan Arif Mustafazadə qəzetə işə dəvət alıb və 1991-ci ilədək həmin mətbuat orqanında "Mədəniyyət və İncəsənət" şöbəsinə rəhbərlik edib. O, jurnalistlik fəaliyyəti ilə yanaşı, eyni zamanda gənclik illərindən başlayaraq, ədəbi yaradıcılıqla ciddi məşğul olub. Onun ilk şeirləri Qardabanidə nəşr olunan "Samqori" rayon qəzetində, sonra "Sovet Gürcüstanı", "Ədəbiyyat və İncəsənət" qəzetlərində, "Ulduz" və "Azərbaycan" jurnallarında, "Çeşmə" və "Dan Ulduzu" almanaxlarında işıq üzü görüb. Ömrünün sonlarında yenidən Bakıya qayıdan A. Mustafazadə bir müddət bədii yaradıcılığını Azərbaycanda davam etdirib. A. Abdullazadə tərcümə ilə də məşğul olub. O, O. Dqebuadzenin "Dörd həyat" povestini, Berejkovun "Tehran-1943" əsərindən parçaları, macar və Amerika hekayələrini sənətkarlıqla tərcümə edib.

O, 1996-cı ildə Bakı şəhərində vəfat edib.

## MƏDƏD COŞQUN



Mədəd İsa oğlu İsmayılov 1938-ci ildə Başkeçidin Gəyliyən kəndində anadan olub. Uşaqlıq illəri ağır müharibə illərinə təsadüf etsə də, yetimlik ağrı-acısı yaşasa da sınmayıb, həmişə nikbin şəxs olub. M. İsmayılov orta məktəbi qızıl medal ilə bitirib, sonra Tiflis Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini fərqlənmə ilə başa vurub.

M. İsmayılov əmək fəaliyyətinə Gürcüstan paytaxtında jurnalist kimi başlayıb, sonralar məktəbdə, Dmanisi Rayon Partiya Komitəsində işləsə də, sevimli peşəsi olan jurnalistikadan ayrılmayıb, "Coşqun" təxəllüsü ilə şeirlər yazıb, dövri mətbuatda çap etdirib. O, SSRİ Jurnalistlər İttifaqının üzvü olub. M. Coşqunun bir neçə kitabı işıq üzü görüb. Mədəd Coşqun şeir yazmaqla bərabər, həm də Başkeçiddə nəşr olunan "Qələbə Bayrağı" rayon qəzetinin nəzdində "Çeşmə" ədəbi dərnəyin, "İlkin" adlı milli ansamblın yaradıcısı olub.

Mədəd Coşqun ailə vəziyyəti ilə əlaqədar bir müddət Bakıda yaşayıb, bu şəhərdə müxtəlif vəzifələrdə işləyib. Bakıda yaşayarkən jurnalist-şair Mədəd Coşqun yenə qələmini sınayıb, müxtəlif dövri mətbuat səhifələrində publisist yazıları, şeirləri ilə çıxış edib, ədəbi ictimaiyyətin rəğbətini qazanıb. O, Bakıda nəşr olunan "Rabitə dünyası" adlı qəzetin redaktoru olub.

Ömrünün və yaradıcılığının ahıllıq yaşlarını yaşayan M. Coşqun yenidən doğma Başkeçidə qayıdıb və indi doğmaları arasında dəyərli bir ziyalı kimi fəaliyyət göstərir, ədəbi yaradıcılığını inkişaf etdirir.



**QASIM ƏHMƏDOV**
**(1936-2002)**

Qasım Mustafa oğlu Əhmədov 1936-cı ilin oktyabr ayının 22-də Borçalının Molloğlu kəndində anadan olub. 1946-1954-cü illərdə Sadaxlı səkkizillik məktəbində oxuyub. O, məktəbi bitirən kimi Türk Pedaqoji Texnikumuna qəbul olub və həmin təhsil ocağını 1959-cu ildə əla qiymətlərlə bitirib. 1962-ci ildə hərbi xidmətini başa vuran Q. Əhmədov Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsini bitirib.

1964-1971-ci illərdə Molloğlu səkizillik məktəbin direktoru vəzifəsində işləyib. 1971-ci ildən 1976-cı ilədək Gürcüstan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan dilində verilişlər redaksiyasında müxbir, sonra kiçik redaktor vəzifəsində çalışıb.

Q. Əhmədov 1976-cı ildən "Sovet Gürcüstanı" qəzetində korrektor, daha sonra müxbir və sonra "Məktublar və kütləvi iş" şöbəsinin müdiri vəzifəsində çalışıb və 1996-cı ildə doğma kəndindəki məktəbə direktor təyin olunub və ömrünün sonuna qədər bu vəzifədə çalışıb.

Qasım Əhmədov 40 illik əmək fəaliyyətinin 30 ilini mətbuat sahəsində işləyib. O, publisistik fəaliyyəti ilə bərabər, bir sıra şeirlərin də müəllifidir. İlk mətbu şeiri 1957-ci ildə "Şərqin şəfəqi" qəzetində dərc edilib. Dövrü mətbuatda "Məftuni" imzası ilə şeirlərini dərc etdirib. Bir kitabı nəşr edilib.

O, SSRİ Jurnalistlər İttifaqının üzvü olub.

Qasım Əhmədov 2002-ci ildə vəfat edib.



## ALXAN BİNNƏTOĞLU

Alxan Binnət oğlu Səmədov 1936-cı il may ayının 3-də Başkeçidin Armudlu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra A.S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitunun tarix-filologiya fakültəsini bitirib.

A.Binnətoğlu həyatının çox hissəsini bitirdiyi ali məktəbdə müəllimliyə həsr edib. Daha sonra Gürcüstanda fəaliyyət göstərən ali məktəblərdə də mühazirələr oxuyub.

Yaradıcılığa erkən yaşlarından başlayan A. Binnətoğlunun ilk şeirlər kitabı 1971-ci ildə Bakıda işıq üzü görüb. Yüzdən artıq elmi məqalə və tədqiqat işinin, 12 kitabın müəllifidir. Əsasən şair kimi tanınan A. Binnətoğlunun bir neçə nəsr əsəri də var. İki dram əsəri ayrıca kitab şəkilində işıq üzü görüb. O, gürcü və rus ədəbiyyatından bir çox nümunələri dilimizə tərcümə edib.

O, bir müddət "Yeni yol" qəzetinin baş redaktoru olub və jurnalistlik fəaliyyətini pedaqoji sahə ilə birgə inkişaf etdirib.

Şair, ədəbiyyatşünas, tərcüməçi, pedaqoq və jurnalist A.Binnətoğlu AYB-nin üzvü, Heydər Əliyev adına Tiflis Dövlət Azərbaycan Dram Teatrının əməkdaşı, Gürcüstan Azərbaycanlılar Mədəniyyət Mərkəzinin təsis etdiyi "Meydan" jurnalının baş redaktorudur.



## ƏYYUB BAYRAMOV
## (1948-2012)

Əyyub Hüseyn oğlu Bayramov 1939-cu il mayın 5-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Mehmandar kəndində anadan olub. Ailəsi 1948-ci ildə Gürcüstanın Marneuli rayonunun Yuxarı Saral kəndində məskunlaşıb. Orta məktəbi Qasımlı kəndində bitirib. 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. Universiteti bitirdikdən sonra doğma kəndinə qayıdıb. Jurnalist kimi fəaliyyətə 1969-cu ildən "Axali Marneuli" (sonralar "Yeni Marneuli," "Marneuli" adı ilə çıxıb) adlı rayon qəzetində başlayıb. İşinə, peşəsinə qəlbən bağlı olub. Fəaliyyəti dövründə həyatın müxtəlif sahələrindən bəhs edən məqalələr qələmə alıb. Əyyub Bayramov 27 il rayon qəzetində müxbir vəzifəsində çalışıb. Qəzet 1996-cı ildə öz fəaliyyətini dayandırana qədər Ə. Bayramov bu mətbuat orqanının fəal əməkdaşı olub.

O, 2012-ci il iyulun 1-də 73 yaşında vəfat edib.



## KAMİL KİRƏCLİ

Kamil Musayev 1940-cı ildə Marneuli rayonunun Kirəc Muğanlı kəndində anadan olub. Orta təhsil aldıqdan sonra 1968-ci ildə ADU-nun jurnalistika fakültəsini bitirib. Sonra “Axali Marneuli” (“Yeni Marneuli”) rayon qəzetində müxtəlif vəzifələrdə çalışıb.

Kamil Kirəcli sabiq SSRİ Jurnalistlər İttifaqının üzvü olub. O, həm də “Ozan” ictimai cəmiyyətinin sədridir. K. Kirəcli müxtəlif publisistik məqalələrin və şeirlərin müəllifidir. Hal-hazırda Marneuli şəhərində çap olunan “Ozan” qəzetinin redaktorudur.

## BƏHRAM MEHDİ



Bəhram Hacı oğlu Mehdi 1943-cü il aprelin 12-də Bolnisinin Həsənxocalı kəndində bağban ailəsində anadan olub. Arıxlı kəndində orta məktəbi bitirdikdən sonra 1960-cı ildə A.S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutuna qəbul olub və dörd ildən sonra həmin ali məktəbi bitirib. İlk mətbu şeiri "Sovet Gürcüstanı" qəzetində dərc olunub. Sonralar "Qələbə Bayrağı", "Trialeti", "Axalı Marneuli", "Samqori", "Çənlibel", Azərbaycan Gəncləri", "Ədəbiyyat və İncəsənət", "Ziya", "Təhsil", "Şərqin səsi", "Konqres", "Yeni Azərbaycan" və "Azərbaycan" və "Ulduz" jurnallarında məqalə və şeirləri dərc olunub. o, "Çeşmə" və "Dan Ulduzu" ədəbi məcmuələrinin redaksiya heyətinin üzvü olub. Gürcüstanda yaşayıb-yaratmış el şairlərinin əsərlərinin toplanmasında və nəşr olunmasında Bəhram Mehdinin əməyi olub. O, el şairlərindən Alxas ağa, Fatma Alı qızı, Güllər Pəri, Güllər İsmayıl, Şair Nəbi, Təhləli Novruz, Qaraçöplü şair Musa, Şair Teymur, Şair Şaban, Qara Qərib, Şair Balakişi, Şair Ağacan, Mahmud Elqəmi və s. 35 el şairinin əsərlərini "Dan Ulduzu" ədəbi məcmuəsinin ikicildliyində çap etdirib.

B. Mehdi Gürcüstan Televiziya və Radio Verilişləri şirkətinin Azərbaycan şöbəsində müxbir, Gürcüstan Azərbaycanlılarının Konqresi qeyri-hökumət təşkilatının "Konqres" adlı qəzetində redaktor vəzifəsində çalışıb. O, hazırda "Gürcüstan", "Ziya", "Təhslil", "Şərqin səsi" və "Yeni Azərbaycan" qəzetlərinin xüsusi müxbiridir.



## PAŞA ƏLİYEV (KƏSƏMƏNLİ)

Əliyev Paşa Məmməd oğlu 1940-cı ildə Qaradabani rayonunun Kosalı kəndində anadan olub. Orta təhsilini doğma kəndində alıb. Orta məktəb illərindən sonra kolxozda çalışıb, elektrik stansiyasında, tikinti-quraşdırma sahəsində işləyib. 1964-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna qəbul olunub, 1967-ci ildə həmin institutun mədəni-maarif fakültəsini bitirərək Gürcüstana qayıdıb. Elə həmin ildən "Sovet Gürcüstanı" qəzetində əvvəlcə ədəbi işçi, müxbir, sonra isə qəzetin xüsusi müxbiri kimi 1975-cı ilədək fəaliyyət göstərib. Həmin il Qardabanidə çıxan ikidilli qəzetin Azərbaycan bölməsinin redaktoru təyin edilib. O, bu vəzifədə 2006-cı ilədək fəaliyyət göstərib. Qəzetçilik fəaliyyəti dövründə çoxsaylı oçerklər, felyetonlar, müxtəlif mövzularda məqalələr və reportajlar müəllifi kimi oxucuların rəğbətini qazanıb.

Paşa Əliyevin qələmə aldığı yazılar müxtəlif dillərə tərcümə olunub. O, neçə-neçə fəxri fərman və diplomlara layiq görülüb. Gürcüstan və SSRİ Jurnalistlər İttifaqının üzvü olub. Bir neçə dəfə Qardabani rayon və kənd sovetinin deputatı seçilib. Marksizm-Leninizm Universitetinin Tiflis filialının ikiillik tam kursunu bitirib. Paşa Əliyev təqaüdə çıxmasına baxmayaraq yenə də məqalələri ilə Gürcüstanda nəşr olunan Azərbaycan dilli mətbuat səhifələrində müntəzəm çıxış edir, ictimai işlərdə fəallıq göstərir.

Üç oğul, altı nəvə sahibi olan Paşa Əliyev (Kəsəmənli) həm də gözəl ailə başçısıdır.

## HƏMID VƏLIYEV



Həmid Alı oğlu Vəliyev 1939-cu ildə Borçalı mahalının Sadaxlı kəndində dünyaya gəlib. 1947-1958-cü illərdə Marneuli rayonunun Sadaxlı kənd orta məktəbində oxuyub.1960-1966-cı illərdə ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil alıb. Hələ universitetdə tələbə olarkən ailəsini dolandırmaq üçün Marneuli rayon qəzetində işləməyə məcbur olub. Şirin, aktual, dövrün tələblərinə cavab verən yazıları, reportajları, oçerkləri ilə ilk gündən oxucuların diqqətini cəlb edib. Çox keçmədən, Həmid Vəliyevin səsi Gürcüstan paytaxtında fəaliyyət göstərən Azərbaycan dilində verilişlər redaksiyasının radiosundan gəldi. O, bir neçə il bu radioda həm diktor, həm də yaradıcı ədəbi işçi kimi çalışdı. Tələbəlik illəri başa çatdıqdan sonra ali təhsilli jurnalist kimi "Sovet Gürcüstanı" qəzetində əməkdaşlıq etməyə başladı. Elə ilk günlərdən də jurnalitika ilə yanaşı, elmi axtarışla ciddi məşğul olmağa başladı. 1970-ci ildə Əməkdar fərqlənməyə görə medalı, Gürcüstan SSRİ Ali Soveti Rəyasət heyəti fəxri fərmanı ilə təltif olunub. O, 1975-1978 -cı illərdə Sov.İKP MK yanında Ali Partiya Məktəbində jurnalistika ixtisası üzrə təhsil alıb. Həmid Vəliyev 1980-ci ildə " Azərbaycan gürcü ədəbi mənbələrində (19-cu əsrin sonu, 20-ci əsrin əvvəlləri)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Universal filoloq, jurnalist-alim "Sovet Gürcüstanı" qəzetində şöbə müdiri, məsul katib, redaktor müavini kimi vəzifələrdə çalışıb. İstedadlı jurnalist Həmid Vəliyev 1988-ci ildə Gürcüstan Respublikasının Əməkdar Jurnalisti adını alıb.

H. Vəliyev 1990-cı ildən sonra ailə vəziyyəti ilə əlaqədar olaraq, daimi yaşamaq üçün Bakı şəhərinə köçüb. O, bu şəhərdə əvvəlcə prezident aparatı yanında "Yurd" dərgisinin redaktoru (1991), sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Şəfqət" qəzeti (1996-cı ildən) baş redaktoru vəzifəsində işləyib. 1994-cü ildən Bakı Dövlət Universitetində çalışır. 1999-2004 - cü illərdə BDU, Jurnalistika fakültəsi Mətbuat Tarixi kafedrasinda dosent əvəzi vəzifəsində çalışıb. Pedaqoji fəaliyyətə

məşğul olan Həmid Vəliyev Azərbaycanda və Gürcüstanda çapdan çıxmış kitabların, elmi-publisistik məqalələrin, mühüm dərs vəsaitlərinin müəllifidir.

2004-cü ildən BDU, beynəlxalq jurnalistika kafedrasının müdiridir. Filologiya elmləri namizədi, professor Həmid Vəliyev hazırda BDU-da „Xarici ölkələrin jurnalistika tarixi" (bakalavr); „Dünya informasiya agentlikləri", „Beynəlxalq jurnalist təşkilatları" (magistratura) fənlərini tədris edir. 250 elmi və elmi - publisistik məqalə, 1 monoqrafiya, 3 kitabın müəllifidir.

Görkəmli jurnalist Həmid Vəliyev 2005- ci ildə Prezidentin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilib. 2009-cu ildə Azərbaycan Respublikasının „Qabaqcıl təhsil işçisi" adına layiq görülüb. Mətbuat Şurasının fəxri diplomu ilə təltif olunub.

**TƏDQİQAT SAHƏSİ**

İnformasiya cəmiyyətinin formalaşması prosesi: "Beynəlxalq təcrübə və Azərbaycan"

**BEYNƏLXALQ SEMINAR, SIMPOZIUM VƏ KONFRANSLARDA IŞTIRAKI**

- „Ekologiya problemləri və jurnalistika" - Kişinyov 2001
- Beynəlxalq humanitar hüquq və jurnalistika - Moskva 2005
- Beynəlxalq uşaq hüquqları və jurnalistika- Buxarest 2010
- Beynəlxalq uşaq hüquqları və jurnalistika- Dublin 2011

**KİTABLAR**

- Azərbaycan folkloru və ədəbiyyatı gürcü mənbələrində (Monoqrafiya). B., 1984
- Deyl Karnegi. Dostu necə qazanmalı (Tərcümə). B., 1993
- Dünya informasiya agentlikləri (Dərs vəsaiti). B., 2003
- Beynəlxalq jurnalist təşkilatları (Dərs vəsaiti). B., 2005
- Vəliyev H. Xarici ölkələrin jurnalistikası tarixi. B., 2012

**P.S. Həmid müəllim çox istedadlı və iti qələm sahibi olan jurnalistdir. Sovetlər dönəmində onun yazdığı felyetonlar cavabsız qalmazdı. Dövlət strukturları həmin gün bu sərt yazılarda qeyd olunan nöqsanları düzəltməyə çalışar və nəticə barədə redaksiyaya cavab verərdi. O, uzun illər Tiflisdə nəşr olunan "Sovet Gürcüstanı"**

**qəzetində redaktor müavini işləyib, jurnalistika sahəsində olan zəngin təcrübəsini həmişə gənclərə öyrədib. İnanırıq ki, gözəl istedad sahibi olan belə müəllimlərimizin dərs dediyi tələbələr mütləq peşəkar jurnalistlər olacaq.**

**Həmid müəllim həm də gözəl insandır. Ona həmişə qiymət vermək, hörmət etmək borcumuzdur. Sizə daha böyük uğurlar arzulayırıq, Həmid müəllim!**



# ƏZİM İSMAYILLI

Əzim İsfəndiyar oğlu İsmayıllı 1936-cı ildə Şirvan torpağında, Azərbaycanın sənətkarlar yurdu Lahıc kəndində anadan olub. 1960-cı ildə S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsini bitirib. Həmin ildən "Sovet Gürcüstanı" qəzetində əməkdaşlıq edib.

Ə. İsmayıllı ədəbi yaradıcılığa tələbəlik illərində başlayıb və ilk hekayəsi "Qocalıqda yorğalıq" 1957-ci ildə "Gəncliyin səsi" almanaxında dərc olunub. Onun ilk hekayələr kitabı "Nəfəs" 1966-cı ildə Bakıda Azərnəşr tərəfindən çapdan buraxılıb. Əzim İsmayıllı öz səsi, öz nəfəsi olan yazıçı olub. Onu yazdığı əsərlərdə ən çox düşündürən insan, onun mənəvi aləmi, həyata baxışı, düşüncə, arzu və mübarizliyidir. Ə. İsmayıllı dramaturgiya sahəsində də qələmini sınayıb. Onun M. Davudova adına Mingəçevir Dövlət Dram Teatrında "Sevinc yaşları" pyesi oynanılıb. Ə. İsmayıllının "Bir cüt bənövşə" pyesi Böyük Vətən Müharibəsi illərində sovet xalqının göstərdiyi qəhrəmanlıqdan, xalqlar dostluğunun tükənməz qüvvə və iradəsindən bəhs edir. Onun haqqında Azərbaycan yazıçılarından Mirzə İbrahimov, Süleyman Rəhimov, İlyas Əfəndiyev, Mehdi Hüseyn, Əbülhəsən və başqaları dəyərli sözlər demişlər.

Onun zəhməti sayəsində "Çeşmə", "Dan Ulduzu" topluları nəşr olunub.

Əzim İsmayıllı ömrünün son vaxtlarında Cəlil Məmmədquluzadə ənənələrini davam etdirmək üçün Tiflisdə "Molla Nəsrəddin" məcmuəsini nəşr etdirib.

O, Hindistan, Türkiyə, Şri-Lanka, Misir və Yunanıstana etdiyi səfərlər barədə təəssüratlarını qələmə alaraq publisistik yazılarla mətbuatda çıxışlar edib.

Əzim İsmayıllı Bakıda vəfat edib.



## ARİF HADIZADƏ
## (1940-2013)

Arif Hüseyn oğlu Hadızadə 1940-cı ildə Marneuli rayonunun Yuxarı Saral kəndində anadan olub. İlk təhsilini həmin kənddə, 7 illik təhsilini Aşağı Saral kəndində, orta təhsilini isə 1959-cu ildə Qasımlı kəndində bitirib. Həmin il hərbi xidmətə yollanıb və xidmət müddətində bir illik axşam partiya məktəbini bitirib. 1964-cü ildə hərbi xidmətdən tərxis olunduqdan sonra A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə daxil olub və 1968-ci ildə bu ali məktəbi bitirərək göndərişlə Gürcüstan paytaxtında nəşr olunan "Sovet Gürcüstanı" qəzetində əmək fəaliyyətinə başlayıb. Arif Hadızadə qəzetdə ilk öncə korrektor vəzifəsində, sonra baş korrektor, 1984-cü ildə qəzet böyük formatla nəşr olunduğuna görə xüsusi müxbir vəzifəsində çalışmağa başlayıb.

Arif Hadızadə 1973-cü ildən SSRİ Jurnalistlər İttifaqının, 1970-ci ildən isə Gürcüstan Jurnalistlər İttifaqının üzvü olub. Jurnalistika sahəsində səmərəli fəaliyyətinə görə onun əməyi yüksək qiymətləndirilib. Arif Hadızadə 1997-ci il oktyabrın 18-də "Şərəf" medalı ilə təltif olunub. O, eyni zamanda "Sovet Gürcüstanı" qəzetinin nəşr olunmasının 60 illiyi münasibəti ilə Gürcüstan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilib.

"Gürcüstan" qəzetinin Borçalı bölgəsi üzrə xüsusi müxbiri vəzifəsində işləyib. O, mütəmadi olaraq bu bölgədən xəbərlər, müxtəlif janrlarda məqalələr yazaraq "Gürcüstan" qəzetinin səhifələrində çap etdirib.

Ailəlidir. Bir oğlu, üç qızı və on nəvəsi və beş nəticəsi var.

2013-cü ilin dekabr ayında vəfat edib.

## EMİN MAHMUDOV



Emin Abdulla oğlu Mahmudov 1940-cı il, fevralın 13-də Başkeçid (indiki Dmanisi) rayonunun Azgəyliyən kəndində ziyalı ailəsində anadan olub. 1954-cü ildə doğma kəndindəki 8 illik natamam orta məktəbi, 1957-ci ildə Qızıl-Kilsə orta məktəbini bitirdikdən sonra 1958-ci ildə A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutu bitirdikdən sonra müəllim ixtisasına yiyələnərək, doğma kəndindəki məktəbdə müəllim işləyib. Sonra o, Tiflisə köçüb burada yaşayaraq, ömrünü bütünlüklə jurnalistikaya bağlayıb.

O, ilk qələm təcrübələrini orta məktəbdə oxuyarkən rayon qəzetində dərc etdirib. Gənc müxbir kimi "Sosializ maldarlığı" qəzetində müxtəlif xəbərlərlə çıxış edib. E. Mahmudov Tiflisə köçdükdən sonra gürcü dilində çıxan "Kommunisti" qəzetinin redaktoru David Mçedlişvilinin zəmanəti ilə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunub və 1968-ci ildə həmin fakültəni bitirdikdən sonra, Gürcüstanda fəaliyyət göstərən dövlət televiziya və radio verilişləri redaksiyasının Azərbaycan şöbəsinin rəhbəri vəzifəsinə təyin olunaraq, 2004-cü ilə qədər (2004-cü ildə həmin redaksiyanın fəaliyyəti dayandırılıb) bu vəzifədə çalışıb.

Peşəkar jurnalist Emin Mahmudov radioda 40 il çalışıb. O, radioda çalışmaqla bərabər, bədii və publisist yazılarını Gürcüstan və Azərbaycanda çıxan qəzet və jurnallarda mütəmadi olaraq dərc etdirib. Onun "Ərməğan" adlı ilk kitabı 1991-ci ildə "Merani" nəşriyyatı tərəfindən nəşr olunub. 2003-cü ildə isə "Yadigar şəkil" adlı hekayə, novella və oçerklər kitabı işıq üzü görüb.

Emin Elsevər (Mahmudov) gürcü nəsrinin bacarıqlı tərcüməçisi kimi tanınır. Onun tərcüməsində İ. Çavçavadzenin "Otar öyünün dul qadını" povesti Azərbaycan və gürcü dillərində nəşr edilib. Sonra gürcü yazıçısı Cabua Amiracebinin "Data Tutaşxia" romanı Emin Elsevərin tərcüməsində azərbaycanlı oxuculara təqdim olunub və rəğbətlə qarşılanıb. E. Elsevər

15 nəfər gürcü yazıçısının hekayə və povestləri daxil edilən “Gürcü nəsri antologiyası” kitabını çapa hazırlayıb.

Emin Mahmudov AZTV-nin Gürcüstan respublikası üzrə xüsusi müxbiri olub, 1995-ci ildə səhhəti ilə bağlı bu vəzifədən azad edilib. O, 2003-cü ilin sentyabr ayında Acarıstan televiziyasının nəzdində yaradılan Azərbaycan dilində yarım saatlıq verilişlər redaksiyasının redaktoru vəzifəsinə təyin olunub və 2004-cü istədək bu vəzifədə işləyib. O, həmçinin “Bi-Bİ-Sİ” informasiya agentliyinin Azərbaycan dilində verilişlər proqramının Gürcüstan üzrə təmsilçisi olub. O, bu gün də jurnalistikada qələmini cəsarətlə sınayır və Gürcüstanda nəşr olunan dövri mətbuatda məqalələri ilə çıxış edir.

Emin Mahmudov (Elsevər) fəxri fərmanlarla və “Şərəf” ordeni ilə təltif olunub, Gürcüstan Jurnalistlər İttifaqının və Jurnalistlər Federasiyasının diplom və qiymətli hədiyyələrinə layiq görülüb.

# ƏLİXAN DÜŞGÜN



Əlixan Abbasov (Düşgün) 1941-ci ildə Başkeçidin Lökcandar kəndində anadan olub. 1958-ci ildə Hamamlı orta məktəbini, 1962-ci ildə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. O, əvvəlcə “Sovet Gürcüstanı” qəzetində, sonra Gürcüstan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışıb.

Əlixan Düşgün 1996-cı ildən ömrünün sonunadək Gürcüstanda Sovet hakimiyyəti dağıldıqdan sonra ilk müstəqil anadilli mətbuatımız olan “İnam” qəzetinin baş redaktoru, həmçinin “Dayaq“ cəmiyyətinin rəhbəri kimi fəaliyyət göstərib.

Əlixan Abbasov gənc yaşlarından bədii yaradıcılıqla məşğul olub. O, şeirlərini “Düşgün” imzası ilə dərc etdirib. Uzun müddət ədəbi-bədii tərcümə yaradıcılığı ilə məşğul olan Ə. Düşgün sağlığında bir neçə kitabını çap etdirə bilib.

Əlixan Düşgün ömrünün və yaradıcılığının müdrik çağında qəflətən vəfat edib və Tiflisdə dəfn olunub.



## İSLAM ƏLIYEV

İslam Hacı oğlu Əliyev 1947-ci il iyunun 1-də Marneuli rayonunun Ambarovka kəndində anadan olub. Ambarovka, Keşəli 7 illik, Kəpənəkçi orta məktəbini bitirdikdən sonra bir il Alget üzümçülük sovxuzunda fəhlə işlədikdən sonra 1965-ci ildə A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olub və 1970-ci ildə bu ali təhsil məktəbini fərqlənmə diplomu ilə bitirib. İ. Əliyev tələbəlik illərində ictimai işlərdə fəal çalışıb, kurs komsomol komitəsinin sədri və fakültəhəmkarlar ittifaqı təşkilatının sədri olub. İnstitutu bitirən kimi "Sovet Gürcüstanı" respublika qəzetinə işə qəbul edilib. O, ilk öncə korrektor, sonra baş redaktor, kiçik ədəbi işçi, məktublar və kütləvi işlər şöbəsinin müdiri, daha sonra təbliğat-təşviqat, partiya həyatı şöbəsinin müdiri və məsul katib vəzifələrində çalışıb. İ. Əliyev 1990-cı ildə "Sovet Gürcüstanı" qəzetinin redaktor müavini təyin edilib. O, həmin vəzifədə çalışmaqla, həm də 2004-cü ildən AzərTac-ın Gürcüstan müxbiri vəzifəsində çalışıb. 2015-ci ildə o, "Gürcüstan" qəzetinin redaktoru vəzifəsinə təyin olunub.

İ. Əliyev uzun müddət redaksiya həmkarlar ittifaqı təşkilatının sədri, redaksiya partiya bürosunun katibi olub. O, iki dəfə Tiflis Şəhər Kalinin Rayon Partiya Komitəsinin üzvü seçilib. 1985-ci ildə Bakı Ali Partiya Məktəbini bitirib.

İslam Əliyev iki dəfə Gürcüstan Jurnalistlər İttifaqının keçirdiyi müsabiqədə iştirak edərək mükafata layiq görülüb. Jurnalistika sahəsində səmərəli fəaliyyətinə görə, Gürcüstan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı və Gürcüstanın "Şərəf" medalı ilə mükafatlandırılıb. O, eyni zamanda SSRİ Jurnalistlər İttifaqının Fəxri diplomuna, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bürünc müdalına və pul mükafatına layiq görülüb.

Gürcüstan jurnalistikasında uzunmüddətli uğurlu fəaliyyət göstərdiyinə görə, 2015-ci ildə "Gürcustanın Əməkdar Jurnalisti" adına

layiq görülüb.

İslam Əliyev Gürcüstanda nəşr olunan bir neçə kitabın redaktoru olub və bədii-publisistik yaradıcılıqla məşğul olaraq hekayə və publisistik yazılarını Gürcüstan və Azərbaycan mətbuatında dərc etdirib.

Ailəlidir. İki oğlu, bir qızı, nəvələri var.

## RAMİZ İGİDOV



Ramiz Musa oğlu İgidov 1943-cü ildə Adıgün rayonunun Marel kəndində ziyalı ailəsində anadan olub. 1960-cı ildə Marneuli şəhərindəki 3 nömrəli orta məktəbi qızıl medal ilə bitirib. M.F. Axundov adına ADPDU-nunda, sonra isə BDU-da təhsil alıb. İxtisasca jurnalistdir.

Ramiz İgidov 1969-1971-ci illərdə Azərbaycanın Əli Bayramlı (indiki Şirvan) şəhərində rus dilində çıxan "Mayak" qəzetində şəhər şöbəsinin müdiri və məsul katib vəzifələrində işləyib. Ramiz İgidovun jurnalistlik fəaliyyətinin sonrakı illəri Marneuli ilə bağlı olub. O, 1973-1995-ci illərdə müəyyən fasilələrlə "Axali Marneuli" rayon qəzetində kənd təsərrüfatı şöbəsinin müdiri, redaktor müavini, qəzetin Azərbaycan bölməsinin redaktoru vəzifələrində işləyib. O, çalışdığı qəzetdə müxtəlif məqalələr, felyetonlar və tənqidi məqalələr ilə müntəzəm çıxış edib.

R. İgidov 1985-1988-ci illərdə Gürcüstan Dövlət Texniki Peşə Təhsil Komitəsinin Marneuli Ərazi İdarəsinin rəisi vəzifəsində çalışıb.

1995 – 1997-ci illərdə Marneulinin Şulaveri Kənd Məclisinin sədri vəzifəsinə seçilib. O, rayonda idmançı kimi də tanınıb.

## QASIM ABBASƏLİYEV
## (1944-2006)



Qasım Abbasəliyev 1944-cü ildə Borçalının Quşçu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. O, uzun illər "Axali Marneuli" ("Yeni Marneuli") rayon qəzetində müxtəlif vəzifələrdə çalışıb. Maraqlı və yaddaqalan şeirləri və məqalələri qəzet səhifəsində çap olunub.

Çox erkən yaşlarından şeir yazmağa başlayan Qasım Abbasəliyevin əsərləri bir sıra Azərbaycan və Gürcüstan mətbuatında və bir neçə almanaxlarda çap olunub.

Q. Abbasəliyevin poeziyası haqqında məşhur Azərbaycan yazıçı və ədəbiyyatşünaslarından Mizə İbrahimov, Abbas Hacıyev, Bəxtiyar Vahabzadə, Müzəffər Şükür və başqaları dəyərli fikirlər söyləyiblər.

O, uzun müddət Londonda fəaliyyət göstərən "Bi-bi-si" radiosunun Azərbaycan bölməsinin Gürcüstan üzrə xüsusi müxbiri işləyib.

Qasım Abbasəliyev 2006-cı ildə Marneulidə faciəli şəkildə avtomobil qəzasında həlak olub.



## ŞAHVƏLƏD ƏHMƏDOĞLU
## (1944-2004)

Şahvələd Əhməd oğlu Hüseynov 1944-cü ildə Qarayazının Ağtəhlə kəndində anadan olub. 1961-ci ildə doğma kəndində orta məktəbi, 1967-ci ildə isə ADU-nun jurnalistika fakültəsini bitirib.

Ş. Əhmədoğlunun ilk qələm təcrübələri Qardabani rayon qəzeti "Samqori"də dərc olunub. O, ilk əmək fəaliyyətinə də bu qəzetdə başlayıb. Sonradan uzun illər "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzetində əvvəlcə korrektor, sonra müxbir kimi çalışıb.

Ş.Əhmədoğlu gənclik çağlarında ədəbiyyata, xüsusilə şeirə böyük maraq göstərib və şeirləri ilə həmin illərdə nəşr olunan bir çox qəzet və dərgilərdə, "Çeşmə", "Dan Ulduzu", "Çənlibel", "Ədəbi Gürcüstan" və digər almanaxlarda çap olunub.

Ş. Əhmədoğlunun yeganə kitabı olan "Payız sevincim" adlı şeirlər kitabı 2003-cü ildə şair R. Hümmətoğlunun redaktorluğu ilə Bakıda işıq üzü görüb.

Şahvələd Əhmədoğlu 2004-cü ildə qəflətən vəfat edib.

# MÜZƏYYƏT YUSİFOV
## (1936-2005)



Müzəyyət Məhəmməd oğlu Yusifov 1936-cı ildə Qarayazının Kosalı kəndində doğulub boya-başa çatıb. O, doğma Kosalı kəndində orta məktəbi bitirdikdən sonra təhsilini Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində davam etdirərək, bu ali məktəbi uğurla başa vurub. Sonra doğma vətəni Gürcüstana qayıdıb və əmək fəaliyyətinə "Sovet Gürcüstanı" qəzetində başlayıb. Müzəyyət Yusifov 1961-ci ildən etibarən 40 ildən artıq doğma qəzetində müxtəlif vəzifələrdə çalışıb. 2002-ci ilə qədər indiki "Gürcüstan" qəzetində bögə müxbiri vəzifəsinə təyin olunan Müzəyyət Yusifov bu vəzifədə işləyəndən sonra təqaüdə çıxıb.

Jurnalistika sahəsində müntəzəm çalışan, həm də gözəl şeirlər müəllifi kimi oxucuların rəğbətini qazanan Müzəyyət Yusifov, eyni zamanda publisistik məqalələr müəllifi kimi ictimaiyyət və oxucular tərəfindən istedadlı jurnalist kimi sevilib

Müzəyyət Yusifun şeirləri vaxtaşırı olaraq müxtəlif mətbuat orqanlarında, Azərbaycan və Gürcüstanda nəşr olunan almanaxlarda dərc olunub.

Müzəyyət Yusifov 2005-ci ildə dünyasını dəyişib.



## YAŞAR VƏLİYEV

Yazıçı, publisist, rəssam Vəliyev Yaşar Hidayət oğlu 1951-ci il martın 30-da Marneuli rayonunun Araplı kəndində müəllim ailəsində anadan olub. 1958-ci ildə Araplı kənd orta məktəbinin birinci sinfinə gedib, 1968-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurub. 1969-1971-ci illərdə ordu sıralarında xidmət edib. 1972-ci ildə Araplı kənd orta məktəbində kitabxana müdiri vəzifəsində çalışıb. Elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsinə qəbul olub, 1977-ci ildə ali məktəbi bitirib.

Universiteti bitirdikdən sonra Gürcüstana qayıdıb, Marneuli rayonunda müxtəlif vəzifələrdə (Azərbaycan dili və ədəbiyyatı müəllimi, «Yeni Marneuli» qəzetində müxbir, kənd təsərrüfatı şöbəsinin müdiri, rayon icraiyyə komitəsinin təlimatçısı, təşkilat şöbəsinin müdiri, rayon prefekturasının təşkilat şöbəsinin müdiri) çalışıb. 1994-cü ildə ailəliklə Bakı şəhərinə köçüb. 1994-cü ilin fevral - iyul aylarında «Mübarizə» qəzetinin baş redaktor müavini, həmin ilin avqust ayından 1996-cı ilin martınadək «Borçalı» jurnalının redaktoru, 1996-cı ilin mart ayından 1997-ci ilin martınadək «Zəka» jurnalının baş redaktor müavini olub. 1997-ci ilin martından 1999-cu ilin mayınadək Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində baş inspektor, həmin dövrdə həmçinin Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində redaktor («Hərbi proqramlar» redaksiyası), «Super Market» və «Həftə» qəzetlərində redaktor müavini, «Azərbaycan Ensiklopediyası» Nəşriyyat - Poliqrafiya Birliyində elmi redaktor vəzifələrində işləyib. 1999-cu ilin mayından 2000-ci il fevralın 25-dək «Rezonans» qəzetinin redaktoru olub. 2000-ci il fevralın 25-dən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aylıq elmi, metodiki, publisistik «Mədəni-maarif işi» jurnalının baş redaktoru vəzifəsində çalışır. Məhz bu təyinatdan sonra əvvəllər ildə 2-3 dəfə işıq üzü görən «Mədəni-maarif işi» Y.Vəliyevin rəhbərliyi altında aylıq dövriyyəyə keçib, tutumu

48 səhifədən 100 səhifəyə çatdırılıb, redaksiya ətrafında səriştəli qələm sahibləri, elm və mədəniyyət xadimləri toplanıb, jurnal Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi nəşrlər siyahısına daxil edilmişdir.

Y.Vəliyev mədəniyyətimizi bir sıra ölkələrdə təmsil və təbliğ edib. 5000-dən artıq məqalənin, 400-dək karikatura və dostluq şarjının müəllifidir.

Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Müxtəlif yaradıcılıq müsabiqələrinin qalibi, «Qızıl qələm» «Həsən Bəy Zərdabi», «Cəlil Məmmədquluzadə» və digər mükafatların laureatıdır.

2005-ci ildə Azərbaycan Respublikasının «Tərəqqi» medalına layiq görülüb. Ailəlidir. İki oğlu, üç nəvəsi var.

Ədəbi yaradıcılığa 1967-ci ildə 16 yaşında ikən «Sovet Gürcüstanı» qəzetində dərc edilən «Olaydı» şeiri ilə başlayıb. Yazıları Rusiya, Macarıstan, Polşa, Almaniya, Türkiyə, Özbəkistan və Qazaxıstanın müxtəlif mətbuat orqanlarında nəşr olunub.

Y.Vəliyevin 17 kitabı, o cümlədən «Ürəyimin ünvanı», «Zəhərlənmiş həyat», «Qanlı bıçaq», «Oğurlanmış qismət», «Əbədi səadət yolu», «Əsrə bərabər illər», «Son görüş», «Bölünmüş məhəbbət», «Əlvida demirəm» və s. kitabları işıq üzü görüb.



## PƏRİXANIM MURSAQULOVA

Pərixanım Səttar qızı Mursaqulova 1948-ci ilin yanvarın 8-də Qızılhacılı kəndində müəllim ailəsində anadan olub. Atası Səttar Mursaqulov əməkdar müəllim, anası Xınalı xanım evdar qadın olub. P. Mursaqulova 1966-cı ildə Marneuli şəhər 3 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olub. 1972-ci ildə bu fakültəni bitirdikdən sonra Marneulidə nəşr olunan "Axali Marneuli" qəzetində korrektor, sonra məktublar şöbəsinin müdiri, 2004-cü ildə isə redaktor müavini vəzifələrində çalışıb. O, ömrünün 38 ilini bu qəzetə həsr edib. Mənalı keçən bu illər ərzində redaksiya ilk partiya təşkilatının katibi, həmkarlar ittifaqının sədri, dəfələrlə Marneuli Rayon Partiya Komitəsinin konfranslarına nümayəndə seçilib, eyni zamanda partiya komitəsinin büro üzvü və plenum üzvü olub.

P. Mursaqulova Gürcüstan və SSRİ Jurnalistlər İttifaqının üzvü olub, Gürcüstanın azərbaycanlı qadınlar içində ilk qadın jurnalisti olaraq "Əməkdar Jurnalist" adına layiq görülüb.

Azərbaycandilli mətbuatda çalışdığı 38 il müddətində Gürcüstanda yaşayan azərbaycanlıların həyatı və onların problemlərinin həllinə çalışıb, müxtəlif mövzularda publisistik məqalələr qələmə alıb. O, sonralar "Yeni Marneuli" adlandırılan və Marneulidə nəşr olunan qəzetin nəzdində fəaliyyət göstərən "Dan Ulduzu" ədəbi dərnəyin işində fəal iştirak edib və dərnək üzvlərinin şeirlərini qəzet səhifələrində dərc edib. O, həm də 1992-ci ildə nəşr olunan "Dağlar dərdə düşsə..." şeirlər toplusunun redaktoru olub. Həmin kitabda Pərixanımın "Eloğlu eldən getdi..." sərlövhəli oçerki qanlı 20 Yanvar faciəsinin qurbanı, Sumqayıt yolunda faciəli surətdə həlak olan, yurdsevər, Borçalının vətənpərvər oğlu, mərhum professor İsmayıl Mursaqulovun əziz xatirəsinə həsr olunub.

Hazırda Pərixanım Mursaqulova Marneuli şəhərində yaşayır və bir övlad anasıdır.



## SƏYAVUŞ UYĞUN

Hüseynov Səyavuş Dilman oğlu (Səyavuş Uyğun) 1949-cu ilin 28 yanvarında Borçalının Qasımlı kəndində müəllim ailəsində anadan olub.

Səyavuş Uyğun 1967-ci ildə Qasımlı orta məktəbi bitirdikdən sonra Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olaraq ali təhsil alıb. O, həmin institutun nəzdində fəaliyyət göstərən 3 illik jurnalistika kursunda da oxuyub.

S. Uyğun 1972-ci ildə Qasımlı kəndində fəaliyyət göstərən sovxozda inşaat mühəndisi vəzifəsində işləyib. 1996-cı ildə Qasımlı kənd məclisi Idarə heyəti sədrinin birinci müavini və aparat müdiri vəzifəsinə təyin olunub. 2000-ci ildən Marneuli rayon icra hakimiyyətinin mədəniyyət şöbəsinin əməkdaşı kimi fəaliyyət göstərməyə başlayıb. Mədəniyyət Evi nəzdində “Qönçə” adlı ədəbi birlik təşkil edib. 2006-cı ildə onun baş redaktorluğu ilə rayon mədəniyyət şöbəsinin orqanı olan 8 səhifəlik “Qönçə” adlı aylıq ədəbi-bədii qəzet nəşr olunub.

S. Uyğun bədii yaradıcılığa orta məktəb illərindən məşğul olub. İlk şeirləri Gürcüstanda nəşr olunan “Yeni Marneuli”, “Qələbə bayrağı”, “Sovet Gürcüstanı”, “Ziya” qəzetlərində, “Azərbaycan Pioneri”, “Azərbaycan Gəncləri” qəzetlərində, “Ulduz”, “Gənclik” jurnallarında, Gürcüstanda nəşrə başlayan “Dan Ulduzu”, “Çeşmə”, “Dağlar dərdə düşsə...”, “Borçalıdan keçən yollar” adlı almanaxlarda, “Ədəbi Gürcüstan”, ”Borçalı antologiyası” kitablarında, “Qarapapaqlar” və “Meydan” jurnallarında çap olunub.

S. Uyğun “Borçalı” və “Qafqaz press” qəzetlərində bölgə müxbiri, sonra şöbə müdiri, sonra isə hər iki qəzetin Gürcüstan üzrə baş redaktorun müavini kimi fəaliyyət göstərib. Onun şeirləri və publisist məqalələri “Borçalı”, “Qafqaz press”, “Zəngəzur”, “Ulu körpü”, “Dünyaya səsimiz”, “Azərbaycan press”, Gəncədə nəşr olunan “Körpü” qəzetlərində və “Xüdafərin-I”, “Xüdafərin-II”, “Göyəzən” toplularında dərc edilib.

2010-cu ildə Heydər Əliyev adına Gürcüstan-Azərbaycan Tədris

Universitetinin “Bizim Universitet” adlı qəzetin redaktoru, sonra isə Gürcüstan Azərbaycanlıları Ziyalılar birliyinin orqanı olan “Ziya” qəzetində məsul katib və Tiflisdə nəşr olunan “Konqres” qəzetində əməkdaş kimi fəaliyyət göstərib.

O, Gürcüstanda nəşr olunan “Sözün işığı”, “Günəş” qəzetləri ilə müntəzəm əməkdaşlıq edir və müxtəlif səpgili aktual məqalələri ilə çıxış edir.

Bədii yaradıcılıq ilə fəaliyyətinə görə S. Uyğun “Qızıl saz”, “Göyəzən”, “Vicdanlı qələm” mükafatlarına layiq görülüb. 1997-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2009-cu ilin yanvar ayından isə Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Səyavuş Uyğun bədii yaradıcılıqla yanaşı, həm də ictimai vəzifə daşıyır. O, Azərbaycan respublikası “Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda”(ƏBƏU) cəmiyyətinin Gürcüstan bürosunun idarə heyyətinin sədridir. Ailəlidir, bir qızı, bir oğlu var.

S. Uyğunun 5 kitabı nəşr olunub. Beşinci kitabı nəşryyata təqdim olunub.

1. “Nəciblik rəmzi”
2. “Borçalının söz xəzinəsi”
3. “Ömrünü maarifə həsr etmiş insan”
4. “Borçalıda günəş doğar”



## OSMAN ƏHMƏDOĞLU

Osman Əhmədoğlu 1948-ci ildə Borçalı mahalının Kürüstü Keşəli kəndində anadan olub. Doğma kəndində 8 illik, qonşu Kəpənəkçi kəndində orta məktəbi bitirib. 1974-cü ildə ADU-nun filologiya fakültəsini bitirərək ali təhsil alıb.

O, hələ orta məktəbdə oxuduğu illərdə şeir yazıb. Tələbəlik illərində mətbuatda publisistik məqalələrlə çıxış edib.

O, Əhmədoğlunun "Borçalıda ocaq yanır" adlı ilk şeirlər kitabı 1989-cu ildə Bakıdakı "Yazıçı" nəşriyyatı tərəfindən nəşr edilib. O, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Bədii yaradıcılıqla bərabər dövrü mətbuatda publisistik məqalələrlə çıxış edən O. Əhmədoğlu vaxtilə Gürcüstanda nəşr olunan "Yeni Yol" qəzetində redaktor müavini vəzifəsində çalışıb. Bir müddət sonra o, "Dədə Qorqud" adlı bir dərgiyə rəhbərlik edib. Osman Əhmədoğlu "Meydan" dərgisinin idarə heyətinin fəal üzvlərindən biridir. O. Əhmədoğlu indiyədək bir neçə şeirlər kitabı və xalqımızın etnoqrafiya və folkloru ilə bağlı iki kitabı işıq üzü görüb. O, hazırda Gürcüstan Aşıqlar Birliyinin sədri kimi aşıq yaradıcılığının inkişafına çalışır, aşıqlarımızın yubileylərini və digər tədbirləri təşkil edir.



## MÜQƏDDƏS NEMƏTOV
## (1948-1997)

Müqəddəs Məhəmməd oğlu Nemətov 1948-ci il sentyabrın 22-də Qarayazının Qardabani şəhərində müəllim ailəsində anadan olub. Orta məktəbi qızıl medalla bitirdikdən sonra təhsilini politexnik institutunda davam etdirərək inşaatçı diplomuna sahib olub. Tələbəlik illərində eyni vaxtda ikillik müxbirllər universitetini bitirib. İxtisasca mühəndis-inşaatçıdır, jurnalistika sahəsində çalışıb, filosof-politoloq kimi fəaliyyət göstərib, bir sıra məqalələr müəllifidir. Uzun müddət Bakı Baş Tikinti idarəsinin evtikmə kombinatında mühəndis-inşaatçı, SSRİ Qara Metalurgiya Nazirliyinin Rustavi şəhərindəki ”Qruzqipromez” institutunda böyük mühəndis-konstruktor işləyib. 1983-cü ildə Rustavi şəhəri mikro şuranın sədri seçilib. Sonralar respublikada nəşr olunan “Sovet Gürcüstanı” qəzetində kənd təsərrüfütı şöbəsinin müdiri təyin olunub. O, qəzetdə çalışmaqla bərabər 1995-ci ilin noyabrın 5-ə qədər Gürcüstan parlamentinin eksperti vəzifəsində də çalışıb. Sonra Kvemo Kartlidə Gürcüstan dövlət başçısının səlahiyyətli nümayəndəsinin insan hüquqları və millətlərarası münasibətlər üzrə baş müşaviri işləyib.

1995-ci ildə Gürcüstan parlamentinə seçkilərdə deputat seçilib. Fəlsəfə elmləri namizədidir. Bir çox publisist məqalələrin, hekayə və oçerklərin, eyni zamanda müştərək yazılan bir kitabın müəllifidir. Gürcüstan Jurnalistlər Federasiyasının laureatı olub.

Müqəddəs Nemətov ictimai işlərdə fəal çalışıb və ölkədə yaşayan azərbaycanlıların hüquqlarının qorunmasına, sosial məsələlərə aid işlər görüb, dövlət quruculuğunun möhkəmləndirilməsinə aid mübarizə aparıb. 1992-ci ildə Gürcüstan Dövlət Şurasının Millətlərarası Komissiyasının üzvü seçilib. 1994-cü ildə Gürcüstan Vətəndaşlar İttifaqının Qardabani rayon təşkilatının sədr müavini seçilib. Gürcüstan Vətəndaşlar İttifaqının orqanı olan “Satatbiro”nun üzvü olub. Gürcüstan azərbaycanlılarının “Ümid” cəmiyyətinin sədri işləyib.

Müqəddəs Nemətov ordu sıralarında xidmət edib. Ehtiyatda olan kapitan olub. 3 qızı və bir oğlu var.

O, 1997-ci ilin sentyabrın 2-də dünyasını dəyişib.



## XƏTAYƏ RÜSTƏMOVA

Xətayə Rüstəmova 1952-ci ildə Gürcüstanın Marneuli rayonunun Qaçağan kəndində anadan olub. 1969-cu ildə orta məktəbi, 1974-cü ildə ADU (Bakı Dövlət Universiteti) jurnalistika fakültəsini bitirib. Həmin ildən "Sovet Gürcüstanı" qəzetində əmək fəaliyyətinə başlayıb, 1991-ci ildə ailə vəziyyətinə görə Bakıya köçüb, müxtəlif qəzet və jurnallarda işləyib, 1995-ci ildən bu günə qədər Azərbaycan Teleradio verilişləri QSC "Xalq yaradıcılığı" redaksiyasında işləyir.

Xətayə Rüstəmova keçmişimizdən bu günə soraq gətirən, xalq ədəbiyyatı və folklorumuz haqqında "Dastandan üzü bəri", "Tərəkəmə" folklor toplusu, "Yeri, yurdu andım", "El havası", "Xeyrə qənşər" verilişlərinin müəllifidir.



# TƏHMƏZ TƏHMƏZOV

Təhməz Qiyas oğlu Təhməzov 1954-cü il avqustun 23-də Marneuli rayonundakı Kürdlər kəndində anadan olub. 1971-ci ildə Baydar orta məktəbini, 1976-cı ildə A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunu bitirib. Əmək fəaliyyətinə doğma kəndində müəllim kimi başlayıb və 1983-1987-ci illərdə Gürcüstan Televiziya və Radio Verilişləri şirkətində kiçik redaktor, 1887-1991-ci illərdə "Sovet Gürcüstanı" qəzetində müxbir, 1991-1999-cu illərdə Kürdlər kənd sovetinin sədri və 2006-cı ilin martından 2013-cü ilin iyun ayına kimi Azərbaycan İctimai Televiziyasının Gürcüstandakı xüsusi müxbiri işləyib. Oçerk və publisistik yazıları Gürcüstandakı dövrü mətbuatda dərc olunub.

Təhməz Təhməzov 2010-cu ildə Gürcüstan prezidenti Mixail Saakaşvilinin sərəncamı ilə "Şərəf" ordeninə layiq görülüb. Ailəlidir, iki oğlu, 4 nəvəsi var.

## ŞURƏDDİN MƏMMƏDLİ



1956-cı il fevralın 28-də Gürcüstanın Bolnisi rayonunun Kolagir kəndində anadan olub. 1973-cü ildə kənd orta məktəbini bitirib, Tbilisi Dövlət Pedaqoji İnstitutuna daxil olub. 1977-ci ildə adı keçən ali məktəbin filologiya fakültəsini bitirərək, Azərbaycan dili və ədəbiyyatı ixtisasına yiyələnib. İnstitutda həmçinin İctimai Peşələr Fakültəsinin jurnalistika şöbəsində oxuyub.

**Jurnalistlik fəaliyyəti**

Əmək fəaliyyətinə 1977-ci ildən Gürcüstan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi olaraq başlayıb. 1984-cü ildə "Sovet Gürcüstanı" (1991-ci ildən "Gürcüstan" adı ilə nəşr olunub) qəzeti redaksiyasında 2006-cı ilədək müxbir, mədəniyyət şöbəsi müdiri vəzifələrində çalışıb. 1993–1997-ci illər arasında Azərbaycan Milli Məclisinin orqanı "Azərbaycan" qəzetinin Gürcüstan üzrə müxbiri olmub. 1982-ci ildən SSRİ Jurnalistlər İttifaqının, 1991-ci ildən Gürcüstan Jurnalistlər Federasiyasının üzvü olub. Ş. Məmmədli 200-dən çox publisistik məqaləsi ilə "Qələbə Bayrağı", "Sovet Gürcüstanı", "Gürcüstan", "Azərbaycan", "Ədəbiyyat və İncəsənət" və başqa qəzetlərdə çıxış edib.

**Elmi-pedaqoji fəaliyyəti**

1988-cü ildə filologiya üzrə elmlər namizədi, 2003-cü ildə elmlər doktoru alimlik dərəcələrini qazanıb. Müxtəlif illərdə Tiflis Dövlət Pedaqoji Universitetində, Tiflis Humanitar Universitetində, Tiflis Dövlət Universiteti Kvemo-Kartli filialında, Tiflis Dövlət Pedaqoji Universiteti Marneuli filialında dosent, professor dərəcələrində mühazirələr oxuyub. 2006–2010-cu illərdə Türkiyənin Qars şəhərindəki Kafkas Universitetində professor vəzifəsini tutub. 2010-cu ildən Türkiyənin Ərdahan Universitetində professordur. 2002-ci ildə Gürcüstan Milli Akademiyasının həqiqi üzvü, akademiki seçilib. 100-ə yaxın elmi məqaləsi Azərbaycan, gürcü, rus, türk dillərində Gürcüstanın, Azərbaycanın, Türkiyənin nüfuzlu elmi jurnallarında yayınlanıb. Bir çox

elmi konfranslarda, simpoziumlarda Borçalı ədəbi mühiti mövzusundakı məruzələri maraqla qarşılanıb.

Türkiyədə nəşr olunan "TuranSAM", "İdil" elmi dərgilərinin hakimi, yayın heyəti üzvüdür.

### Mükafatı

Səmərəli jurnalistlik və elmi-pedaqoji fəaliyyətinə görə 2002-ci ildə Gürcüstanın ali dövlət mükafatı olan "Ğirseba" - "Şərəf" ordeninə layiq görülüb.

### Önəmli kitabları

- 1991, Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi; Azərnəşr, Bakı
- 1995, Paralanmış Borçalı; ikinci nəşr, Bakı
- 1997, Alın yazımız (Gürcüstan azərbaycanlılarının tarixi, mədəniyyəti); Samşoblo nəşriyyatı, Tbilisi
- 1997, Borçalıda sular axar; şeirlər, Ziya nəşriyyatı, Tbilisi
- 1997, Gürcüstanın xalq artisti İbrahim İsfahanlı; Ziya nəşriyyatı, Tbilisi
- 1998, "ხანის ვეზირი" ქართულ სცენაზე = "Xanın vəziri" gürcü səhnəsində; Gürcü dilində, Tbilisi
- 1998, Səhnə ülfətimizdən: 19-cu yüzil Azərbaycan–Gürcü teatr əlaqələri; Tbilisi
- 2000, Borçalı ədəbi mühiti: qaynaqları, təşəkkülü, inkişafı; monoqrafiya, Elm nəşriyyatı, Bakı
- 2001, საქართველოს აზერბაიჯანელთა ლიტერატურული ტრადიციები = Gürcüstan azərbaycanlılarının ədəbi ənənələri; Gürcü dilində, Azri nəşriyyatı, Tbilisi
- 2002, Ədəbi Borçalı: Bədii ədəbiyyatda Borçalı mövzusu; Borçalı nəşriyyatı, Bakı
- 2003, Azərbaycan ədəbiyyatının Borçalı qolu; monoqrafiya, Kolori nəşriyyatı, Tbilisi
- 2004, Borçalı–Ahıska–Kars ortaq ədəbi arealı; Kolori nəşriyyatı, Tbilisi
- 2004, Kəlamına min şükür; Kolori nəşriyyatı, Tbilisi
- 2005, Borçalı aşıqları; (M. Kamaloğlu, O. Dərviş, Ş. Məmmədli), Nurlan nəşriyyatı, Bakı
- 2006, Gürcüstan azərbaycanlıları (statistik-ensiklopedik soraq-bilgi kitabı); Kolori nəşriyyatı, Tbilisi



## ŞAHVƏLƏD EYVAZOV

Şahvələd Əli oğlu Eyvazov 1956-cı il iyunun 26-da Tiflis şəhərində anadan olub. Onun valideynləri əslən Zalqa rayonunun Ərcivan-Sarvan kəndindəndir.

Uşaqlıqdan əlinə düşən fotoaparat onun həyat yolunu birdəfəlik müəyyənləşdirmişdi. Məhəllə uşaqlarını, gəzdiyi, gördüyü yerləri lentə köçürməkdən doymazdı. Şahvələd hələ orta məktəbdə oxuyarkən müəllimləri ona məsləhət gördülər ki, Boris Dzeneladze adına Respublika Pioner və məktəblilər dərnəyinə yazılsın. Beləliklə, Tiflisdəki 52 nömrəli orta məktəb şagirdi Şahvələd Eyvazovun çəkdiyi fotolar tez-tez "Norçi Lenineli," "Tbilisi," "Molodyoj Qruzii," "Axalqazrda kommunisti və s. qəzetlərdə dərc olunmağa başladı. Tezliklə bütün Gürcüstan mətbuatı onun fotolarını dərc etməyə başadı. 1982-ci ildə Pitsunda şəhərində keçirilən Gənc SSRİ jurnalistlərinin tədbirindən sonra Şahvələd "Sakinform" ("Gürcinform") rəhbərliyindən işə dəvət alır. Yeni işdə SİTA-nın xətti ilə yayımlanan şəkillərin içində onun reportajları özünəməxsusluğu ilə fərqlənərək, xarici ölkələrdən, o cümlədən Yaponiyadan, ABŞ-dan, Almaniyadan, Fransadan və başqa ölkələrdən beynəlxalq foto sərgilərdə iştirak üçün dəvət alır."

Sonra Ş. Eyvazov "Assoşieyted press" və "Reuters" agentliklərinin nümayəndələri Tiflisdə fəaliyyət göstərən fotojurnalistlərdən əməkdaşlıq üçün fotojurnalist seçərkən, ilk növbədə Şahvələd Evazovun adı çəkilir. Şahvələd Eyvazov 1992-ci ildən "Assoşieyted press" Qafqaz üzrə fotomüxbiri kimi işə balayır.

Şahvələd Eyvazovun yaradıcılıq dəsti-xətti, maraqlı fotoları sənətsevərlərin diqqətini çoxdan cəlb edib. Onlarca fotosərginin iştirakçısı kimi o, beynəlxalq aləmdə çoxdan tanınıb. Avropanın bir çox ölkələrində, habelə, Yaponiyada açılan fərdi sərgiləri Şahvələd Eyvazovun sənətinin mahir ustası olduğunu sübut edir. Onlarca sərginin diplomçusu və laureatı olan Şahvələd Eyvazov bu gün də doğulub boya-başa çatdığı Tbilisi şəhərində yaşayıb –yaradır. O, 23 ildir ki, ABŞ-ın

"Assoşieyted Press" informasiya agentliyinin Tbilisidə yerləşən Qafqaz bürosunun fotomüxbiridir. Dostlarının və ərki çatanların "Şah", "Şaxo" dedikləri və heç cür qocalığı yaxına buraxmayan bu gözəl insanın sədası tez-tez Qafqazın milli münaqişə zonalarından gəlir. Şahvəl追din Osetiya, Abxaziya, Qarabağ münaqişəsindən çəkdiyi kadrlar dünyanın müxtəlif qəzet-jurnallarında dərc olunub, mütəxəssislərin və tamaşaçıların diqqətini cəlb edib. Belə çətin tapşırıqları yerinə yetirərkən, o, dəfələrlə ölümlə üz-üzə gəlib. Nəticədə çəkdiyi zəhmət rəhbərlik tərəfindən layiqincə qiymətləndirilib. O, sözün həqiqi mənasında, peşəsinin professionalıdır. İşindən başqa Şahvələd mənsub olduğu xalqın – Gürcüstanda yaşayan azərbaycanlıların adət-ənənəsini, onun maddi mədəniyyət abiələrinin, ulularını obyektin yaddaşına köçürməkdən yorulmur. Tez-tez qədim Tbilisinin dolanbac yolları, Şeytanbazar, Meydan, Avcala, Saburtala,eləcə də Borçalının kənd adamlarının, üz cizgiləri Şahvələdin obyektinə tuş gəlir.

Ş. Eyvazov Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilən "Uzun sürən müharibənin əks sədası" foto sərgidə də iştirak edib.

Qeyd edək ki, Ş. Eyvazov Gürcüstanda baş verən hadisələri gürcü həmkarlarından yaxşı işıqlandırıb. O, hər zaman olduğu kimi, bu gün də onun fotoaparatı çinindədir və yeni-yeni axtarışlarını fotonun gözü ilə oxuculara, tamaşaçılara çatdırır.

## MAHMUD KAMALOĞLU



Mahmud Kamaloğlu Hacıxəlilov 1954-cü il aprelin-5-də Marneuli rayonunun Keşəli kəndində anadan olub. Səkkizillik məktəbi doğma kəndində, orta məktəbi qonşu Kəpənəkçi kəndində bitirib. 1971-1975-ci illərdə A. S. Puşkin adına TDPİ-nin filologiya fakültəsini bitirdikdən sonra "Sovet Gürcüstanı" qəzetində ştatdankənar müxbir kimi əmək fəaliyyətinə başlayıb. Həmin illərdə parallel olaraq, Keşəli orta məktəbində müəllim işləyib.

1984-cü ildən daim olaraq, "Sovet Gürcüstanı" qəzetinə keçib, əvvəlcə korrektor, daha sonra idman, gənclərlə kütləvi iş bölməsinin rəhbəri vəzifəsində 1990-cı ilədək çalışıb.

M. Kamaloğlu 1990-1991-ci ildə Tiflis Bazar İqtisadiyyatı və Hüquq Universitetində dekan, 1992-ci ildə Kvemo-Kartli Müstəqil Universitetində tədris və elmi işlər üzrə prorektor, 1998-ci ildən 2007-ci ilədək İ. Cavaxişvili adına Tiflis Dövlət Universitetinin Marneuli filialında yenə də həmin vəzifədə çalışıb. 2008-ci ildən Ukrayna-Gürcüstan Beynəlxalq Universitetində tədris işləri üzrə prorektordur.

1989-cu ildə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 2005-ci ildə İ. Cavaxişvili adına TDU-nun professor seçilib.

M.Kamaloğlu hələ tələbəlik illərindən "Sovet Gürcüstanı", "Axali Marneuli" qəzetlərində publisistik məqalələrlə çıxış edib. Müxbir kimi fəaliyyətə başlayandan sonra onun "Azərbaycan" və "Kirpi" jurnallarında məqalə və felyetonlatı çap olunub.

M.Kamaloğlu indiyədək 10 kitabın müəllifidir. O, bir çox xarici ölkələrdə təşkil olunan elmi konfranslar və simpoziumlarda elmi məruzələrlə çıxış edib.



## QƏHRƏMAN MUSAYEV

Qəhrəman İsfəndiyar oğlu Musayev 1954-ci il may ayının 28-də Tiflis şəhərində müəllim ailəsində anadan olub.

1961-1971 illərdə Tiflis şəhərindəki M.F Axundov adina 73 nömrəli orta məktəbdə təhsil alıb.

1971-1972-ci illərdə Tiflis şəhərindəki 65 nömrəli texniki-ixtisas məktəbində təhsil alaraq, bu məktəbi fərglənmə diplomu ilə bitirib.

1972-1976-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyyaziyyat bölməsinin fizika fakültəsini bitirib və müəllim ixtisasına yiyələnib.

1976-1982-ci illərdə Qardabani rayonunun Poniçala orta məktəbində müəllim işləyib.

1982-2005-ci illərdə Tiflis şəhərindəki İsani-Samgori Rayon Daxili İşlər Şöbəsinin müvəkkili vəzifəsində çalışıb.

1984-1989-cu illərdə Moskva Ali Milis məktəbinin Tiflis filialının hüquq fakültəsində təhsil alıb və o, hüquqşunas ixtisasına yiyələnib.

1991-1993-cu illərdə Gürcüstan Ərazi Bütovlüyü uğrunda döyüşlərdə Cxinvali regionunda və Abxaziyada gedən döyüşlərdə iştirak edib. Ona polis mayoru rutbəsi verilib. Bir neçə medallarla təltif olunub. Q. Musayev muharibə və hərbi qüvvələr veteranıdır.

2006-2008-ci illərdə ATƏT-in təmin etdiyi layihə əsasında və "İnternews Fondunun dəstəyi ilə "Marneuli –TV" də ictimayi televiziyanın informasiya xəbərlər programı olan "Moambe" verlişində sinxron tərcüməçi-jurnalist vəzifəsində çalışıb.

2009-cu ildə "Marneuli-TV"- kanalının jurnalist-tərcüməçi vəzifəsində işləyib.

2010-cu ildən isə ABŞ səfirliyi tərəfindən maliyyələşdirilən layihə əsasında Kvemo Kartli bölqəsində fəaliyyət qöstərən yerli tele-radio şirkətində jurnalist vəzifəsində işləyib.

Qəhrəman Musayev müntəzəm olaraq regionun Azərbaycandilli

mətbuat organlarında kənd təsərrüfatı, təhsil, mədəniyyət, məktəb və integrasiya məsələləri üzrə yazılarla çıxış edib. Gürcü, rus, türk, erməni dillərini bilir.

Ailəlidir, üç övladı var.

## ELMAN KƏLƏYEV



Elman Hüseyn oğlu Kələyev 1949-ci il oktyabrın 20-də Marneuli şəhərində qulluqçu ailəsində anadan olub. 1957-ci ildə Marneuli şəhərindəki 2 nömrəli Azərbaycan orta məktəbinin birinci sinfinə gedib və 1967-ci ildə həmin məktəbi bitirib. Orta məktəbi bitirdikdən sonra Bakı şəhərindəki Azərbaycan Politexnik İnstitutunun avtomobil yollarının istismarı fakültəsinə daxil olub və üçüncü kursadan sonra təhsilini dayandıraraq Gürcüstana qayıdıb. O, 1970-ci ildə Tiflisdəki A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutunun pedaqoqika fakültəsinə daxil olub, 1974-cü ildə həmin fakültəni bitirib. E. Kələyev institutdan sonra Tiflisdə nəşr olunan “Sovet Gürcüstanı” qəzetində ştatdankənar müxbir vəzifəsində çalışıb. 1974-cü ilin noyabr ayında ali təhsilli mütəxəssis kimi Odessa şəhərində hərbi xidmətdə olub. Hərbi xidmətdən tərxis edildikdən sonra yenidən qəzetdə fəaliyyətini davam etdirib və 1979-cu ilin mayın 15-də “Sovet Gürcüstanı” qəzetinin ştatdankənar şöbəsinin müdiri vəzifəsinə təyin edilib. 1980-ci il sentyabrın 1-dən 1982-ci il iyunun 31-dək Bakı Ali Partiya Məktəbində təhsil alıb. Həmin il yenidən qəzetdə müxbir vəzifəsində çalışıb. 1984-cü il mayın 4-də baş müxbir, 1989-cu il fevralın 4-də isə redaksiyanın kənd təsərrüfatı şöbəsinin müdiri və redaksiya heyətinin üzvü təyin edilib. 1991-ci il oktyabrın 10-dan indiyədək “Gürcüstan” qəzetinin məsul katibi vəzifəsində çalışır.

Elman Kələyev redaksiyada çalışmaqla bərabər, Azərbaycan dilində çıxan bir neçə ədəbi-bədii və lüğət kitablarının redaktoru olub və “Gürcüstan Konstitusiyası”, seçki haqqında məcəllələri və müxtəlif nəşrləri redaktə edib. O, Gürcüstanda nəşr olunan “Əhli-Beyt” jurnalının baş redaktoru olub və 2005-ci ildən APA-nın (Azəri-Press Agentliyinin) Gürcüstan bürosunun əməkdaşı vəzifəsində çalışıb. Jurnalistika sahəsində çalışarkən Elman Kələyevin Gürcüstanın və Azərbaycanın qəzet və jurnallarınada, Moskvada nəşr edilən “Panorama Azerbaycana” qəzetində müxtəlif səpgili yazılarla müntəzəm çıxış edib. 1978-ci ildə 1990-cı

ilədək Sovet hökuməti dağılanadək SSRİ Jurnalistlər İttifaqının üzvü olub. Gürcüstan müstəqillik əldə etdikdən sonra Gürcüstan Jurnalistlər Birliyinin üzüdür və birliyin yeddinci qurultayının nümayəndəsi seçilib.

Elman Kələyev mətbuat sahəsində səmərəli fəaliyyət göstərdiyinə görə, Gürcüstan prezidentinin 1997-ci il 16 oktyabr tarixli fərmanı ilə "Şərəf" medalına və digər mükafatlara layiq görülüb.

2015-ci il mayın 12-də Gürcüstanda nəşr olunan azərbaycandilli "Gürcüstan" qəzetinin redaktor müavini kimi  Elman Hüseyn oğlu Kələyev Gürcüstan jurnalistikasında uzunmüddətli uğurlu fəaliyyət göstərdiyinə görə "Əməkdar Jurnalist" adına layiq görülüb.



## RƏŞİD FAXRALI

Rəşid Faxralı (Hüseynov) 1954-cü ildə Bolnisi rayonunun Faxralı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitunun riyaziyyat fakültəsini bitirib. Ali məktəbdən sonra Faxralı kəndində ixtisası üzrə müəllim işləyib, eyni zamnda rayon qəzeti olan "Qələbə Bayrağı" qəzeti ilə yaxından əməkdaşlıq edib. Bədii yaradıcılıq və publisistika sahəsində qələmini sınayan Rəşid Faxralı sonradan qəzet işinə bağlanıb. Rayon qəzetində daimi işə keçəndən dərhal sonra ikinci ali təhsilini Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində alıb.

R. Hüseynov rayon qəzetində işlədiyi müddətdə ən kiçik vəzifədən tutmuş, redaktor müavini vəzifəsinədək yüksəlib. O, ötən əsrin sonlarında məlum Borçalı hadisələri ilə bağlı qəzetin bir neçə fəal əməkdaşı kimi Bakıya köçüb və bu şəhərdə nəşr olunan müxtəlif mətbuat orqanlarında çalışıb.

R. Hüseynov bədii yaradıcılqda "Rəşid Faxralı" imzası ilə oxuculara yaxşı tanışdır.

AYB-nin üzvü olan Rəşid Faxralı 17 kitabın müəllifidir.



## LƏTİF KAMİL

Lətif Kamil oğlu Ənnağıyev 1956-cı ildə Marneuli rayonunun Molloğlu kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində təhsil alıb.

Gənclik illərindən şeir yaradıcılığı ilə diqqəti çəkən Lətif Ənnağıyev daha sonra təhsilini davam etdirmək üçün Moskvaya gedərək, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun poeziya şöbəsini bitirib. 1985-1989-cu ilə qədər "Sovet Gürcüstanı" qəzetində xüsusi müxbir kimi fəaliyyət göstərib. 1989-cu ildən Azərbaycan Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində çalışıb.

L. Mustafaoğlu yaradıcılığına ötən əsrin 70-ci illərindən başlayıb. Şeirləri ən çox "Lətif Kamil", "Lətif Dəyirmançı" imzaları ilə çap olunub. Onun şeirləri bir xırman taxıldan götürülmüş bir ovuc buğdanı xatırladır. Xüsusən doğulub boya-başa çatdığı Marneuli rayonundakı Molloğlu kəndinə həsr etdiyi "Kənd duyumları"nda bu hiss daha qabarıq nəzərə çarpır.

L. Kamil hazırda Türkiyə Cümhuriyyətində yaşayır.



**İMİR MƏMMƏDLİ**

Imir Məmməd oğlu Məmmədli 1957-ci ildə Tiflisin şimal tərəfində yerləşən Kaspi bölgəsinin Yuxarı Xəndək (Zemo Xandaki) kəndində anadan olub. Orta məktəbi doğulduğu kənddə bitirib. Sonra Tiflis Dövlət Universitetinin filologiya fakültəsini bitirərək ali təhsil alıb. Onun şeirə olan həvəsini görən Zelimxan adlı gürcü dili müəllimi onu yaradıcılığa həvəsləndirib və məhz onun tanışlarının vasitəsi ilə İmir Məmmədlinin şeirləri gürcü mətbuatında dərc edilib. Universiteti bitirən İ. Məmmədli "Sovet Gürcüstanı" qəzeti ilə əlaqə yaradıb, ilk dəfə olaraq Azərbaycan dilində yazdığı ilk şeirlərini bu qəzetin səhifələrində dərc etdirib. Sonra o, Gürcüstan Dövlət Televiziya və Radio Komitəsinə müxbir olaraq işə götürülüb. Hələ gəncliyindən gürcü ədəbiyyatında şeirləri ilə görünən İmir tez bir zamanda gürcü ədibi Cansuq Çarkvianinin diqqətini cəlb edib. Televiziyada müxbir kimi işləyə-işləyə o, yaradıcılığını da inkişaf etdirib. Jurnalist kimi o, ən çox Gürcüstan televiziyasında xalqımızın folklorunu, xüsusən Borçalı aşıqları barədə tez-tez sənədli filmlər çəkərək, canlı reportajlar hazırlayıb. Az sonra onun həm gürcü, həm də Azərbaycan dilində publisistik yazıları və şeirləri ilə bir yerdə kitabı çap olunur. O, gürcü ədəbiyyatından nümunələri Azərbaycan dilinə, eləcə də Azərbaycan yazıçı və şairlərin əsərlərini gürcü dilinə tərcümələr edir. Onun fəaliyyəti tezliklə ziyalıların və ölkə rəhbərliyinin diqqətini cəlb edir. İmir Məmmədli prezident aparatında ölkə başçısının referenti vəzifəsinə təyin olunur.

Bir müddət Gürcüstanda işləyəndən sonra İ. Məmmədli Bakı şəhərinə köçür, jurnalistlik və bədii yaradıcılığını bu şəhərdə davam etdirir. Az sonra o, İctimai Televiziyada çalışmağa başlayır. Onun ssenarisi əsasında Bakıda qısametrajlı filmlər çəkilib. 2012-ci ildə İ. Məmmədlinin həyat və fəaliyyəti ilə bağlı Gürcüstanın "İmedi" televiziya kanalı "İmedinin qəhrəmanları" seriyasından film çəkilib. Hazırda o, İctimai Televiziyada jurnalistlik fəaliyyətini davam etdirir.

## BAHƏDDIN ORUCLU



Bahəddin Əli oğlu Oruclu 1950-ci ildə Borçalının Qızılhacılı kəndində anadan olub. 1957-ci ildə N. Nərimanov adına Qızılhacılı kənd orta məktəbində birinci sinifə gedib, 1968-ci ildə həmin məktəbi bitirib. Bir il istehsalatda çaılşdıqdan sonra V.İ. Lenin adına Azərbaycan Pedaqoji İnstitutun (indiki N. Tusi adına Azərbaycan Pedaqoji Universiteti) coğrafiya fakültəsinə qəbul olub və bu təhsil ocağını bitirdikdən sonra təyinatını Kürdəmir rayonunun Sovla kəndindəki məktəbə alıb. Pedaqoji sahədə işləyən B. Oruclu Kürdəmirdə çıxan "İrəli" qəzetinin fəal müxbiri olub. Onun tələbəlik illərində "Azərbaycan pioneri", "Azərbaycan müəllimi" qəzetlərində, sonralar "Sovet Gürcüstanı", "Yeni Marneuli", qəzetlərində maraqlı hekayələri dərc olunub. O, bir müddət Marneuli şəhərindəki 70 saylı texniki peşə məktəbində tərbiyəçi-müəllim, tərbiyə işləri üzrə direktor müavini, azad həmkarlar təşkilatının sədri vəzifələrində işləyib. O, məktəbdən ayrıldıqdan sonra "Yeni Marneuli" qəzetində xüsusi müxbir kimi fəaliyyət göstərib. B. Oruclu 2000-2008-ci illərdə "Borçalı Mollası" adlı qəzet nəşr edib. 2012-ci ildə "ZİYA" qəzetində xüsusi müxbir vəzifəsində çalışıb.

B. Oruclu "Dan Ulduzu" ədəbi birliyinin xətti ilə "Dağlar dərdə düşsə", "Borçalı dünyası" kitablarını nəşr etdirib.



## BİNNƏT ƏLİOĞLU

Binnət Əli oğlu Məmmədov 1956-cı il martın 16-da Marneuli rayonunun Böyük Muğanlı kəndində anadan olub. 1982-ci ildə o vaxtkı S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsini bitirib. 1984-cü ildən 1991-ci ilədək "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzetində tərcüməçi vəzifəsində çalışıb və 1991-ci ildən həmin qəzetin böyük müxbiridir. 2008-ci ilin martından Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təsisçiliyi ilə nəşr olunan "Regionpress" qəzetinə rəhbərlik edir. Gürcüstanda gənc jurnalistlərin yetişməsində onun əməyi böyükdür. Publisistik məqalələri ilə dövrü mətbuatda müntəzəm çıxış edir.

1991-ci ildən Gürcüstan Jurnalistlər Federasiyasının üzvüdür. 1997-ci ildə ölkə prezidentinin "Təşəkkürnamə"sinə layiq görülüb. "Salam, dünyanın dərdi" adlı şeirlər və publisistik məqalələr kitabının müəllifidir. O, həmçinin onlarla ədəbi-bədii, elmi və tədqiqat toplularının tərtibçisi, ön sözünün müəllifi və redaktorudur.

B. Məmmədov eyni zamanda müxtəlif ali məktəblərdə Azərbaycan dilini tədris edib.

1993-1998-ci illərdə Kvemo Kartli Müstəqil Universitetində, 1998-2007-ci illərdə İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetinin Kvemo Kartli filialında dekan müavini vəzifəsində çalışıb.

Ailəlidir, üç övlad atasıdır.



## ƏLİXAN YƏHYAOĞLU

Əlixan Yəhyaoğlu (Məmmədov) 1951-ci il martın 10-da Gürcüstanın Bolnisi rayonunun Muşevan (Dəllər) kəndində anadan olub.

1958-ci ildə Muşevan ibtidai məktəbinin 1-ci sinfinə qəbul olunub.1959-cu ildən 1968-ci ilədək Marneuli internat orta məktəbində oxuyub.

1968- ci ildə Muşevan 8-illik məktəbində bədən tərbiyəsi müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb.

1969-cu ildə V.İ.Lenin adına ADPİ-nin (indiki N.Tusi adına ADPU) qiyabi şöbəsinin filologiya fakültəsinə qəbul olunub və 1977-ci ildə həmin universiteti bitirib.

1970-ci ildən 1972-ci ilədək hərbi xidmətdə olub.

1979-cu ildən 1984-cü ilədək Muşevan orta məktəbində "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri" üzrə direktor müavini işləyib.

1984-cü ildən 1999-cu ilədək Muşevan orta məktəbində direktor vəzifəsində işləyib.

2003-cü ildən 2005-ci ilədək Bolnisi rayon maarif şöbəsində "Baş metodist" vəzifəsində işləyib.

2003-cü ildən 2008-ci ilədək "Gürcüstan" qəzetinin Bolnisi rayonu üzrə və 2006-cı ildən 2007-ci ilədək "Region plus" jurnalının (Azərbaycan Respublikası) Gürcüstan üzrə müxbiri işləyib.

2008-ci ildən "Regionpress" qəzetinin müxbiri işləyib.

1998-ci ildə "Ayrılığın dağ çəkibdi sinəmə" və 1999-cu ildə nəşr edilən "Sinəm söz körüyüdü" şeirlər kitablarının müəllifidir. Bir neçə şeiri gürcü dilinə tərcümə edilib.

2001-ci ildə Gürcüstan prezidentinin fərmanı ilə "ŞƏRƏF" ordeni ilə təltif edilib.

Hazırda Bolnisidə nəşr olunan "Ümid" qəzetinin baş redaktorudur.

Ailəlidir. Bir oğlu, dörd qızı və doqquz nəvəsi var.



## ƏBDÜLƏLİ İBRAHİMSOY

Əbdüləli İbrahimsoy 1956-cı ildə Qarayazı bölgəsinin Birlik kəndində anadan olub. 1980-ci ildə A.S. Puşkin adına TDPİ-nin filologiya fakültəsini bitirib. 1980-ci ildən 1995-ci ilədək Qardabani rayon qəzeti olan "Samqori" qəzetində korrektor, tərcüməçi, müxbir, şöbə müdiri vəzfələrində çalışıb. 1996-cı ildə "Qardabani" adlanan qəzetdə məsul redaktor, baş redaktorun birinci müavini, 1997-1998- ci illərdə "Çənlibel" ədəbi-bədii qəzetin, 1999-cu ildə "Dirçəliş" ictimai-siyasi qəzetin baş redaktoru, 2000-ci ildə "Region" qəzetinin şef redaktoru işləyib. Hazırda "Çənlibel" ədəbi toplusunun baş redaktorudur.



# EYVAZ ƏLLƏZOĞLU
## (1956-2011)

Eyvaz Əlləzoğlu 1956-cı ildə Gürcüstan Respublikasının Qardabani (tarixi adı Qarayazı) rayonunun Muğanlı kəndində anadan olub, Tbilisi Pedaqoji İnistitutunun filoloji fakültəsini bitirib. 1980-ci ildən dövrü mətbuatda hekayələri və publisisstik yazıları ilə çıxış edib.

Ali təhsilini başa vurduqdan sonra Kosalı kənd orta məktəbində gürcü dili müəllimi, "Samqori" qəzetində korrektor kimi fəaliyyət göstərib, "Gürcüstan", "Borçalının səsi", "Ekspress" və "Xəzər" mətbu orqanlarında əməkdaşlıq edib.

Publisistik fəaliyyəti dönəmində "Olaylar", "Borçalının səsi", "Ekspress" və digər qəzetlərlə Gürcüstanın siyasi həyatı ilə bağlı analtik yazılar yazıb.

1993-1996-cı illər ərzində Prezident Aparatının Milli Siyasət şöbəsində məsləhətçi, 1996-1998-ci illərdə Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyində ikinci katib kimi fəaliyyət göstərib. Onun ssenarisi əsasında "Ov" cizgi filmi ekranlaşdırılıb. Gürcü dilindən Qoderzi Çoxelinin, Revaz İnanişvilinin, Naira Gelaşvilinin və digər müasir gürcü yazıçılarının əsərlərini dilimizə tərcümə edib.

"Əli və Nino" kitab mağazasının təşkil etdiyi Milli Kitab Mükafatında xüsusi mükafatla təltif olunub.

**Kitabları**

- "Ölü yay", (hekayələr)1992;
- "Yatan dinozavrlar",(hekayələr) 1993;
- "Odunçu geri qayıdır" (roman) 2010;

## DURSUN EYVAZOV



Dursun Əli oğlu Eyvazov 1951-ci ildə Tiflis şəhərində anadan olub. 1969-cu ildə 64 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə qəbul olunaraq bu təhsil ocağını müvəffəqiyyətlə başa vurub. Sonra o, A. S. Puşkin adına Tiflis Pedaqoji İnstitutunun Azərbaycan və gürcü dili filologiyası fakültəsinə daxil olub. Tələbəlik illərində həmin təhsil ocağının nəzdində fəaliyyət göstərən ictimai jurnalistika şöbəsində jurnalistlikanın sirlərinə yiyələnib və "Sovetskiy Pedaqoq" qəzetinin səhifələrində məqalələri ilə fəal iştirak edib. Dursun Eyvazovu mətbuata bağlılığı, sevgisi onu Gürcüstan Mərkəzi Komitəsinin nəşriyyatına gətirib çıxarır. O, 1980-1983-cü illərdə bu nəşriyyatda çalışır və Gürcüstanda çap olunan müxtəlif dilli dərgilərdə çap olunur. Bir müddət "Sovet Gürcüstanı" və "Veçernıy Tbilisi" qəzetləri ilə əməkdaşlıq edir. Nəhayət, gürcü və Azərbaycan dillərinin bilicisi kimi 1983-cü ildə Gürcüstan Nazirlər Soveti yanında Mətbuatda, Radio və Televiziyada dövlət və hərbi sirlərin mühafizəçisi idarəsinə işə dəvət olunur. Altı aylıq sınaq imtahanlarından sonra o, idarənin ilk nəzarət şöbəsinə baş redaktor vəzifəsinə təyin olunur. O, 2000-ci ilədək bu vəzifədə çalışır. Dursun Eyvazov hazırda Tiflisdə nəşr olunan Azərbaycandilli "Gürcüstan" qəzetinin əməkdaşı vəzifəsində çalışır. Gürcüstan Jurnalistlər Birliyinin üzvüdür. O, gürcü və Azərbaycan cəmiyyətində dostluğumuzun möhkəmləndirilməsinə çalışır və tez-tez el-oba şənliklərində, toy məclislərində fəal iştirak edir.

## HƏMZƏLİ İLYASOV



Həmzəli Bəylər oğlu İlyasov 1952-ci ildə Qaraçöpün (Saqareco) Düzəyrəm kəndində anadan olub. 1970-ci ildə döğma kəndində orta məktəbi, 1975-ci ildə Bakıda N. K. Krupskaya (indiki Əhməd Cavad) adına mədəni-maarif texnikumunu, 1983-cü ildə isə M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. H. İlyasov bir müddət orta məktəbdə pedaqoji fəaliyyətlə məşğul olub, sonra kənd təsərrüfatı sahəsində rəhbər vəzifələrdə çalışıb. O, uzun müddət "Sovet Gürcüstanı" qəzetində əməkdaşlıq edib. Digər dövri mətbuatlarda məqalə və publisistik yazıları ilə çıxış etməklə yanaşı, bir çox hekayə və miniatürlərini dərc etdirib. O, eyni zamanda tanınmış gürcü yazıçılarının əsərlərini dilimizə tərcümə edib. Onun tərcümələri "Sovet Gürcüstanı", Bakıda "Kommunist", "Sabah", "Yol" qəzetlərində, "Çeşmə", "Xəzər" və "Dan Ulduzu" almanaxlarda nəşr olunub. Həmzəli 1989-cu ildən Bakıda ədəbi fəaliyyətini davam etdirib. Hal-hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin orqanı olan "Hərbi bilik" jurnalının redaktoru vəzifəsində işləyir.

## NİZAMİ MƏMMƏDZADƏ



Nizami Zilli oğlu Məmmədzadə 1957-ci il may ayının 10-da Gürcüstanın Marneuli rayonunun Yuxarı Saral kəndində anadan olub. Orta məktəbi 1973-cü ildə Qərbi Azərbaycanın Ləmbəli kəndində bitirib. İlk şeir yaradıcılığına məktəb illərində başlayıb. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 26 Bakı Komissarları adına mətbəədə çalışıb, "Bakı" axşam qəzetində texniki redaktor işləyib. Jurnalistika fakültəsini bitirən zaman diplom rəhbəri Azərbaycanın məşhur jurnalist, pedaqoq və ictimai xadim, "Bakı" və "Baku" axşam qəzetlərinin baş redaktoru Nəsir İmanquliyev olub və sonra o, Nizami Məmmədzadəni "Bakı"axşam qəzetində işləməyə dəvət edib.

1984-cü ildə atası qəflətən vəfat etdiyindən ailə vəziyyəti ilə əlaqədar Borçalıya qayıdıb. Həmin ildən Marneuli Rayon Partiya Komitəsinin təbliğat-təşviqat şöbəsində təlimatçı vəsifəsində işləyib. Marneuli Rayon Partiya Komitəsinin ilk partiya təşkilatının sədri seçilib. Tiflisdə Marksizm-Leninizm Universitetini bitirib. Partiya sahəsində çalışmaqla bərabər, jurnalistika ilə də məşğul olub, müxtəlif publisistik məqalələr, şeirlər, hekayələr yazaraq müntəzəm olaraq dövrü mətbuatda dərc etdirib.

1989- cu ildə Şulaveri kənd Sovetliyində sədr müavini vəsifəsində işləyib. Dəfələrlə rayon və kənd Sovetinin deputatı seçilib. 2008-ci ilə kimi Şulaveri kənd bələdiyyəsinin sədr müavini vəzifəsində çalışıb. Bununla bərabər 2001-ci ildə Gürcüstan Azərbaycanlılarının Ziyalılar Birliyinin orqanı olan "ZİYA" qəzetinin baş redaktoru olub və bütün şətinliklərə baxmayaraq qəzeti çap etdirib.

Nizami Məmmədzadə eyni zamanda İlya Çavçavadze adına Tiflis Pedaqoji Universitetinin Marneuli filialında üç il dərs deyib.

Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Azərbaycan Jurnalistlər Birliyi Nizami Məmmədzadəni uzun müddət mətbuat sahəsində səmərəli fəaliyyətinə görə, Həsən Bəy Zərdabi

adına makafata layiq görüb. Mükafatın diplomunu şəxsən Azərbaycan Jurnalistlər Birliyi sədri, mərhum yazıçı və publisist Hacı Hacıyev təqdim edib. N. Məmmədzadə bir sıra mükafatlara da layiq görülüb. Bakıda nəşr olunan "Borçalı" və "Qafqaz Press" qəzetlərinin Gürcüstan üzrə redaktor müavini və Kvemo Kartli bölgə inzibati idarəsinin nəşri olan "Region" qəzetinin Marneuli bölgəsi üzrə redaktoru vəzifəsində çalışıb.

Onun rəhbərlik etdiyi "ZİYA" qəzeti 2012-ci ildə Gürcüstan Azərbaycanlıları Konqresi tərəfindən "İlin ən yaxşı qəzeti" nominasiyasına layiq görülüb. Nizami Məmmədzadə 2012-ci ildə Gürcüstan Azərbaycanlı Tələbələr Assosiasiyasının təsis etdiyi "İlin ən fəal jurnalisti" nominasiyasına sahib olub. Gürcüstan prezidenti 2012-ci ildə onun "Şərəf ordeni" ilə təltif edilməsi ilə bağlı sərəncam imzalayıb, lakin məlum dövlət dəyişikliyi ərəfəsində N. Məmmədzadə bu ordenə sahib ola bilməyib.

O, hazırda "Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyi" təşkilatının sədri, "Günəş" Assosiasiyasının sədri və "Günəş" qəzetinin baş redaktorudur.

Nizami Məmmədzadə 2008-ci ildən APA-nın (Azəri-Press Agentliyinin) Gürcüstan bürosunun rəhbəri kimi Gürcüstanın ictimai-siyasi həyatına yaxşı bələddir və müntəzəm olaraq aktual xəbərləri 5 dildə uğurla fəaliyyət göstərən APA.az saytı vasitəsi ilə Azərbaycan və dünya oxucularına çatdırır.

Nizami Məmmədzadənin indiyədək 8 kitabı işıq üzü görüb. Gürcüstanda və Azərbaycanda nəşr olunan müxtəlif almanaxlarda, saytlarda şeirləri və hekayələri dərc olunub və bir çox kitabların redaktoru olub. O, həmçinin Borçalıda aşıq yaradıcılığını, şifahi xalq ədəbiyyatını toplayıb. 2008-ci ildə N. Məmmədzadə görkəmli Borçalı aşığı, ustad sənətkarımız Aşıq Əmrah Gülməmmədova həsr olunan "Saz Əmrahı axtarır..." adlı kitab nəşr etdirib.

**Nizami Məmmədzadənin çap olunmuş kitabları:**

1. "Bu yurd mənim Borçalımdır" Şeirlər kitabı. Bakı-2002-ci il.
2. "Yurd həsrəti" Hekayələr. Bakı-2004-cü il.
3. "ATA". Poema. Tbilisi-2007-ci il.
4. "Dünyanın o üzü və yaxud Borçalıdan Müqəddəs Məşhədədək

xoş təəssüratlar...” Publisistika. Tbilisi-2008-ci il.

5. “Saz Əmrahı axtarır” Məşhur Borçalı aşığı Aşıq Əmrah Gülməmmədovun yaradıcılığı və şeirləri, eyni zamanda xatirələr toplusu. Tbilisi-2008-ci il.

6. “Borçalı harayı” Sənədli povest, publisistika, hekayələr, şeirlər. 2013-cü il. Tbilisi-2013-cü il.

7. “Отэц”- Rus dilində (Poema). 2014-cü il. Tərcümə edəni şair Qiya Paçxataşvili.

8. “Çələbilər” poeması. Tiflis-2015-ci il.

Nizami Məmmədzadənin “Yollara qovuşan iz...” və toplayıb hazırladığı “Borçalı bayatıları” kitabları çapa hazırdır.

## ŞAHİSMAYIL ŞƏMMƏDOĞLU



Şahismayıl Şəmməd oğlu Məmmədov 1960-cı ildə Qarayazının Kosalar kəndində anadan olub. Hələ kiçik yaşlarından Qarayazı meşələrinin füsunkarlığına vurulan gənc Şahismayıl Anadil quşlarının oxuduğu bu yamyaşıl ormanlıqda ürəyinə, qəlbinə gözəl arzuların hopduğunu duymuşdu. Atası Şəmməd kişi başa düşürdü ki, bu sözlü-söhbətli gəncin gözlərinin işartısı onun cəld, insanlarla xoş ünsiyyətinin olması Şahismayılın xoş gələcəyindən xəbər verirdi.

Şahismayıl orta məktəbi əla qiymətlərlə bitirdi. Tale onu SSRİ-nin 50 illiyi adına Azərbaycan Dövlət Universitetinin Xarici Dillər İnstitutunun fransız dili fakültəsinə gətirib çıxardı. Gənc yaşlarından bilirdi ki, nə qədər xarici dil bilərsənsə, o qədər güclüsən. Və buna görə də Şahismayıl öz gücünü təhsildə sınamaq istədi və universiteti bitirən kimi 1985-ci ildə ADU-nun jurnalistika fakültəsinin qiyabi şöbəsinə qəbul oldu. Həmin illər döğma Kosalı kəndində fransız dili və ədəbiyyatından dərs dedi. Şagirdlərinə fransız dilini sevdirdi.

1987-1991-ci illərdə Ş. Məmmədov Gürcüstanda yeganə Azərbaycandilli mətbuat orqanı olan "Sovet Gürcüstanı" qəzetində müxbir işləyib. 1989-cu ildə gürcü və Azərbaycan xalqının arasını vurmaq istəyən qara qüvvələrə qarşı mətbuat səhifələrində dərc olunan məqalələri, xəbər və oçerkləri hər iki millətin dostluğuna xidmət edib.

Şahismayıl Məmmədov 1992-ci ildən başlayaraq "AZƏRİNFORM"da, sonra isə "AZƏRTAC"-ın Gürcüstan üzrə xüsusi müxbiri kimi fəaliyyət göstərməyə başlayıb. Ş. Məmmədov indiyədək Azərbaycan Dövlət Televiziyasının Gürcüstan üzrə xüsusi müxbiri vəzifəsində işləyir. Onun "Heydər Əliyev və Gürcüstan" adlı kitabı 2008-ci ildə gürcü və Azərbaycan dillərində nəşr olunub. O, sonra "Dənizdən-dənizə", "Dostluğun etalonu", "Dostluq yolu", "İrsiyyət Fondu", "Sabitliyin təminatı", "Bu gündən-gələcəyə" filmlərin müəllifi olub.

Gürcüstanda Azərbaycan prezidenti İlham Əliyevin anadan olmasının

50 illiyinə həsr olunan “İlham Əliyev və Gürcüstan” adlı filmin ssenari və ideya müəllifi Şahismayıl Şəmmədoğlu olub. “İlham Əliyev və Gürcüstan” filmi Rustavi-2 və “Pirveli Arxi” (İctimai televiziya) telekanallarında göstərilib. Həmin film eyni zamanda azərbaycanlıların kompakt yaşadığı Marneuli ərazisində yayımlanan “Marneuli TV”də nümayiş olunub. Şahismayıl Şəmmədoğlu istedadlı bir televiziya müxbiri kimi Azərbaycan-Gürcüstan arasında həyata keçirilən ən böyük tarixi layihələrin fəaliyyəti haqqında filmlər çəkir, xəbərlər yayır, bununla öz qələmi və obyektivin gözü ilə tarixin sinəsinə şanlı səhifələr yazır.

Şahismayıl Şəmmədoğlu Gürcüstan prezidentinin fərmanı ilə “Şərəf” ordeninə layiq görülüb. Azərbaycan Dövlət Televiziyasının Gürcüstan üzrə xüsusi müxbiri kimi Şahismayıl Məmmədov Azərbaycan və gürcü dostluğunu televiziyada daha layiqli işıqlandırdığına görə, “İlin televiziya jurnalisti” nominasiyasına sahib olub.

## MİRZƏ MƏMMƏDOĞLU



Mirzə Məmməd oğlu Maşov 1957-ci ildə Tiflisdə anadan olub. 1974-cü ildə Marneuli rayonundakı Alget bir nömrəli orta məktəbi bitirib. Bir neçə il Bakı və Tiflis şəhərlərində müxtəlif yerlərdə çalışmış, istehsalatdan ayrılmamaqla 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. 1976-cı ildə «Sovet Gürcüstanı», indiki «Gürcüstan» qəzetində ştatdankənar müxbirlik etmiş, ordu sıralarında olmuş, nəhayət 1987-ci ildən Gürcüstan televiziya və padio şirkətində işə başlamışdır. Uzun müddət Gürcüstan radiosununu Azərbaycan dilində verilişlər redaksiyasının redaktoru olmuşdur. Verilişlər bağlanandan sonra, 2007-ci ildə Tbilisidəki Mirzə Fətəli Axundov adına Azərbaycan mədəniyyəti muzeyüində elmi işçi kimi işə başlamışdır. İşlədiyi müddət ərzində müxtəlif sahələrə aid bir sıra elmi məqələlər yazmışdır. Bir müddət burada işləyəndən sonra Azərbaycan dilində nəşr olunan çoxsəhifəli «Varlıq» qəzetində əməkdaşlıq etmişdir. 2008-ci ildən indiyədək Gürcüstan teleradio şirkətində milli verilişlər redaksiyasında «Moambe»nin Azərbaycan dilində verilişlərinin redaktoru vəzifəsində çalışır.

Mirzə Maşov Gürcüstanı ictimai –siyasi həyatında həmişə fəal iştirak etmişdir. azərbaycanlıların Gürcüstanda ilk dəfə olaraq yaranmış «Dayaq2 cəmiyyətinin yaradıcılıarından və rəhbərlərindən biri olub.

Mirzə Maşov 1992-ci ildə Gürcüstan Dövlət Şurasına üzv seçilmiş və şuranının üzvü olduğu vaxtlarda Bolnisi rayonunda bir dəfəyə 28 kəndin adının dəyişdirilməsinə öz kəskin çıxışı ilə narazılığını bildirmiş, Gürcüstan vətəndaşınının yeni pasportu barədə və digər aktual məsələlər barədə öz təklif və rəylərini söyləmişdir.

1993-cü ildə isə Gürcüstan Dövlət Konstitusiya Komissiyasının tərkibinə daxil edilmiş və Gürcüstanın yeni əsas qanununun-

Konstitusiyasının işlənib hazırlanmasınlda iştirak edib.

Mirzə Maşov Gürcüstan Jurnalistlər Federasiyasının, Azərbaycan Yazıçılar Birliyinin, eləcə də Beynəlxalq Jurnalistlər Federasiyasının üzvüdür.

Türkiyə Televiziya və Radio Qurumu rəhbərliyinin dəvəti ilə bir müddət Ankarada təcrübə keçib, Borçalı aşıqlarından Əmrah Gülməmmədov, Kamandar Əfəndiyev, Xındı Məmməd, Hüseyn Saraclı, Əhməd və Məhəmməd Sadaxlılar və Nurəddin Qasımlının Gürcüstan radiosunda olan lent yazılarını Ankara radiosununun qızıl fonduna təhvil verib. Həmin vaxtdan onların ifa etdikləri aşıq havaları "Türkiyənin səsi" radiosunda müntəzəm olaraq səslənir.

M.Maşov bədii yaradıcılıqla müntəzəm məşğul olur. Gürcüstan, eləcə də Azərbaycan mətbuatında müxtəlf səpkili yazıları ilə çıxış edir. Onun 2009-cu ildə Bakıda nəşr olunan "Qədim Tiflis" adlı ilk kitabı müəllifə böyük şöhrət gətirib. Onun 2011-ci ildə Tiflisdə nəşr olunan "İki simin titrəməsi" adlı kitabı gürcü və Azərbaycan dillərində qarşılıqlı atalar sözü və məsəllər, idiomatik ifadələr və ortaq vahidlər» adlı kitabı tərcüməçilər üçün faydalı, tələbələr, məktəblilər, gürcü dili müəllimləri, jurnalistlər, gürcü dili və Azəbaycan dilini öyrənmək istəyənlər üçün müəyyən mənada maraqlıdır.

Azərbaycan xalqının böyük oğlu, mütəfəkkir və filosof Mirzə Fətəli Axundovun adına bağlı xeyli səmərəli işlər görmüşdür. Bakıda bu yaxınlarda anadan olmasınını 200 illiyi ilə əlaqədar M. F. Axundov barədə gürcü mətbuatında gürcü yazıçı və alimlərinin yazdıqları məqalələr toplusundan və Konstanitin Pağavanın «Mirzə Fətəli Axundov» monoqrayfiyasından ibarət sanballı kitab nəşr olunmuşdur. Eləcə də Tiflisdə Mirzə Fətəli Axundov barədə kitab, onun həyat və yaradıcılığına həsr olunmuş gürcü və Azərbaycan dillərində «Tiflisdə keçən ömür» adlı kitabı çap olunub. Görkəmli gürcü yazıçısı Revaz İnanişvilinin müxtəlif illərdə yazdığı hekayələrdən ibarət "Tənhalıq nəğməsi" kitabını Azərbacyan dilinə tərcümə edərək nəşr etdirib.



# İBRAHİMXƏLİL

İbrahimxəlil Məhəmmədəli oğlu Tamıyev 1957-ci il mayın 10-da anadan olub. Ali təhsilini Bakıda almış, ixtisasca filoloq olan İbrahimxəlil uzun illər müəllimlik edib. Hazırda Marneulidə nəşr olunan "Regionpress" qəzetinin əməkdaşıdır.

1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Bolnisi rayonunun Kazreti qəsəbəsində yaşayır.

İbrahimxəlil "80-cilər" ədəbi nəslinin istedadlı nümayəndələrindəndir. Müxtəlif illərdə "Adiloğlu", "Qanun" və "Universal" (Tbilisi) nəşriyyatlarında işıq üzü görən "Cəllad günü", "Yar", "Ucqar havası", "Durna diasporu" poeziya kitablarının müəllifidir. Yazıları "Gənclik", "Ulduz", "Azərbaycan", "Xəzər", "Şans" jurnallarında, "Gürcüstan", "Yeni Azərbaycan", "525-ci qəzet", "Kaspi", "Ədalət", "Ekspress", "Sənət" qəzetlərində, "mediaforum.az" saytında və s. dərc olunmuşdur. İbrahimxəlilin vaqiflərə ünvanlanan zərif poetik duyğuları, özünəməxsus mövzuları, dağ havası qədər, dəniz havası qədər yaxın olan şair havası-ucqar havası həmişə ruhları və diqqətləri çəkməkdədir.

Dörd övladı var.



## GÜLYAZ ƏLIYEVA
## (1957-2011)

Gülyaz Əliyeva 1957- ci ilin gözəl bir payız günü Kaspi rayonunun Ağayanı kəndində dünyaya göz açıb. Ədəbiyyata, sənətə və ədəbi yaradıcılığa bağlılıq onu A. S. Puşkin adına Tiflis Dövlət Pedaqoji İnstitutuna gətirib çıxardı. O, 1976-cı ildə bu institutu qırmızı diplomla başa vurub və həmin təhsil ocağında Azərbaycan ədəbiyyatından dərs deyib. O, eyni zamanda Azərbaycan Elmlər Akademiyasının Nizami adına Azərbaycan Ədəbiyyatı İnstitutunun aspirantı olub. 2000-ci ildə o, Gürcüstan radiosunun birinci kanalının xarici ölkələr üzrə yayım departamentinin Azərbaycandilli redaksiyasında aparıcı redaktor vəzifəsində çalışıb.

Gülyaz Əliyeva 2003-2004-cü illərdə Gürcüstan İctimai Televiziyasında Azərbaycandilli regional informasiya proqramının redaktoru vəzifəsində də işləyib. 2005-2009-cu illərdə Türkiyənin Dövlət radiosunun "Türkiyənin səsi" proqramında gürcü dilində gedən verilişlərin Gürcüstan üzrə xüsusi müxbiri vəzifəsində işləyib. O, eyni zamanda Tiflis Siyasi Akademiyasında mühazirələr oxuyub. G. Əliyeva daha sonra 2008-ci ilə kimi Gürcüstan İctimai Televiziyasının "Moambe" ("Xəbərlər") informasiya proqramının Azərbaycan dili üzrə verilən xəbərlər proqramının redaktoru olub. 2008-ci ildən sonra təsis olunan "Gürcüstan Azərbaycanlıları Konqresi" təşkilatının nəzdində nəşr olunan "Gürcüstan Azərbaycanlıları" qəzetinin, 2010-cu ildə yenə həmin təşkilatın keçirilən ikinci qurultayından sonra qəzetin adı dəyişdirildikdən sonra "Konqres" adı ilə nəşr olunan mətbu orqanın baş redaktoru seçilib. Gülyaz Əliyeva həm də 2010-cu ildə elmi-texnoloji yeniliklərdən yazan "Junyor- Azərbaycan" jurnalının müxbiri olub. Azərbaycan, gürcü, rus və türk dillərini bilirdi.

2011-ci ilin noyabrın 8-də Tiflisdə vəfat edib.



## ƏZİZ DƏLİVƏLOV

Əziz Dəlivəlli (Dəlivəlov) 1958-ci ildə Tiflisdə ziyalı ailəsində anadan olub. 1976-cı ildə 63 saylı rus orta məktəbini bitirib. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (rus sektoru) təhsil alaraq iqtisadçı-mühasib ixtisasına yiyələnib. Sonralar o zamankı MLU-nun jurnalistika fakültəsini (gürcü sektoru) bitirib. Orta və ali təhsilini rusca alsa da əmək fəaliyyətinə Tiflisdə nəşr olunan, o dövrlər Azərbaycandilli yeganə mərkəzi mətbuat orqanı olan «Sovet Gürcüstanı» (sonralar «Gürcüstan») qəzetində başlayıb. Burada müxtəlif vəzifələrdə işləyə-işləyə püxtələşərək Azərbaycan dilində də çeşidli səpkidə yazılarla qəzet səhifəsində müntəzəm çıxış edib. Bədii yaradıcılıqla da səmərəli məşğul olan Əziz Dəlivəllinin 2008-ci ildə Tiflisdə mənzum dram, şeir, hekayə və digər səpgili yazılarının öz əksini tapdığı «Sözlərim qanad açası...» adlı kitabı işıq üzü görüb. Əziz Dəlivəlli Tiflisdə nəşr olunan «Sözün işığı» ictimai, mədəni qəzetin baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, politologiya doktoru, Gürcüstan Milli Yazıçılar Akademiyasının üzvüdür.



## ABAY PAŞAYEV

Abay Şəmkir oğlu Paşayev 1958-ci il avqustun 8-də Qardabani rayonunun Soğanlıq (indiki Poniçala) kəndində anadan olub. O, 1965-ci ildə kənd orta məktibin birinci sinfinə daxil olub və 1975-ci ildə orta məktəbi başa vurub. A. S. Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı, gürcü dili və ədəbiyyatı fakültəsinə daxil olaraq 1980-ci ildə bu ali məktəbi müvəffəqiyyətlə bitirib. Gürcü dilini azərbaycanlı şagirdlərə öyrətmək üçün Marneuli rayonunun Təzəkənd və Hacıisə kənd məktəblərinə müəllim təyin olunub. Sonra Soğanlıq orta məktəbinə dəvət alıb və məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işləyib. 1981-1991-ci ilə qədər bu vəzifədə çalışan Abay Paşayev ailə vəziyyəti ilə əlaqədar olaraq məktəbdən ayrılıb. A. Paşayev daha sonra Qardabani rayonunun Qaratəhlə və Ağtəhlə ictimai məktəblərində gürcü dili müəllimi işəyib. 2002-ci ildən Gürcüstan Təhsil və Elm Nazirliyinin Kvemo Kartli bölgəsinin məktəblər idarəsinin rəis müavini vəzifəsinə təyin olunub. O, 2003-cü ilin sonuna qədər bu vəzifədə Azərbaycan dilli məktəblərin koordinatoru olub. Kvemo Kartli bölgəsi üzrə məktəblər idarəsi ləğv edildikdən sonra Abay Paşayev Rustavi şəhər Təhsil Ehtiyat Mərkəzində metodist vəzifəsində çalışıb.

O, 2006-cı ilin dekabr ayından "Yeniləşmiş məktəb" qəzetini, 2008-ci ilin oktyabr ayından isə "Təhsil" qəzetini nəşr etdirir. Hal-hazırda 2000 nəfər abunəçi müəllimi olan "Təhsil" qəzeti səhifələrində müəllimlərin uğurla fəaliyyət göstərməsi üçün zəruri olan metodiki və praktiki istiqamətlər təqdim edilir. Qəzetin səhifələrində həmçinin ölkədaxili qanunlar, hüquqi və normativ sənədlər, Gürcüstan Elm və Təhsil Nazirliyinin rəsmi sənədləri tərcümə edilərək müəllimlərə çatdırılır.

Abay Paşayev həm də "Gürcüstan azərbaycanlılarının vətəndaş inkişaf mərkəzi" adlı QHT-nin sədridir.

**NADİR ALMAZOĞLU**



Nadir Almaz oğlu Məmmədov 1966-ci il oktyabr ayının 29 da Rustavi şəhərində anadan olub. 1984-cü ildə Qardabani rayonunun Nəzərli kənd orta məktəbini əla qiymətlərlə bitirib. 1984-1986-cı illərdə sovet ordu sıralarında hərbi xidmətdə olub.1987-1990-cı illərdə Kemerov vilayətindəki Dövlət Yeyinti - Sənaye Texnikumunun Texnologiya fakültəsini bitirərək texnoloq ixtisasına yiyələnib. 1990-1995-ci illərdə Tiflis Dövlət Texniki Universitetinin jurnalistika fakültəsini bitirib. Ali məktəbi bitirdikdən sonra Qardabanidə nəşr olunan "Samqori" rayon qəzetində ştatdankənar müxbir vəzifəsində çalışıb. Sonra "Samqori" qəzetinin korrektoru vəzifəsində çalışıb. 1995-ci ildə ictimai-bədii qəzet olan "Çənlibel" qəzetində, 1995-1996-ci illərdə isə "Region" qəzetində məsul katib vəzifələrində işləyib. 1999-2004-cü illərdə "Gürcüstan" qəzetində Qardabani rayonu üzrə bölgə müxbiri vəzifəsində çalışıb. 2004-2009-cu illərdə Azərbaycanın Müstəqil Televizya və Radio yayım şirkəti olan "ANS" televiziyasının Gürcüstan üzrə xüsüsi müxbiri olub, 2009-cu ildən indiyədək "Azad Azərbaycan" ("ATV") televiziyasının Gürcüstan üzrə xüsüsi müxbiri vəzifəsində işləyir.

Nadir Almazoğlu 2008-ci ilin avqust ayındakı 5 günlük Rusiya-Gürcüstan müharibəsində Kaspi, Qori, Xaşuri və Cənubi Osetiyanın bəzi müharibə gedən kəndlərində, müharbənin canlı işdirakçısı olub. N. Almazoğlunun imzası ilə tez-tez Gürcüstanda nəşr olunan Azərbaycandilli mətbu orqanlarda müxtəlif mövzularda məqalələri dərc olunur.

Ailəlidir, 4 övladı var.



**RAMİLƏ ƏLİYEVA**

Ramilə Ramiz qızı Əliyeva 1984-cü il fevral ayının 15-də Qardabani şəhərində anadan olub. 1990-2001-ci illərdə Gürcüstanın Qardabani şəhəri 3 saylı Azərbaycan dilli məktəbdə təhsil alıb. 2001-2006-cı illərdə Tiflisdəki İlia Cavcavadze Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı, gürcü dili fakültəsində bakalavr, sonradan maqistr kursunda ali təhsil alıb. 2008-ci ildə Tbilisi Siyasi Akademiyasının Beynəlxalq münasibətlər və politologiya fakültəsinə qəbul olunub.

Hazırda «Dialoq və İnkişaf Fondunun» rəhbəridir.

2012-ci ildə ANS telekanalının Gürcüstan bürosunun rəhbəri vəzifəsində çalışıb.

2010–2011-ci illərdə İnsan Hüquqları Müdafiəsinin İctimai Birliyi TOLERANCE-də layihələr koordintoru və hüquq müdafiəçisi kimi çalışıb.

2004-2009-cu illərdə Gürcüstanın İctimai Televiziyasında Azərbaycandilli «Xəbərlər» proqramında müxbir, 2007-2008 illərdə adı çəkilən televiziyada «İtalyan həyəti» ictimi-siyasi tok-şousunda blok müəllifi, jurnalist kimi işləyib.

2008-2009-cu ildə Gürcüstanın Daxili İşlər Nazirliyinin Polis Akademiyasında insan hüquqlarına dair mühaziəçi dəvət olunmuş və "İnsan hüquqları və polis" kursu üzrə dərs deyib.

2006-2007-ci illərdə Kvemo-Kartlinin ilk müstəqil qəzeti olan, iki dildə – gürcü və Azərbaycan dillərində dərc edilən «Taymer» qəzetində baş redactor vəzifəsində çalışıb. 2006-cı ilin may-avqust aylarında gürcü dilli «İnformator» qəzetinin redaktoru olub.

2003-2005-ci illərdə IWPR-ın (Institute for War and Peace Reporting) Kvemo Kartlı üzrə müxbiri kimi müxtəlif səpkili araşdırma tipli məqalələr hazırlayıb.

2001-2002-ci illərdə «Mercy Corps» şirkətinin Tiflisdəki ofisində

referent kimi çalışıb. 2004-cü ildən bu günə kimi Gürcüstanın Xalq Müdafiəçisi Aparatında mövcüd olan milli azlıqlar şurasının üzvüdür.

R. Əliyeva Gürcüstan Parlamentində dəvət olunmuş mütəxəssis kimi də çalışıb. O, insan hüqüqları üzrə bir sıra kursları bitirib və insan hüquqlarına dair hazırda trener kimi fəaliyyət göstərir. IWPR, BBC, CNN, MDI, jurnalistika kursları və treninqlər keçib. «Heydər Əliyev Fondu və Gürcüstan» filminin yaradıcı heyətinin üzvüdür. “Aşıq Əmrah” sənədli filminin müəllifi və rejissorudur. «Unudulmuş Miras» filminin rejissorudur. Hazırda Gürcüstanın İctimai Televiziyasında «Xəbərlər» proqramının diktoru vəzifəsində çalışır.



## ZÜMRÜD QURBANOV

Zümrüd Qurbanov 1963-cü ildə Marneuli rayonunun Qızılhacılı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib.

Zümrüd Qurbanlı bir müddət doğma elində müxtəlif vəzifələrdə çalışıb. 2000-2004-cü illərdə Gürcüstan parlamentinin üzvü olub. Nəsr əsərləri və elmi-ədəbi yazıları ilə dövrü mətbuatda müntəzəm olaraq dərc olunur. O, hekayə və povestlərini əsasən, "Zümrüd Orxan" imzası ilə çap etdirib. Zümrüd Qurbanov bölgədə fəaliyyət göstərən ilk və ən güclü xalq hərəkatı təşkilatlarından biri olan "Qeyrət"in yaradıcılarından biridir.

Zümrüd Orxan (Qurbanlı) həm də "Qeyrət" qəzetinin baş redaktorudur. Onun tərtibçi və redaktoru olduğu bir neçə toplu nəşr olunub.



**TAPDIQ YOLÇU**

Tapdıq Məmməd oğlu Yolçiyev (Tapdıq Yolçu) 1959-cu il dekabrın 10-da Ağstafa rayonunun Muğanlı kəndində anadan olub. Orta məktəbdə oxuyarkən ilk şeirləri "Samqori" Qardabani rayon qəzetində çap olunub. 1977-ci ildə Qardabani rayonundakı indiki Vaxtangisi kənd orta məktəbini, 1987-ci ildə isə ADU-nun (BDU) jurnalistika fakültəsini bitirib. On ildən artıq "Samqori" Qardabani rayon qəzetində çalışıb. Şeirləri "Dan ulduzu", Ədəbi Gürcüstan", "Borçalı söz boxçası" almanaxlarında, "Azərbaycan", "Ulduz", "Elm və həyat" və "Qarapapaqlar" jurnallarında, "Azərbaycan gəncləri. "Sovet Gürcüstanı" qəzetlərində çap olunub. Azərbaycan televiziya və radiosunda şeirləri səsləndirilib. 2007-ci ildə "Taleyə sual" adlı şeirlər kitabı çapdan çıxıb. Bir neçə şeirini gürcü tərcüməçisi Zezva Medulaşvili gürcü dilinə çevirib və gürcü ədəbi qəzetlərində dərc edilib. "Azadlıq radiosu" və "Mediaform" portallarında silsilə şeirləri verilib.

2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Şeirləri Azərbaycan və Gürcüstanda çıxan qəzet və jurnallarda dərc edilir. Qəzetlərdə müntəzəm olaraq məqalələri və köşə yazıları ilə çıxış edir. "Varlıq" qəzetində çalışır.

Evlidir, dörd övladı var.

## RAFİQ HÜMMƏT



Rafiq Hümmət (Hümmətov Rafiq Hümmət oğlu) - şair, publisist, tərcüməçi 1965-ci il fevralın 13-də Borçalıda - Gürcüstanın Bolnisi rayonunun Darvaz kəndində anadan olub. 1982-ci ildə doğma kəndində orta məktəbi, 1991-ci ildə S.S.Orbeliani adına Tiflis Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. Həmin ildən etibarən bir müddət "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") və Rustavi şəhərində nəşr olunan "Region" qəzetlərində çalışıb. 1998-ci ildən bir neçə il Bakıda yaşayıb və burada bir çox mətbu orqanlarla, o cümlədən "Şərq", "Faktor", "Yeni Azərbaycan" qəzetləri ilə əməkdaşlıq edib, "Milliyət" qəzetinin baş redaktoru olub. 2000-ci ildə Azərbaycanda gənc yazarlar üçün təsis olunmuş Prezident təqaüdünə layiq görülüb. 2004-cü ildə Gürcüstana qayıdıb və Azərbaycan Yazıçılar Birliyi Gürcüstan bölməsinin sədri seçilib, dilimizdə "Ədəbi Gürcüstan" adlı qəzet nəşr etdirib.

2009-cu ilin yazından Tiflisdəki "Varlıq" Mədəniyyət Mərkəzinin sədri, "Varlıq" həftəlik qəzetinin baş redaktorudur.

Rafiq Hümmət ədəbi-bədii yaradıcılıqla gənc vaxtlarından – ötən əsrin 80-ci illərindən məşğul olur. Bir neçə kitabın, o cümlədən "Salam, dünyanın yiyəsi..." adlı şeirlər kitabının müəllifidir. Onun toplayıb nəşrə hazırladığı və 2007-ci ildə Tbilisidə nəşr etdirdiyi 548 səhifəlik "Ədəbi Gürcüstan" almanaxı ədəbi dairələrdə böyük maraqla qarşılanıb. Yüzədək kitaba redaktorluq edən R.Hümmətin rəhbərliyi ilə "Koroğlu" eposu, "Min bir Azərbaycan bayatısı" və "Hekayələr və nağıllar" toplusu gürcü və Azərbaycan dillərində hər biri ayrıca kitab halında nəşr olunub.

Bədii tərcümə ilə də məşğul olan Rafiq Hümmət çağdaş gürcü və rus poeziyasından bir çox nümunələri dilimizə çevirərək nəşr etdirib. Ailəlidir və iki övlad atasıdır.



## AKİF XANSULTANLI

Xansultanlı Akif Bəkir oğlu 1974-cü ildə anadan olub. 1991-ci ildə Sadaxlı 1 saylı orta məktəbi bitirib.

1992-1997-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" fakültəsində ali təhsil alıb.

1997-2000-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının Beynəlxalq Münasibətlər İnstitutunun əyani aspiranturasında təhsilini davam etdirib.

1999-cu ildən 2003-cü ilə kimi Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin Muzey İşi üzrə Respublika Elmi-Metodiki Mərkəzinin baş redaktoru vəzifəsində çalışıb.

2003-cü ildən 2007-ci ilə qədər AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətini davam etdirib.

2007-ci ildən etibarən, Tiflisdə nəşr olunan "Qarapapaqlar" aylıq elmi-kütləvi dərgisinin təsisçisi və baş redaktorudur. Azərbaycan Respublikası Mətbuat Şurası və Dialoq Avrasiya Platformu tərəfindən "Qarapapaqlar" dərgisinin 2012-ci ildə 5 yaşı Bakıda qeyd edilib. Dövlət Mətbuat Şurası və Azərbaycan Jurnalistlər Birliyi Azərbaycanın xaricdə çıxan ilk elmi jurnalın yaradıcısı kimi baş redaktora Diplom və Sertifikatlar verib.

Kütləvi İnformasiya Vasitələrinin Həmkarlar İttifaqının Rəyasət heyətinin qərarı ilə 2013-cü ilin mart ayında Akif Xansultanlı "Qızıl Qələm" mükafatına layiq görülüb.

İlk dəfə Gürcüstandakı anadilli mətbuatımızın elektron versiyası və internet saytının qurulması da "Qarapapaqlar" jurnalının adi ilə tarixiləşib.

Dərginin elmi status adını alması üçün lazım olan 13 rəqəmli beynəlxalq sertifikat kodun (9771987676007) və İSSN ştrixin (19876769), həmçinin elmiliyini təsdiq edən ədəbiyyat, tarix, etnoqrafiya və kulturologiya ixtisasları üzrə UDC/Q10 kodlarının (821.512.162+39(=512.162)+ 94(479.24)+008(=512.162)+1) alınması birbaşa gənc redaktor Akif Xansultanlının adı ilə bağlıdır.

A.Xansultanlı hazırda AMEA-nın dissertantı kimi Gürcüstanda

Borçalı Qarapapaq Türklərinin maddi mədəniyyət nümunələrinin tədqiqi ilə bağlı araşdırmalarını yekunlaşdırıb. Onun Türkiyədə, Qazaxıstanda, Azərbaycanda və Gürcüstanda bir sıra elmi jurnallarda məqalələri dərc olunub. Borçalı türkləri ilə bağlı Türkiyədə Atatürk Universitetində, Ərdahan Universitetində (hal-hazırda Ərdahan universitetinin doktorantıdır) və Türküstanda Əhməd Yasəvi adına Uluslararası Universitetdə düzənlənən elmi konfranslarda çıxış edib. Hazırda Tiflisdə Açıq Tədris Universitetində mühazirələr oxuyur.

O, Tiflisdə fəaliyyət göstərən "İNTEGRASİYA" Elmi-Mədəni Araşdırmalar Mərkəzinin təsisçisi və İdarə heyətinin sədridir.

Akif Xansultanlı ədəbi fəaliyyətlə də məşğuldur. Borçalının etnoqrafik toponimiyasına dair "Borçalı dastanı" adlı kitabı 2006-cı ildə geniş oxucu kütləsinə təqdim olunub. Türkiyədə elmi tədqiqatlarla məşğul olan Hamza Kolukısa üçün bu kitab əsasında doktorluq dissertasiyası təsdiq edilib. (O, bir zamanlar Batumidə Şota Rustaveli Universitetində müəllim olub.)

A. Xansultanlı Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Ailəlidir, üç övlad atasıdır.

## EHTİRAM ƏMİRXANLI



Ehtiram Əmirxanlı 6 avqust 1973-cü ildə Marneuli rayonunun Xancığazlı kəndində ziyalı ailəsində dünyaya gəlib.1988-ci ildə Xancığazlı kənd 9 illik məktəbini,1990-cı ildə Baydar kənd 11 illik məktəbini, Gəncə şəhərində Azərbaycan Texnologiya Universitetinin "Riyaziyyat-kimya" təmayüllü hazırlıq məktəbini, 1999-cu ildə Kvemo Kartli Universitetinin " Gürcü-Azərbaycan filologiyası"fakültəsini, 2006-cı ildə Kutaisi şəhərində Z.Jvaniya adına Dövlət İdarəetmə məktəbini müvəffəqiyyətlə bitirib. 1997-2006-cı illərdə Xancığazlı 9 illik məktəbində müəllim,1998-1999-cu illərdə Kvemo-Kartli quberniyasının (Rustavi) "Region" qəzetində məsul katib, 2006-2008-ci illərdə Azərbaycanın SMTV, daha sonra Türkel TV kanalının Gürcüstanda xüsusi müxbiri işləyib. Gürcü dilində bir sənədli filmin ssenari müəlliflərindən biri və televiziyada 200- dən artıq xəbər buraxılışının müəllifidir. 2007-ci ildə "Mədəniyyətlərarası dialoqun praktikası" layihəsinin Marneuli rayonunda koordinatoru vəzifəsində, daha sonra 2009-cu ildə Batumi şəhər meriyasında calışıb. 2005-ci ildən Elmi Araşdırmalar Assosiasiyasının prezidentidir. İndiyədək Gürcüstan, Azərbaycan, Türkiyə mətbuatında 400-dən artıq elmi araşdırmaları, publisistik, tənqidi məqalələri cap olunub.

2008-ciildən Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təsis etdiyi " Meydan" jurnalında baş redaktor müavini vəzifəsində çalışır.

**EMMA BAYRAMOVA**



Emma Vaqif qızı Bayramova 1982-ci ildə Tbilisi şəhərinfə anadan olub. 2003-cü ildə Gürcüstan Texniki Universitetinin İqdisadi İnformatika fakültəsini bitirib. 2004-cü ildən 2010-cu ilə qədər Gürcüstanın İctimai Televiziyasında müxbir işləyib və eyni zamanda Televiziyanın Azərbaycandilli radio verlişinin aparıcısı olub. 2009-cu ildə ANS televiziyasının Gürcüstan bürosunun müxbiri olub. 2010-2011-ci ildə Gürcüstanın "Maestro" televiziyasında dünya xəbərləri şöbəsində jurnalist işləyib. 2011-ci ildən 2012-ci ilə qədər Tribuna.ge informasiya portalında (internet-qəzet) jurnalist işləyib. 2013-2014- cü illərdə ingilis dilli "The Georgian Times" qəzetinin baş redaktoru olub. Hal-hazırda "Business Time Georgia" və digər ingilis dilli media (qəzet, jurnallar) ilə əməkdaşlıq edir. Rus, gürcü, ingilis və türk dillərini bilir.

## AFİQ MUXTAROGLU



Afiq Muxtaroglu (Əliyev) 1963-cü ildə Qrayazının Nəzərli kəndində doğulub. 1970-ci ildə Nəzərli ibtidai məktəbində oxumağa başlayıb. Bu məktəbdə üç il oxuduqdan sonra Kosalı məktəbinə keçib və 1980-ci ildə həmin məktəbdən məzun olub. 1981-1986-cı illərdə ADU-nun (indiki BDU) tarix fakültəsində ali təhsil alıb. Universiteti bitirdikdən sonra fasilələrlə müxtəlif yerlərdə pedaqoji fəaliyyətlə məşğul olub. Hazırda Kosalı ictimai məktəbində tarix fənnini tədris edir. Orta məktəb illərindən müxtəlif mətbuat orqanlarında çeşidli yazıları çap olunub. Publisistik fəaliyyəti əsasən Tiflisdə nəşr olunan "Varlıq" qəzeti ilə bağlıdır. "Qarayazı" qəzetinin redaktorudur. Əsasən, milli-mənəvi dəyərlərimizdən bəhs edən etnoqrafik-mifoloji araşdırmalar aparır. Şeirləri vaxtaşırı qəzet və jurnallarda, müxtəlif saytlarda yayımlanır. Ailəlidir. Dörd uşaq atasıdır.

## CAMBUL MƏMMƏDLİ



Cambul Əli oğlu Məmmədli 1966-cı il dekabrın 9-da Msxeta rayonunun Sixisdziri (Qalaaltı) kəndində doğulub. Msxeta şəhər gürcü orta məktəbini və S.S.Orbeliani adına Tiflis Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı, gürcü dili və ədəbiyyatı ixtisası üzrə bitirib. Publisistik yazıları və gürcü ədəbiyyatından etdiyi tərcümələrlə üzdədir. C. Məmmədli 2009-cu ildən «Varlıq» qəzetində çalışır.



## HACI RİZVAN İSMAYILOV

Hacı Rizvan İsmayılov 1969-cu ildə Bolnisinin Zol-Güvəc kəndində dünyaya göz açıb. Orta təhsilini həmin rayonda yerləşən Kazreti qəsəbəsindəki rus məktəbində alıb.

Hacı Rizvan İsmayılov 1986-1990-cı illərdə Ə.Əzimzadə adına rəssamlıq məktəbinin bədii tərtibat fakültəsində təhsil alaraq tərtibatçı rəssam ixtisasına yiyələnib. 1992-1995-ci illərdə İranın Qum, Təbriz şəhərlərində ilahiyyat üzrə təhsil alıb. O, həmçinin Gürcüstanda fəaliyyət göstərən məscidlərdə tərtibat və nəqqaşlıq işləri ilə də məşğul olub.

Rəssamın 2007-ci ildə İstanbul şəhərində "Cəfərilər dərnəyi"nin təşəbbüsü ilə Ramazan ayı boyunca yağlı boya tabloları, müəllifin izahatları ilə yerli televiziya kanalların birində yayımlanıb. Rəssamın Marneuli şəhərindəki "Gənclər Mərkəzi"nin iclas salonunda da ilk fərdi sərgisi keçirilib. Hacı Rizvan İsmayılovun 2015-ci ildə "Rəssam rənglərlə şeir yazan bəstəkardır" adlı rəsm əsərlərindən ibarət kataloqu Azərbaycanlıların Mədəniyyət Mərkəzinin dəstəyi ilə AF LTD şirkəti tərəfindən çap edilib. Marneulidə yaşayıb-yaradan rəssam Hacı Rizvan İsmayılovun 107 səhifədən ibarət kataloqunda 90 rəsm əsəri yerləşdirilib. Kataloqda rəssam Hacı Rizvan İsmayılovun tərcümeyi-halı və "Yaradıcılıqda əsas hədəflərim" adlı məqaləsi gürcü, ingilis və Azərbaycan dillərində dərc olunub. 2015-ci ildə Parlamentin Kitabxanasında onun 73 rəsm əsərinin sərgisi keçirilib. Hazırda 46 yaşlı rəssamın yüzə yaxın yağlı boya ilə çəkilmiş əsərləri var. Rəssam əsərlərində əsasən, əxlaq, irfan yolu, cəmiyyəti öz fitrətinə, təbii keçmişinə, uca dəyərlərə qaytarmaq kimi süjetli tablolar verib və rənglərin virtual dili ilə qavranan və yaddaqalan rəsm əsərləri yaradıb.

Hacı Rizvan İsmayılov 3 uşaq atasıdır. O, həm də mənalı qəzəllər müəllifidir. Onun «Borçalı qəlbimdir, eşqim Əhli-Beyt" adlı şeirlər kitabı işıq üzü görüb. Hacı Rizvan İsmayılov rəssamlıqla bərabər Gürcüstanda İslam abidələrinin tarixini də araşdıraraq "Gürcüstanda İslam abidələri" adlı tarixi-ensiklopedik kitab da nəşr etdirib.

Hacı Rizvan İsmayılov Azərbaycan dilində nəşr olunan "Əhli-Beyt" jurnalının baş redaktorudur.

## AYNURƏ ƏLİYEVA



Aynurə Əsildar qızı Əliyeva 1987-ci il sentyabr ayının 17-də Marneuli şəhərində anadan olub. Sulxan Saba Orbeliani adına Tiflis Pedaqoji Universitetinin Marneuli filialının filologiya fakültəsini bitirib.

Aynurə Əliyeva 1993-cü ildə Bayram Kərəmov adına Candar ictimai məkətinə gedib. 2004-cü ildə orta məktəbi bitirib. Qafqaz Humanitar Universitetinin hüquq fakultəsini bitirib. 2006-cı ildən Marneuli Televiziyasında iş fəaliyyətinə başlayıb. Montajçı, aparıcı, müxbir olaraq çalışıb. 2008-ci ildə Azərbaycanda Qafqaz Media Mərkəzinin jurnalistika təlimlərini keçib.  2009-cu ildə Milli azlıqların monitorinq qrupunda fəaliyyət göstərib. Təşkilatda fəaliyyəti zamanı "Gürcüstan inzibati cərimələr qanunu"nu Azərbaycan dilinə tərcümə edib. Həmçinin "Unudulmuş Miras" filminin çəkiliş və montajında yaxından iştirak edib. "Gənclərin səsi" jurnalının müxbiri olub. Marneuli Televiziyasında "Vətəndaş ol" və "Tibbi teleməsləhətlər" verlişinin aparıcısı olub. 2012-ci ildə Gənc qan donorları üçün yay universiteti-Batumi layihəsinin iştirakçısı olub.Hazırda Marneulidə fəaliyyət göstərən Marneuli Gənclər Mərkəzinin mətbuat xidmətinin rəhbəridir.

## AZƏR MƏMMƏDOV



Məmmədov Azər 1987-ci ildə Marneuli rayonunun Qırxılı kəndində anadan olub. 1994-cü ildə Qırxılı kənd orta məktəbinin birinci sinifinə daxil olub və 2005-ci ildə orta təhsilini başa vurub. Sonra o, Gürcüstan İctimai Kollecini bitirib və bundan sonra Əhli-Beyt Cəmiyyətinin nəzdində dini kurslarda dini dərslər keçib.

Azər Məmmədov 2014-cü ilin dekabr ayından Azərbaycanın İNTER.AZ beynəlxalq televiziya kanalının Gürcüstan üzrə xüsusi müxbiri təyin olunub. Çalışdığı qısa vaxt ərzində Gürcüstandan və soydaşlarımızın kompakt yaşadığı bölgələrdən operativ şəkildə televiziya xəbərləri yayımlayıb.

Evlidir, bir övladı var.

## TURAC İBRAHİMOVA



1986-cı il sentyabrın 19-da anadan olub. 1993-cü ildə 7 nömrəli Candar orta məktəbinə (indiki Bayram Kərəmov adına ictimai məktəb) daxil olub. 2004 cü ildə 11-ci sinifi bitirdikdən sonra İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetinin Kvemo Kartlidəki filialının tarix fakültəsinə qəbul olub. 2008-ci ildə həmin təhsil ocağını bitirib. Hazırda magistratura üzrə təhsilini davam etdirmək üçün sənədlərini İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetinə verib. 2006-cı ildən hələ II kurs tələbəsi olarkən Marneuli televiziyasında jurnalistika üzrə müsabiqədə iştirak edib. T. İbrahimova ali məktəbdə təhsil almaqla yanaşı, N. Nərimanov adına Qızılhacılı ictimai məktəbində aşağı sinif şagirdlərinə tarix fənnini tədris edib. O, inglis dili, kompyuter, gürcü dili və jurnalistika kurslarında da biliyini artırıb.

2006-cı ilin may ayının 26-da Marneuli televiziyasında müsabiqədən keçəndən sonra həyatını jurnalistika peşəsinə həsr etməyə qərar verib. Azərbaycanın ANS televiziyasının Gürcüstan üzrə xüsusi müxbiri işləyib. 6 il televiziyada çalışıb. Hazırda Marneuli rayon icra hakimiyyətində mütəxəssis vəzifəsində çalışır.

## “MOLLA NƏSRƏDDİN”İN BORÇALI TƏMSİLÇİLƏRİ

1906-cı ildə Tiflisdə “Qeyrət” mətbəəsində yayına başlamış “Molla Nəsrəddin” satirik dərgisi toplumsal-siyasi, bədii fikir tariximizdə Renessans boyutlu hadisəyə çevrilmişdi. “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!” məramıyla meydana atılan, “xalqın həqiqət deyən səsi, XX əsr Azərbaycan ictimai həyatının ədəbi-bədii salnaməsi, ensiklopediyası” statuslarını şərəflə daşımış, Mirzə Cəlil Məmmədquluzadənin dediyi kimi, “zəmanənin özü yaratdığı” “Molla Nəsrəddin” mütərəqqi ideyaların carçısı, demokratinin tərəfdarı olmuş, çar mütləqiyyətini, onun müstəmləkəçilik amacını, cəhaləti tənqid etmiş, xalqın azadlığı, yeni quruculuq uğrunda mücadələyə öz kəskin ictimai satirasıyla böyük yardım göstərmişdi.

Önəmlidir ki, “Molla Nəsrəddin”in Tiflisdə yayımlanması və on ildən çox burada nəşr olunması Borçalının qələm, söz əhlinin də onun səsinə səs verməyinə, onun ənənələrini yaşatmasına səbəb olmuşdu.

Gürcüstanın Axalsıx (Ahısqa) bölgəsindən Ömər Faiq Nemanzadənin (1872–1941) “Qeyrət”in də, “Molla Nəsrəddin”in də qurucularından biri, M. C. Məmmədquluzadənin ən yaxın məsləkdaşı, qələmdaşı olmağı buna aşkarca sübutdur.

Gürcüstanlı jurnalistlər, yazarlar Nəriman Nərimanov, Hüseyn Minasazov, Mirzə Şərif Mirzəyev “Molla Nəsrəddin” ideyalarını müdafiə etmiş, onun mübarizəsinə qoşulmuşdular. Belə ki, N. Nərimanov dərginin sayılarını müsadirə edən polisi rişxəndlə ifşa etmişdi; H. Minasazov dərginin mücadələ xəttini bəyənmiş, onun “mübarizə meydanına gecikmədiyini” bildirmişdi; yerli şairlər Mirzə Həsən Məcruh, İsmayıl Həqqi və başqaları onun səhifələrində öz satirik şeirləriylə çıxış etmişdilər; Tiflisli mühərrirlər, çapçılar İsmayıl Həqqi, Məhəmməd Hüseynov, Allahverdi Feyziyev, Paşa Məmmədov, Müslüm Bağırov, Ələkbər Məmmədov, Seyfulla Feyziyev və başqaları onun nəşri işinə böyük zəhmət sərf etmişdilər.

1918-ci ildə Tiflisdə ərəb hürufatıyla çıxmış “Tartan-Partan” satirik dərgisi burada “Molla Nəsrəddin” gələnəklərini davam etdirməyə cəhd olaraq yayınlanmışdı. Bu satirik, şəkilli jurnalın ilk və yeganə sayı 1918-ci ilin sentyabrında çıxmışdı. Səkkiz səhifəlik bu məcmuənin “Məqsədimiz” adlı baş məqaləsində oxuculara xitabla bildirilmişdi ki, ‘Molla Nəsrəddin’ gedəndən bəri üzümüz gülməyir. Əliheydər Qarayevin redaktorluğuyla çap edilmiş dərgidə Əliqulu Qəmküsarın, Əbdürrəhim bəy Haqverdiyevin və başqalarının əsərləri, habelə dövrün ictimai-siyasi olayları əks olunan şəkillər, karikaturalar verilmişdi. Karikaturaların biri “Gürcüstan” adlanır və onun şəkilaltında deyilir: “Qatso, əqlə gəl, yer məsələsinin vaxtı deyil”. “Azərbaycan” adlı karikaturda isə bəy kəndlinin bığından yapışıb soruşur: “Adə, nə vaxta kimi tutuquşu olub, sosialistlərə qulaq asacaqsınız?”

“Molla Nəsrəddin” poetikasının araşdırıcısı İslam Ağayevin yazdığı kimi, “Molla Nəsrəddin”in lirikası onun publisistikasının yetirməsidir, yeni şeirin oluşdurucuları zəmanənin ən önəmli məsələlərindən bəhs etmişlər, xalqın milli-ictimai şüurunu oyatmaq onların başlıca amalına çevrilmişdi.”

Bu amallar eynilə Borçalının aydınlarını da düşündürmüşdü. O sıradan Borçalının yazar şəxslərindən Ömər Faiq Nemanzadə, Mirzə Həsən Məcruh, Məhəmməd Rzazadə Mühəqqər, Əliyar Qarabağlı “Molla Nəsrəddin” ədəbi hərəkatıyla bağlı olublar.

## MÜNDƏRİCAT


Gürcüstanda Azərbaycandilli mətbuatın tarixindən................................3
Ömər Faiq Nemanzadə ..........................................................10
Məhəmməd ağa Şahtaxtlı.......................................................14
Hüseyn Minasazov...............................................................15
İsmayil Həqqi.......................................................................17
Mirzə Həsən Məcruh.............................................................18
Mühəqqər ...........................................................................21
Rza Şahvələd.......................................................................22
Hidayət Bayramlı ................................................................23
Həsən Səbri .........................................................................24
Rüstəm Həsənov ..................................................................26
Kərim Kərimov .....................................................................27
Məhyəddin Sultanov ............................................................28
Murtuz Muradov ..................................................................29
Dünyamalı Kərəm................................................................30
Rizvan Əliyev .....................................................................31
Teymuraz Cəfərli .................................................................32
Ziya Borçalı ........................................................................33
Vəli  Əliyev.........................................................................35
Süleyman Süleymanov.........................................................36
Əli Abbas ............................................................................38
Ziyadxan  Məmmədov .........................................................40
Məmmədhüseyn Bəxtiyarlı...................................................41
Nəsib Yusifoğlu...................................................................42
Arif Mustafazadə ................................................................44
Mədəd Coşqun ....................................................................45
Qasım Əhmədov ..................................................................46
Alxan Binnətoğlu.................................................................47
Əyyub Bayramov.................................................................48
Kamil Kirəcli ......................................................................49
Bəhram Mehdi ....................................................................50
Paşa Əliyev (Kəsəmənli)......................................................51

Həmid Vəliyev .......... 52
Əzim İsmayıllı .......... 55
Arif Hadızadə .......... 56
Emin Mahmudov .......... 57
Əlixan Düşgün .......... 59
İslam Əliyev .......... 60
Ramiz İgidov .......... 62
Qasım Abbasəliyev .......... 63
Şahvələd Əhmədoğlu .......... 64
Müzəyyət Yusifov .......... 65
Yaşar Vəliyev .......... 66
Pərixanım Mursaqulova .......... 68
Səyavuş Uyğun .......... 69
Osman Əhmədoğlu .......... 71
Müqəddəs Nemətov .......... 72
Xətayə Rüstəmova .......... 73
Təhməz Təhməzov .......... 74
Şurəddin Məmmədli .......... 75
Şahvələd Eyvazov .......... 77
Mahmud Kamaloğlu .......... 79
QəhrƏman Musayev .......... 80
Elman Kələyev .......... 82
Rəşid Faxralı .......... 84
Lətif Kamil .......... 85
İmir Məmmədli .......... 86
Bahəddin Oruclu .......... 87
Binnət Əlioğlu .......... 88
Əlixan Yəhyaoğlu .......... 89
Əbdüləli İbrahimsoy .......... 90
Eyvaz Əlləzoğlu .......... 91
Dursun Eyvazov .......... 92
Həmzəli İlyasov .......... 93
Nizami Məmmədzadə .......... 94
Şahismayıl Şəmmədoğlu .......... 97

Mirzə Məmmədoğlu....................................................................99
İbrahimxəlil ....................................................................101
Gülyaz Əliyeva ....................................................................102
Əziz Dəlivəlov ....................................................................103
Abay Paşayev....................................................................104
Nadir Almazoğlu....................................................................105
Ramilə Əliyeva ....................................................................106
Zümrüd Qurbanov....................................................................108
Tapdıq Yolçu ....................................................................109
Rafiq Hümmət....................................................................110
Akif Xansultanlı....................................................................111
Ehtiram Əmirxanlı ....................................................................113
Emma Bayramova....................................................................114
Afiq Muxtaroglu....................................................................115
Cambul Məmmədli ....................................................................116
Hacı Rizvan İsmayılov....................................................................117
Aynurə Əliyeva ....................................................................118
Azər Məmmədov ....................................................................119
Turac İbrahimova....................................................................120

*"Gürcüstanın azərbaycanlı jurnalistləri" adlı kitab ilk dəfədir ki, Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı jurnalistlərin tərcümeyi-halından bəhs edən bir kitab kimi nəşr olunur. Kitabda Azərbaycandilli jurnalistikamızın Gürcüstan qolunun inkişafında böyük əməyi olan və dünyalarını dəyişmiş jurnalistlərimizin, həmçinin gənc qələm sahiblərinin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilib. Nəşrdə əsasən Gürcüstanda anadan olub və vaxtilə bu ölkədə nəşr olunan mətbuatda çalışan jurnalistlər haqqında məlumat verilib.*

*Kitaba həmçinin müəlliflərin elmi ədəbiyyatlardan istifadə edərək qələmə aldıqları "Gürcüstanda Azərbaycandilli mətbuatın tarixindən" adlı məqalə də daxil edilib.*

**Kitab "Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyi"nin təşəbbüsü və ARDNŞ-in Gürcüstan nümayəndəliyinin maliyyə dəstəyi ilə nəşr olunub.**

9789941078750